# Xalq qəzeti

Xalqın qəzeti!

№ 196 (30890) 14 sentyabr 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# “Yeni əsrin müqaviləsi” uğurla gerçəkləşdirilir

***Saziş ölkə iqtisadiyyatında 40 milyard dollarlıq investisiyaya yol açıb***



**Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” (AÇG) yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanmasından 8 il ötür.**

Xatırladaq ki, “Yeni əsrin müqaviləsi” adlandırılan həmin saziş 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan hökuməti, Dövlət Neft Şirkəti (SOCAR), bp, “Chevron”, “Inpex”, “Statoil”, “ExxonMobil”, “TP”, “Itochu” və “ONGC Videsh” şirkətlərinin rəsmiləri tərəfindən Bakıda imzalanıb. Həmin sazişə əsasən, AÇG yataqlar blokunun işlənməsi 2050-ci ilədək uzadılıb. Bununla da, “Azəri–Çıraq–Günəşli” yataqlar blokunun işlənilməsində yeni dövr başlanıb.

*(ardı 7-ci səhifədə)*

## Sözdən əmələ keçməyin vaxtıdır

*Azərbaycan–Ermənistan arasında demarkasiya prosesi yeniliklər vəd edir*

**Hazırda delimitasiya və demarkasiya məsələləri Azərbaycan və Ermənistan arasında aparılan danışıqların əsas istiqamətlərindən biridir. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Azərbaycanla sərhədin demarkasiyası prosesində müəyyən yeniliklərin ola biləcəyini açıqlayıb. Lakin nazir bu yeniliklərin mahiyyəti barədə təfərrüata varmayıb. Onun bu bəyanatı diqqət mərkəzinə düşüb.**

*(ardı 5-ci səhifədə)*



## Qarabağ Universiteti ikinci addımını atır...



Səhifə ⇨ 10

## Sülhə “yox!” deyənlər



Səhifə ⇨ 3

## Bakı zəfəri Azərbaycan dövlətçiliyinin bərpasını gerçəkləşdirdi



Səhifə ⇨ 6

## Bakı–İrəvan sülhü və Kremlin “Zaxarova dili”

*Rusiya XİN-in rəsmi nümayəndəsi nə dedi və nəyi demək istəyirdi?*



**Rusiyanın müxtəlif dairələrinin, o cümlədən ölkə rəsmilərinin Bakı-İrəvan sülh prosesinə, xüsusən, Azərbaycan və Ermənistan liderlərinin bu il avqustun 8-də Vaşinqtonda imzaladıqları Birgə Bəyannaməyə münasibətlərindən bir neçə nəticə hasil olur. Birincisi, tərəflər arasında barış məsələsi asan deyil, onlar mövcud istiqamətdə çox işlər görməlidirlər. İkincisi, sülh mühiti və razılaşmalar Cənubi Qafqaz ölkələrinin və regionda maraqlı dövlətlərin mənafeləri ilə ziddiyyət təşkil etməməlidir.**

*(ardı 3-cü səhifədə)*

## Azərbaycanın bank sektorunda rəqəmsal keçid



Səhifə ⇨ 7

## Avrozonanın “II sütunu” borc bataqlığında



Səhifə ⇨ 4




Səhifə ⇨ 8

# İqtisadi Şuranın növbəti iclası

**İqtisadi Şuranın növbəti iclası keçirilib.**



Nazirlər Kabinetindən verilən məlumata görə, sentyabrın 12-13-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin proqnoz layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, dünya iqtisadiyyatının inkişaf meyilləri, büdcə proqnozlarında istifadə olunan əsas fərziyyələr, cari iqtisadi vəziyyət və 2025-2029-cu illər üzrə yenilənmiş makroiqtisadi proqnozlar, 2026-2029-cu illərdə büdcə siyasətinin əsas məqsəd, istiqamət və hədəfləri, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası ilə bağlı xərclərin maliyyələşdirilməsi və Böyük Qayıdış Proqramının təmin edilməsi, Ortamüddətli Xərclər Çərçivəsi və nəticə əsaslı büdcə mexanizminin tətbiq




olunduğu sahələr, büdcə qaydasının parametrləri üzrə hədəf göstəriciləri, makroiqtisadi və maliyyə sabitliyi sahəsində cari vəziyyət, siyasət istiqamətləri və digər məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Sahil Babayevin, Mərkəzi Bankın sədri Taleh Kazımovun və əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin məruzələri dinlənilib. Təqdim olunan gündəliyə dair İqtisadi Şuranın üzvləri tərəfindən müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şura üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla 2026-cı ilin büdcə zərfinə daxil olan bütün sənəd və məlumatların Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***XQ***

*Böyük Qayıdışın akkordları*

# Xocalı rayonu sürətlə məskunlaşır

## *Daşbulaqlılar və Seyidbəylilər də doğma yurda qayıtdılar*

**Qarabağa Böyük Qayıdış prosesi davam edir. Dünən Xocalı rayonunun Daşbulaq kəndinə yola salınan ilk köç doğma yurda çatıb.**






Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən XQ-yə verilən məlumatda bildirilir ki, bu münasibətlə keçirilən şənlikdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri iştirak ediblər. 67 nəfərdən ibarət 13 ailəyə müasir tələblərə cavab verən fərdi evlərin açarları təqdim olunub.

Prezidentin bölgədə xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov bildirib ki, Xocalının Daşbulaq kəndinə ilk köçün reallaşması Böyük qayıdış proqramının daha bir uğurlu mərhələsi kimi tarixə düşüb. Kənddə sakinlərin yaşayışı üçün lazımi infrastruktur yaradılıb, evlər içməli su, elektrik enerjisi, qazla təmin edilib.

Daşbulağa qayıdan sakinlər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Doğma Daşbulaq kəndinə köç edən keçmiş məcburi köçkün Gülçöhrə Əliyeva müxbirimizə deyib:**

– 13 sentyabr mənim üçün unudulmaz gündür. Uzun illərdən sonra doğma torpaqlara qayıdıram. Doğma torpaqlardan vəhşiliklə qovulanda gənc qız idim. İllərlə o yerlərin həsrəti ilə yaşadım, bir gün yenidən qayıdacağımıza ümidimi itirmədim. Artıq həsrət dolu illər geridə qalır, qarşıda isə bizi doğma yurdumuzda xoş günlər gözləyir.

***



**Həmin gün Xocalı rayonunun Seyidbəyli kəndinə yola düşən ilk köç karvanı ünvana çatıb. Onlara da abad mənzillərin açarları təqdim edilib.**



İlk mərhələdə Seyidbəyli kəndinə 9 ailə – 30 nəfər köçürülüb. Öz yurduna qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Mənzillərin açarlarını ailələrə təqdim edən Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov bildirib ki, Seyidbəyli kəndində müasir tələblərə cavab verən fərdi yaşayış evləri inşa olunub, qaz, işıq və su xətləri tam bərpa edilib və digər sosial infrastruktur obyektləri sakinlərin istifadəsinə verilib.

**Seyidbəyli kəndinə köç edən keçmiş məcburi köçkün Sultan Əsədov bildirib ki, o məcburi köçkün düşəndə 24 yaşı olub:**

– Şəki rayonunda məskunlaşmışdıq. Çətinliklərimiz çox olsa da, dövlət hər zaman dayağımız olub. Bu gün isə doğma torpaqlarda yeni həyata başlayırıq. Çox sevinirik, 33 ildən sonra yenidən bu yerlərə qayıtmışıq. Xocalı torpağı çox müqəddəsdir. Burada həm hərbçilərimizin, həm də mülki əhalinin qanı tökülüb. Allah bizi bu xoşbəxtliyə qovuşduran şəhidlərimizə rəhmət eləsin.

***T.RÜSTƏMLİ***
***XQ***

# Müdafiə naziri Pakistan tərəfinə başsağlığı verib



**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Sahir Şamşad Mirzaya başsağlığı ünvanlayıb.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, başsağlığında deyilir: "Pakistanın şimal-qərb bölgəsində terrorçuların xaincəsinə hücumu nəticəsində Pakistan Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun şəhid olması və yaralanması barədə xəbər məni hədsiz kədərləndirdi.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və Allahdan səbir diləyirik. Yaralananların tezliklə sağalmalarını arzu edirik.

Allah rəhmət eləsin".

# Naxçıvanda həssas qrup uşaqlarına dərs ili hədiyyəsi




**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və Muxtar Respublikası Nazirlər Kabinetinin dəstəyi, Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə çoxuşaqlı, aztəminatlı ailələrin uşaqlarına və qazi övladlarına Bilik günü ərəfəsində məktəbli geyimləri və dərs ləvazimatları təqdim olunub.**

Mərasimdə Muxtar Respublika Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev, Nazirlər Kabinetinin şöbə müdiri Tarverdi Məmmədov Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildiriblər ki, ölkəmizdə uğurla həyata keçirilən dövlət siyasətinə uyğun olaraq uşaqlara hərtərəfli diqqət və qayğı göstərilir, sosial çətinliyi olan uşaqların problemləri daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada həssas qrupdan olan uşaqların hüquqlarının qorunması, təhsili, sağlamlığı və sosial müdafiəsi ilə bağlı önəmli tədbirlər həyata keçirilir.

Görüşdə xüsusi qayğıya ehtiyacı olan uşaqlara məktəbli geyimləri və dərs ləvazimatları təqdim olunub. Digər bölgələr də daxil olmaqla muxtar respublikada 132 nəfər xüsusi kateqoriyadan olan uşağa məktəbli geyimləri və dərs ləvazimatları, 348 uşağa isə maddi yardım verilib.

***XQ***

# Gənc əsgərlərlə görüş necə olacaq?




**Azərbaycan Ordusunda xidmətə yeni başlayan gənc əsgərlərin sağlamlığını qorumaq məqsədilə həyata keçirilən preventiv tədbirlərlə əlaqədar hərbi hissələrdə görüşə müvəqqəti məhdudiyyət qoyulub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, hərbi hissələrdə effektiv profilaktik tədbirlərin görülməsi sayəsində şəxsi heyət arasında respirator xəstəliklərə, o cümlədən qrip infeksiyasına yoluxma hallarının qarşısı alınır.

"Gənc əsgərlərin valideynlərindən, eləcə də bütün vətəndaşlardan hərbi qulluqçularımızın sağlamlığına həssaslıqla yanaşmağı, məhdudiyyəti anlayışla qarşılamağı və hərbi hissələrə gəlməməyi bir daha xahiş edirik.

Qeyd olunan məhdudiyyət götürüldükdən sonra ictimaiyyətə əlavə məlumat veriləcək", - deyə məlumatda qeyd edilib.

***XQ***

# Bakı–İrəvan sülhü və Kremlin "Zaxarova dili"

(əvvəli 1-ci səhifədə)

Əvvəla bildirək ki, hər iki baxışda Bakı-İrəvan sülhünə skeptik yanaşma və prosesin optimizm üçün əsas vermədiyini vurğulamaq əzmi var. Yəqin ifadələri xatırladınız. Vaşinqton razılaşmasına optimizmdən kənar rəng qatan Rusiya baş nazirinin müavini Aleksey Overçuk idisə, məsələyə skeptik yanaşmanın təbliğatını ölkənin xarici işlər naziri Sergey Lavrov aparmışdı. Yəni Kremlin baş diplomatiya idarəsinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın indi dedikləri heç də təəccüblü deyil.

Bəli, Bakının və İrəvanın sülh yolunda həyata keçirməli olduqları çox işlərin mövcudluğunu vurğulayan xanım Zaxarova bildirib ki, fikir ayrılıqlarını aradan qaldırmaq, sülh müqaviləsini imzalamaq, sərhədlərin delimitasiyasını və demarkasiyasını ədalətli əsaslarla başa çatdırmaq, nəqliyyat kommunikasiyalarını açmaq vacibdir. Üstəlik, bunu elə şəkildə etmək lazımdır ki, proses hər iki ölkənin, eləcə də regionun ən böyük siyasi və iqtisadi qonşularının maraqlarına xidmət etsin.

Zaxarovanın dediklərini Azərbaycan və Ermənistan rəsmiləri də vurğulayaraq, görüləcək işlərin Cənubi Qafqazda tarixi maraqlara malik məmləkətlərin mənafeyinə zidd mahiyyət daşımamasının zəruriliyini önə çəkiblər. Maraqlar isə bərabərlilik prinsipləri əsasında təmin olunmalıdır. Yəni hər şey məlumdur. Məsələ ondadır ki, Zaxarova, əslində, hər kəsin bildiklərini xatırladır. Problem də bu xatırlatmadadır. Görəsən, xanım diplomatın bildiyi, region ölkələrinin rəsmi təmsilçilərinin bilmədikləri nədir? Sualımız ritorikdir. Çünki hamı hər şeyin fərqindədir.

M.Zaxarova Cənubi Qafqazda maraqlı tərəflər kimi Rusiyanın, İranın və Türkiyənin adını çəkir və mövcud xüsusda "3+3" regional məşvərət formatını yada salır. O formatı ki, onun təşəbbüskarı məhz Azərbaycan və Türkiyə olmuşdu. O format ki, Rusiya burada təmsil olunsa da, ölkə həmişə Bakı-İrəvan normallaşmasını mövcud platformadan kənar tutmağa çalışmış, sanki onu monopoliyaya götürübmüş kimi davranmışdı.



Nəticədə Qarabağda erməni silahlı qüvvələrinin birləşmələri, habelə separatçı rejim saxlanılmış və bununla ərazi bütövlüyü və suverenliyin toxunulmazlığı prinsipi heçə sayılmışdı. Üstəlik, həmin vaxt Qarabağda Rusiya sülhməramlı kontingenti də var idi. Deməli, Kreml Qarabağ məsələsini sadalanan təməl prinsiplərdən kənar müstəvidə görürdü. Başqa cür düşünməyə əsas yoxdur. Rus sülhməramlıları Qarabağın erməni əhalisinə uşaq bezləri və digər gündəlik tələbat malları daşıyırdılarsa, separatçıların bölgəyə silah-sursat keçirmələrini müşayiət edirdilərsə, daha nə deyəsən?

Hazırda Zaxarovanın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması kontekstində "3+3" formatını xatırlatması, yumşaq desək, gülünc görünür. Axı ölkənin Bakı ilə İrəvan arasında münasibətləri yoluna qoymaq üçün bu formatdan bəhrələnmək şansı var idi, ancaq istəmədi. İndi isə Rusiya Cənubi Qafqazda tutunmaq üçün özü ilə yanaşı, Türkiyənin və İranın adını çəkir. Aydındır ki, bu, Bakı-İrəvan normallaşmasının hazırkı trayektoriyasına etirazdır. Guya kim bilmir ki, Vaşinqtonda Azərbaycan və Ermənistan liderləri bir araya gəlib müştərək saziş imzalasalar da, tərəflərin hələ getməli olduqları çox yol var? Bu yolda Rusiyaya ehtiyac duyulurmu? Birmənalı şəkildə deyilə bilər ki, yox! Bəs Kremlin regional maraqları və mənafeləri nəzərə alınırmı? Bu haqdakı daha konkret fikri diqqətə çatdıracağıq.

Bəli, Vaşinqtonda imzalanmış Birgə Bəyannamə son dərəcə böyük tarixi əhəmiyyət daşıyan, Azərbaycan və Ermənistan arasında sülh quruculuğuna xidmət edən sənəddir. Elə bir sənəd ki, indiyədək analoqu olmayıb. Bəyannamə xoş niyyətin yüksək səslə ifadə olunmasıdır. Amma məsələ təkcə bunda da deyil. Sənəddə bütün məqamlar təfsilatı ilə göstərilib. Prinsipcə, problemli heç nə qalmayıb. Bir halda ki, beynəlxalq terminlə desək, Tramp marşrutu, yəni Zəngəzur dəhlizi fəaliyyətə başlayacaq və onun iş mexanizmləri aşkardır, sərhədlərin delimitasiyası və demarkasiyası üzrə hansısa problem də yoxdur. Keçmiş SSRİ dövründəki sərhədlərin haradan başlayıb haradan bitdiyi hər kəsə yaxşı məlumdur.

Digər tərəfdən, Rusiya bilməlidir ki, indiki temp saxlanılsa, gələcəkdə Cənubi Qafqazda sərhəd anlayışı ümumiyyətlə aradan qalxacaq. Bunun nəyi pisdir ki? Avropada Hollandiyadan Belçikaya, Fransadan Almaniyaya, Almaniyadan Avstriyaya, İspaniyadan Portuqaliyaya insanlar heç bir sərhəd nəzarəti olmadan hərəkət edirlər. Regionumuzda da eyni vəziyyət yaranacaqsa, buna ancaq sevinmək lazımdır. Əlbəttə ki, Rusiyada durumu kədərlə qarşılaya bilərlər və deyəsən, qarşılayırlar da. Anlamaq olmur ki, niyə və nə üçün?

Əslində, böyük ölçüdə Zaxarovanın da nə demək istədiyi anlaşılmır. Amma bir şey aydındır ki, Rusiya "3+3" formatını dövriyyəyə gətirirsə, deməli, Cənubi Qafqazdan yapışmaq üçün mütərəqqi davranmaq imkanlarını itirməyib. Bu, müsbət haldır. Mövcud anlamda Rusiya XİN-in sözçüsünün diqqətə çatdıracağımız iqtibasdakı təklifi də müsbət yönümlüdür: "Biz azərbaycanlı və erməni həmkarlarımızdan bu platformanın xarici işlər nazirlərinin növbəti görüşünün keçiriləcəyi yer və tarix barədə tezliklə razılığa gəlmək üçün fəal addımlar gözləyirik. Öz növbəmizdə bütün məsələlər üzrə tərəfdaşlara tələb olunan dəstəyi göstərməyə hazır olduğumuzu təsdiqləyirik".

Təkcə Zaxarova deyil, digər Rusiya rəsmiləri də bilməlidirlər ki, "3+3" regiol olan məşvərət formatı əhəmiyyətini itirməyib və bu format çərçivəsində bundan sonra daha çox görüləcək işlər, razılaşdırılacaq məsələlər var. Ancaq Moskva həmin işlər və məsələlərin hansı yönündə olacaq, olmaq istəyəcəkmi, ən böyük sual budur.

Cənubi Qafqaz və bölgədə tarixi maraqlara malik ölkələrin mənafelərinin qorunmasına gəldikdə isə yaxşı olar ki, Rusiya rəsmiləri Prezident İlham Əliyevin avqustun 27-də Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalında yayımlanmış müsahibəsindəki fikirlərə nəzər salsınlar. Dövlətimizin başçısı müsahibəsində Zəngəzur dəhlizinin, başqa adla desək, Tramp marşrutunun regional mənfəətlərindən söz açarkən belə demişdi: "Rusiya sərhədindən İran sərhədinədək dəmir və magistral yolları əlaqəmiz var. Çatışmayan hissə İran ərazisindədir. Onlar təxminən 150 kilometrlik və ya daha çox hissəni tikməlidirlər. Lakin bu, müəyyən vaxt aparacaq, bəlkə də bir neçə il. Bəs Şimalla Cənub arasındakı əlaqələr necə qurulacaq? Zəngəzurdan keçə bilər. Xəritəni göz önünə gətirsəniz, həmin yol Şimali Avropadan Rusiyaya, Azərbaycana, sonra Azərbaycandan Zəngəzura gedə, Naxçıvana daxil ola, - və oradan isə bizim İranla dəmir yolu əlaqəmiz var, - və onunla Fars körfəzinə çıxmaq olar. Deməli, əslində, Zəngəzur dəhlizi təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal-Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq - Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək".

Əlqərəz, Kremldə əmin olsunlar ki, "3+3" regional məşvərət formatının gündəliyini, böyük ölçüdə, Prezident İlham Əliyevin vurğuladığı fikirlər təşkil edir. Zaxarova isə onu da bildirir ki, Rusiyanın dəyişməz prioriteti Cənubi Qafqazda sülhün və sabitliyin möhkəmləndirilməsidir. "Biz ardıcıl olaraq Bakı və İrəvan arasında uzun müddət gözlənilən barışığın davamlı xarakter daşımasının tərəfdarıyıq. Bu, bütün regionun inkişafı üçün ayrılmaz şərtdir. Azərbaycanla Ermənistan arasında dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinə Rusiyanın verdiyi töhfəni qiymətləndirməmək çətindir", - deyən xanım Zaxarova əlavə edir ki, hazırkı Ermənistan-Azərbaycan normallaşma mərhələsi Rusiyanın və şəxsən Prezident Vladimir Putinin fəal iştirakı ilə başlayıb: "Bizim



birbaşa iştirakımızla 2020–2022-ci illər arasında ən yüksək səviyyədə ikitərəfli razılaşmalar əldə olunub. Onlar, sözün əsl mənasında, qan tökülməsini dayandırdı və Cənubi Qafqazda sülh prosesinin əsas istiqamətlərini müəyyənləşdirdi. Əsas sahələr üzrə kompleks tədbirlər, hərtərəfli plan razılaşdırıldı: sülh müqaviləsinin işlənməsi, regionda nəqliyyat və iqtisadi əlaqələrin açılması, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası, vətəndaş cəmiyyəti xətti ilə dialoqun inkişafı. Bütün bu nailiyyətlər bu gün də aktuallığını itirməyib, əksinə, azərbaycanlı və erməni tərəfdaşlarımız tərəfindən uğurla istifadə olunmaqdadır. Bu kontekstdə əldə olunmuş irəliləyişi alqışlayırıq".

M.Zaxarovanın öz fikirlərini pozitiv notlarla tamamlamasını biz də alqışlayırıq. Əlbəttə, razıyıq ki, Rusiya 44 günlük müharibəni dayandırdı, qan tökülməsinə son qoydu. 2020-2022-ci illərdə də Kremlin təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderlərinin təmasları gerçəkləşdi. Onu da bilirik ki, Qərb 2022-ci ildən sonra vasitəçilik təşəbbüsünü öz üzərinə götürdü. Ən başlıcası, nə Rusiyanın, nə də Qərbin vasitəçiliyi Qarabağdakı erməni separatizmini aradan qaldırmadı, erməni silahlı qüvvələrinin bölgədəki varlığına son qoymadı...

Daha vacib məqam budur ki, Azərbaycanla Ermənistan arasında real sülh danışıqları 2024-cü ilin əvvəlindən başlandı və həmin vaxt vasitəçilik institutu aradan qalxmışdı. Azərbaycan sülh müqaviləsinin beş şərtini irəli sürmüş, Ermənistana gəldikdə, ölkə rəhbərliyi, mahiyyətcə, həmin şərtləri qəbul etmək məcburiyyətində qalmışdı. Vaşinqtonda tərəflərin bir araya gəlib Birgə Bəyannamə imzalamaları isə prinsip etibarilə ABŞ-ın vasitəçiliyi yox, Bakı və İrəvanın öz aralarında razılaşdırdıqları məqamların həyata keçəcəyinə dair təminatdır. Yəni Birləşmiş Ştatlar hər iki Cənubi Qafqaz ölkəsinin etimad göstərdiyi qarantyor ampluasındadır. Rusiya bu ampluada ola bilmədisə, bunu bacarmadısa, Qarabağın statusunun həlli məsələsini sonraya saxlamaq barədə mənasız ritorikaya baş vurdusa, habelə bölgəyə, məsələn, Ruben Vardanyan kimi siyasi avantüristi göndərib separatizmə dayaq nöqtəsi qazandırmağa çalışdısa, deməli, oyunu düz qurmadı və uduzdu. Özü yıxılan isə ağlamaz.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sülhə "yox!" deyənlər

## *Ankara və İrəvan arasında "buzların əriməsi" kimləri üşüdür?*

**Sentyabrın 12-də Türkiyə–Ermənistan münasibətləri tarixində bir ilk yaşanıb. Həmin gün ikitərəfli münasibətlərin normallaşdırılması üzrə Türkiyədən olan xüsusi nümayəndə Sərdar Kılıçın rəhbərlik etdiyi nümayəndə heyəti quru yolla – "Əlican" və "Marqara" sərhəd–nəzarət–buraxılış məntəqəsindən keçməklə Ermənistana daxil olub. Onları Ermənistan tərəfdən xüsusi nümayəndə, parlament sədrinin müavini Ruben Rubinyan qarşılayıb. Nümayəndə heyətləri birlikdə İrəvana səfər edərək ölkənin Xarici İşlər Nazirliyində görüş keçiriblər.**

Ancaq münasibətlərdə qeydə alınan yaxınlaşma, necə deyərlər, buzların tədricən əriməsi Ermənistandakı bəzi siyasi qüvvələrin və siyasətçilərin ürəyincə olmayıb. Belə qüvvələrin başında Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun", revanşist çıxışlar edən deputatlar və digərləri durur. Görüşün keçirildiyi saatlarda "Daşnaksütyun" gənclər ittifaqının bir qrup üzvü Ermənistan hökumətinin binası qarşısına toplaşaraq etiraz aksiyası keçirib. İştirakçılar əllərində Bakı Hərbi Məhkəməsində mühakimə olunan keçmiş separatçı rejimin "qlavarlar"ının fotoşəkillərini və "İnkara yox" sözləri yazılmış plakatlar tutublar.

Maraqlıdır ki, çıxışın bir qismi ingilis dilində səslənib. Onların fikrincə, Kılıçın səfəri münasibətlərin normallaşması istiqamətində atılan addım kimi təqdim olunsa da, bu, reallıqda Ankaranın irəli sürdüyü şərtlər (?) çərçivəsində baş verir. Onlar öz fikirlərinin təsdiqi kimi hakimiyyətin səfərin cədvəlini və gündəliyini gizlətməsini qeyd ediblər. Aksiya iştirakçılarının sözlərinə görə, onlar Türkiyənin siyasətinin "nə 100 il əvvəl, nə də bu gün" dəyişmədiyi üçün Ermənistan–Türkiyə münasibətlərinin hazırkı gündəmi ilə razılaşmadıqlarını bildirməkdən ötrü toplaşıblar. Etirazçılar qeyd ediblər ki, Ankara ilkin şərt olmadan İrəvanla dialoqa hazır deyil, bundan əlavə, özü də Ermənistana və "Artsax"a qarşı "təcavüzün" (?) birbaşa iştirakçısıdır. Onlar xatırladıblar ki, qondarma "erməni soyqırımı" qurbanlarının xatirəsi müzakirə mövzusu deyil və Ermənistanda onun tanınmasını və təzminat ödənilməsini tələb edən nəsil var. Bununla bağlı hazırkı hakimiyyətlə bağlanmış müqavilələrin, sazişlərin etibarsız olduğunu bəyan ediblər.

Diqqəti cəlb edən digər nüans aksiyaya ölkənin üçüncü prezidenti Serj Sarkisyanın lideri olduğu Ermənistan Respublika Partiyasının gənclər qanadının nümayəndələrinin də qoşulmasıdır. Partiyanın gənclər təşkilatının sədri Henrix Danielyan jurnalistlərlə söhbətində qeyd edib ki, hökumət binasına toplaşanlar sülh tərəfdarıdırlar, lakin sülh Ermənistanı alçaltmaq (?) bahasına olmamalıdır.




***

Tarixə qısa nəzər yetirək: 1890-cı ildə Tiflisdə yaradılan "Daşnaksütyun" özünü "azadlıq hərəkatı" kimi təqdim etsə də fəaliyyətinin lap əvvəlindən Osmanlı dövlətinə və Azərbaycan türklərinə qarşı qanlı əməllərlə yadda qalıb. "Daşnaksütyun" ideologiyasının əsasını "böyük Ermənistan" xülyası təşkil edir və bu xəyalı gerçəkləşdirmək üçün onlar ən qəddar vasitələrdən – silahlı mübarizə, terror və xarici havadarlardan asılılıqdan çəkinməyiblər. Bu təşkilat XIX əsrin sonu – XX əsrin əvvəllərində Osmanlı imperiyası ərazisində onlarla qanlı üsyana rəhbərlik edib.

Azərbaycan torpaqlarında da "Daşnaksütyun"un adı faciələrlə bağlıdır. 1905–1906-cı illərdə Bakıda və Zəngəzurda törədilən qırğınlarda daşnak dəstələri yüzlərlə azərbaycanlını qətlə yetirib. 1918-ci ilin Mart soyqırımı isə bu partiyanın ən qanlı cinayətlərindən sayılır. Şaumyanın başçılıq etdiyi Bakı Soveti ilə sıx əlaqədə olan daşnak silahlıları azərbaycanlı kəndlərini yandırıb, qadın və uşaqları amansızlıqla öldürüblər. Quba, Şamaxı, Bakı və Qarabağ bölgəsində törədilən vəhşiliklər hələ də xalqımızın tarixi yaddaşında dərin iz buraxıb.

XX əsrin ikinci yarısında "Daşnaksütyun" beynəlxalq terror şəbəkəsinin bir parçasına çevrilib. 1970–1980-ci illərdə fəaliyyət göstərən ASALA təşkilatı ilə birbaşa əlaqələri sayəsində Türkiyə diplomatlarına qarşı çoxsaylı terror aktları həyata keçirilib. 1975–1985-ci illərdə təkcə Avropada və Yaxın Şərqdə 40-dan çox türk diplomatı və ailə üzvü daşnak ideologiyasının qurbanına çevrilib. Paris, Vyana, Los-Anceles, Ankarada törədilən qətllər bu partiyanın müasir dövrdə də terroru siyasi alət kimi istifadə etdiyini sübut edir.

Qarabağ münaqişəsi dövründə təşkilat açıq şəkildə separatçı rejimi dəstəkləyib, silahlı dəstələrin maliyyələşdirilməsində iştirak edib. Partiyanın liderləri dəfələrlə "Artsax heç vaxt Azərbaycana qaytarılmayacaq" tipli bəyanatlarla çıxış ediblər. Ermənistanın son illərdə sülh istiqamətində atdığı addımlar isə daşnaklar tərəfindən kəskin şəkildə tənqid olunur. Baş nazir Nikol Paşinyanın Azərbaycanla saziş imzalamaq niyyəti onların ənənəvi revanşist ritorikasını daha da gücləndirib. Maraqlı məqam odur ki, "Daşnaksütyun"un radikal kursu təkcə Azərbaycana deyil, həm də Türkiyəyə yönəlib. ABŞ, Fransa, Rusiya və Yaxın Şərqdəki erməni diaspor təşkilatları ilə birlikdə "erməni soyqırımı" iddialarını gündəmdə saxlayır, bununla həm tarixi saxtalaşdırır, həm də Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə edirlər. Bu siyasətin kökündə yenə də eyni məqsəd dayanır: regionda sabitliyi pozmaq, qonşulara qarşı düşmənçilik toxumlarını yaşatmaq.

***

Sentyabrın 12-də keçirilən aksiyaya bu prizmadan yanaşmaq doğru olardı: "Daşnaksütyun" və ona yaxın qüvvələr, bütövlükdə, revanşist düşərgə bununla normallaşma prosesinə müqavimət göstərdiyini nümayiş etdirməyə çalışır. Əllərində keçmiş separatçı rejimin başçılarının fotoşəkillərini, "İnkara yox" yazılmış plakatlar tutan qaragüruh açıq şəkildə göstərdi ki, onlar üçün keçmişin köhnə şüarları hələ də "mübarizə" predmetidir. Zənnimizcə, aksiyada çıxışların bir qisminin ingilis dilində edilməsi də təsadüfi deyildi. Məqsəd beynəlxalq auditoriyaya mesaj göndərmək, guya, Ermənistan hakimiyyətinin Türkiyə ilə danışıqlarda "şəffaf davranmadığını" göstərmək idi. Daşnak gənclərin arqumenti isə ənənəvi məntiqə söykənir: Ankara hansısa şərtlər irəli sürür, Türkiyə "erməni soyqırımını" tanımır, üstəlik Ermənistana və "Artsax"a qarşı "təcavüzdə" iştirak edib. Beləliklə, biz, əslində sülh təşəbbüslərinə qarşı köhnə ritorikanın yeni formada səsləndirildiyini gördük.

Onların səsləndirdiyi "Türkiyənin siyasəti dəyişməyib" tezisi tarixi saxtalaşdırma üzərində qurulan ənənəvi daşnak təbliğatıdır. Digər tərəfdən, bu cür iddialar Ermənistan cəmiyyətində real gündəmi – iqtisadi dirçəliş, sərhədlərin açılması və yeni əməkdaşlıq imkanlarını kölgədə qoymaq məqsədi daşıyır. Əslində, daşnakların məqsədi sülhü əngəlləmək, Ermənistanı yenidən təcrid vəziyyətinə sürükləməkdir.

Aksiyaya S.Sarkisyanın lideri olduğu Respublika Partiyasının nümayəndələrinin qoşulması isə göstərir ki, Paşinyan hökumətinin Türkiyə ilə münasibətləri normallaşdırmaq cəhdlərinə qarşı yalnız daşnaklar deyil, köhnə hakimiyyətin təmsilçiləri də səfərbər olunublar. Bu partiyanın gənclər qanadının rəhbərinin "sülh Ermənistanı alçaltmaq bahasına olmamalıdır" fikri mahiyyət etibarilə daşnak ritorikasının yumşaldılmış variantıdır. Guya, onlar sülhün tərəfdarıdırlar, amma əslində, hər fürsətdə prosesin qarşısını almağa çalışırlar.

Bu gün Ermənistan cəmiyyətinin qarşısında dayanan əsas seçim çox sadədir: ya regionda yaranan yeni reallıqlara uyğunlaşmaq, sərhədlərin açılmasından, kommunikasiya imkanlarının bərpasından bəhrələnmək, ya da daşnakların köhnəlmiş şüarlarının girovuna çevrilmək. "Daşnaksütyun"un və digər revanşist qüvvələrin mövqeyi ölkəni gələcək inkişafdan məhrum etmək, Ermənistanı təcrid və yoxsulluq girdabında saxlamaq anlamına gəlir. Bu baxımdan, Ermənistan cəmiyyətinin böyük hissəsi artıq anlayır ki, daşnakların əsassız iddiaları və terrorçu irsi ölkəni beynəlxalq təcrid vəziyyətinə salıb. Odur ki, cəmiyyət belə qüvvələri dəstəkləmir və onların revanşist çağırışlarını ölkənin gələcəyinə təhlükə kimi görür.

***Səxavət HƏMİD***
***XQ***

# Konstitusiya üzərində "siçan-pişik oyunu"?

## *Sülh prosesini süni şəkildə ləngitmək keçmiş "fənd"ləri yada salır*

**Ermənistanda konstitusiya islahatı ölkə siyasətinin mərkəzi mövzularından birinə çevrilib. Əslində, məsələ təkcə hüquqi sənədin yenilənməsində deyil. Bu ölkənin gələcək inkişaf modeli, regional siyasətdə özünə biçdiyi rol və qonşularla münasibətlər sistemini necə quracağı barədə strateji qərarlardır. Konstitusiyada hələ də "Dağlıq Qarabağ" ifadəsinin qalması, Azərbaycan ərazilərinə müddəaların aradan qaldırılmaması beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.**

Ermənistan siyasi dairələrində aparılan müzakirələr göstərir ki, konstitusiya dəyişikliyi tələbi ölkənin gələcək siyasi mənzərəsini müəyyən edən vacib elementdir. Qonşu dövlətlə sülh müqaviləsi imzalamaq istəyən hökumət, ilk növbədə, daxili hüquqi bazanı buna uyğunlaşdırmalıdır. Bakı, öz növbəsində, aydın siqnal verir: əgər Ermənistan regionda dayanıqlı sülh istəyirsə, ərazi iddialarına son qoymalıdır. Əks halda, bu məsələ sadəcə qeyd olunacaq və Azərbaycan tərəfi öz hərbi-siyasi strategiyasını həmin reallığa uyğun formalaşdıracaq.

Təəssüf ki, bu gün Ermənistanda konstitusiya məsələsində fərqli fikirlər var. Bu ölkənin xarici işlər naziri Ararat Mirzoyan yerli mediaya açıqlamasında Vaşinqtonda konstitusiya ilə bağlı heç bir müzakirənin aparılmadığını və İrəvanın üçüncü tərəf qarşısında onu dəyişmək öhdəliyinin olmadığını vurğulayıb. Ermənistanın ədliyyə naziri Srbuhi Qalyan isə bildirib ki, rəsmi İrəvan konstitusiyada problem görmür. Onun sözlərinə görə, baş qanunun dəyişdirilməsi məsələsi ölkənin daxili işidir və hər hansı xarici tərəfin buna müdaxilə hüququ yoxdur. Digər tərəfdən, baş nazir Nikol Paşinyan parlamentdəki çıxışında və jurnalistlərə müsahibəsində konstitusiya islahatları barədə danışarkən qeyd edib ki, artıq hökumətin gündəliyində yeni konstitusiyanın hazırlanması məsələsi var. O, bu proses üçün son tarix kimi 2027-ci ili göstərib və layihənin hazırlandıqdan sonra referendum yolu ilə qəbul ediləcəyini bildirib.

Bu ziddiyyətli bəyanatlar Ermənistan daxilində siyasi havanın nə qədər bulandığını göstərir. Hakim dairənin bəzi üzvləri konstitusiya məsələsini ölkənin daxili işi kimi təqdim etməyə çalışır, digər tərəfdən, baş nazirin verdiyi açıqlamalar konstitusiyada ərazi iddiası olduğunu, lakin prosesin uzadılacağını və siyasi spekulyasiyalara açıq qalacağını göstərir. Bu, həm Ermənistan cəmiyyətində, həm də onun regional tərəfdaşlarında suallar doğurur. Əgər konstitusiyada problem yoxdursa, nəyə görə onun dəyişdirilməsinə dair konkret tarix verilir və referendum planlaşdırılır? Bu ritorika faktiki olaraq sülh sazişi prosesini



ləngidən əsas amillərdən birinə çevrilir və İrəvanın məsuliyyəti öz üzərindən atmaq cəhdi kimi qiymətləndirilir. Nəticədə, Ermənistan rəhbərliyinin təzadlı mövqeyi regionda gərginliyin azaldılmasına deyil, onun artmasına zəmin yaradır.

***

Baş nazir Nikol Paşinyanın qarşısında duran əsas çətinlik ondan ibarətdir ki, eyni vaxtda həm revanşist elektoratı, həm də sülh tərəfdarlarını razı salmaq mümkün deyil. Hakimiyyət hər iki tərəfə fərqli mesajlar göndərməklə, sanki "siçan-pişik oyunu" aparır. Fəqət bu taktika nə daxildə, nə də xaricdə etimad qazandırır. Siyasətdə yarımçıq mövqelər risklidir: ya konkret addım atılmalı, ya da nəticələrə hazır olunmalıdır.

Konstitusiya islahatı erməni cəmiyyətinə bir çağırışdır. İllərlə formalaşmış miflərdən, "milli müstəsnalıq" ideyasından imtina etmək və reallığı qəbul etmək çağırışı. Bu, emosional qərar deyil, rasional zərurətdir. Yalnız bu addımı atmaqla Ermənistan uzunmüddətli sülhə real ümid qazana bilər.

Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, ərazi iddialarının ləğvi regionda sülhün əsas şərtidir: "Formal olaraq sülh sazişinin imzalanmamasının bir xüsusi səbəbi var - Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü hələ də şübhə altına alan müddəa mövcuddur. Bildiyimiz qədər, onlar həmin müddəaya dəyişiklik edəcəklər. Elə ki, bu dəyişiklik olundu, yəni Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar onların konstitusiyasından çıxarıldı, formal olaraq sülh sazişi də imzalanacaq". Dövlət başçısının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində səsləndirdiyi bu fikirlər bir daha göstərir ki, rəsmi Bakı üçün sülh prosesi real nəticələrə hesablanmış siyasi iradə məsələsidir. Azərbaycan liderinin mövqeyi ortadadır: Ermənistan hüquqi və konstitusion müstəvidə də Azərbaycana qarşı iddialarına son qoymalıdır. Bu, həm regionda yeni əməkdaşlıq formatlarının qurulması, həm sərhədlərin delimitasiya və demarkasiyası, həm də iqtisadi inteqrasiyanın sürətlənməsi üçün əsas şərt kimi çıxış edir. Sülh prosesini süni şəkildə uzadan tərəf Bakı deyil, məhz İrəvandır və məsuliyyətin ünvanı da bəllidir.

***

Beləliklə, hazırkı siyasi mənzərəni üç ssenari üzrə qiymətləndirmək olar:

**Pozitiv ssenari:** Ermənistan hökuməti konstitusiya islahatına cəsarətlə gedir, ərazi iddialarını tam ləğv edir və sülh müqaviləsinə imza atır. Bu halda ölkə regional iqtisadi layihələrə qoşularaq sərmayə axını və siyasi sabitlik qazanır.

**Durğunluq ssenarisi:** Hakimiyyət daxili siyasi çəkişmələr ucbatından prosesi ləngidir, konstitusiya islahatı qeyri-müəyyən vaxta qalır. Bu, həm Azərbaycanın səbrini tükəndirir, həm də Qərbdə İrəvana olan inamı azaldır.

**Mənfi ssenari:** Paşinyan və komandası islahatdan tam imtina edir, kənar qüvvələrə, revanşist dairələrə güzəştə gedir. Bu halda Ermənistan regional layihələrdən kənarda qalır, yeni izolyasiya mərhələsinə qədəm qoyur və siyasi sabitlik risk altına düşür.

Ermənistan bu gün tarixi seçim qarşısındadır. Ya keçmişin kölgəsindən çıxaraq regionun bir parçasına çevrilmək, ya da illüziyaların girovu kimi yenidən böhranlara sürüklənmək.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Fuad ABDULLAYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti**

Ermənistanın ədliyyə naziri Srbuhi Qalyanın konstitusiya dəyişikliyini "Ermənistanın daxili işi" kimi təqdim etməsi və Azərbaycanın bu prosesə qarışmaması barədə açıqlaması, təbii ki, regionda gedən sülh prosesinə mənfi təsir göstərən siyasi bəyanatdır. Bu mövqe xüsusilə son aylar Əbu-Dabi və Vaşinqtonda aparılan danışıqlar nəticəsində yaranmış müsbət sülh atmosferini zədələyir və iki ölkə arasında sülh müqaviləsinin imzalanması perspektivini zəiflədir.

2026-cı ildə Ermənistanda keçiriləcək parlament seçkiləri öncəsi hazırkı hakimiyyətin reytinqinin kifayət qədər aşağı olması nəzərə alınmalıdır. Bu kontekstdə, Ermənistan Ədliyyə Nazirliyinin açıqlamasını ölkənin daxili siyasi gündəminə xidmət edən addım kimi qiymətləndirmək olar. Paşinyan hökumətinin reytinqi düşdüyü dövrdə bu cür bəyanatlar hakimiyyətin populyarlığını qorumaq cəhdinə bənzəyir. Başqa sözlə, Ermənistan ədliyyə nazirinin açıqlaması daha çox populist xarakter daşıyır və regional maraqlardan çox daxili siyasətə xidmət edir.

Nəticə etibarilə, Ermənistanın konstitusiyada dəyişikliyi gecikdirməsi və bunu yalnız daxili məsələ kimi təqdim etməsi sülh prosesinə və regional təhlükəsizliyə zərbə vurur, həmçinin ölkənin uzunmüddətli maraqlarına mənfi təsir göstərir. Bakı üçün isə prinsip dəyişməz olaraq qalır: sülh müqaviləsi yalnız Azərbaycanın ərazi bütövlüyü tanındıqdan və Ermənistanın müvafiq hüquqi sənədlərindəki iddialar aradan qaldırıldıqdan sonra mümkündür.

# Levon Ter-Petrosyan niyə Rusiya səfirinin sevimlisinə çevrilib?

**Ermənistanda siyasi ziddiyyətlər dərinləşir. Ölkənin sabiq prezidenti Levon Ter-Petrosyan yenidən siyasi səhnəyə qayıdıb. Bu dəfə o, sadəcə keçmiş dövlət başçısı kimi deyil, Rusiya ilə yaxın təmasda olan, mövqeyini Moskvanın maraqları istiqamətində dəyişən siyasi fiqur kimi çıxış edir.**

O, Ermənistan baş naziri Nikol Paşinyanın Eçmiədzinin mərkəzi meydanında genişmiqyaslı mitinq keçirmək niyyətinə etirazını bildirib. Deyib ki, bu təşəbbüs ölkədə qarşıdurma riski doğurur və Ermənistanın Apostol Kilsəsinə təzyiq göstərməkdir. Ter-Petrosyanın fikrincə, belə addımlar getdikcə "bağışlanmaz" xarakter daşıyır. Onun iddiasına görə, Eçmiədzində keçiriləcək tədbir qarşıdurma və qan tökülməsi ilə nəticələnə bilər. Bu kontekstdə, o, Paşinyanı "xalqı təhlükəyə atmaqda" ittiham edib və açıq şəkildə bildirib: "Nikol nə Ermənistan Apostol Kilsəsinin, nə də bütün millətin rəhbəridir. O, sadəcə, Ermənistan Respublikasının baş naziridir və öz səlahiyyətlərinin sərhədlərini dərk etməlidir".

Bu çıxışın hədəfləri açıq şəkildə göstərir ki, sabiq prezident artıq müxalifətin səsinə çevrilib. O müxalifət ki, ölkənin qərbyönlü siyasətinə qarşı çıxır, Nikol Paşinyanın mövqeyinin zəifləməsində maraqlıdır.

Sabiq dövlət başçısının mövqeyində dəyişiklik onun Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinlə görüşündən sonra baş verib. Həmin görüşdə tərəflər "Cənubi Qafqazda sülh və sabitlik" və "Ermənistan–Rusiya münasibətləri" kimi ümumi mövzuları müzakirə ediblər. Siyasi müşahidəçilərin fikrincə, bu görüşün əsl məqsədi Ermənistanın qərbyönlü siyasətinin zəiflədilməsi və ölkənin yenidən Moskvanın təsir dairəsinə qaytarılması olub. Son dövrlər Rusiya səfirinin Ermənistan müxalifəti ilə intensiv təmasları bu ehtimalı gücləndirir. S.Kopırkinin yalnız Ter-Petrosyanla deyil, digər radikal müxalifət nümayəndələri ilə görüşləri bir tərəfdən Paşinyan hakimiyyətinə təzyiq vasitəsi, digər tərəfdən isə Kremlin Ermənistan siyasətində yenidən fəallaşmaq istəyindən xəbər verir. Moskva mövcud geosiyasi reallıqda Ermənistanı itirmək fikri ilə barışmır və bu istiqamətdə müxtəlif vasitələrə əl atır. Ermənistan müxalifəti ilə görüşlər də həmin maraqlara xidmət edir.

***

Ermənistan rəhbərliyi bu planlara qarşı açıq mövqe nümayiş etdirir. Nikol Paşinyan hökuməti Qərblə strateji əməkdaşlığı genişləndirmək, ABŞ və Avropa İttifaqı ilə inteqrasiyanı dərinləşdirmək, Türkiyə ilə sərhədlərin açılmasına yönəlmiş konkret addımlar atmaq istəyir. O da məlumdur ki, Nikol Paşinyan hökuməti regionda real, davamlı sülhə nail olmaq üçün son vaxtlar Azərbaycana qarşı təcavüzkar ritorikadan uzaq durmağa, sərhədlərin delimitasiyası və demarkasiyası məsələsində əməkdaşlığa və real nəticə əldə etməyə çalışır. Bu, təkcə Ermənistan üçün deyil, bütövlükdə region üçün tarixi imkanlar açır. Fəqət belə bir perspektiv Kreml üçün arzuolunan deyil. Məhz səbəbdən Ermənistan daxilindəki müxalif qüvvələrin fəallaşması və onların arxasında dayanan dairələrin prosesləri pozmaq cəhdləri artıq açıq müstəviyə keçib.

Siyasətdən çəkildiyini bəyan etmiş Levon Ter-Petrosyanın birdən-birə yenidən fəallaşması, həm də bu fəallığın Rusiya səfiri ilə təmasların fonunda baş verməsi bir çox suallara cavab verir. Görünən odur ki, Kremlin planı sadədir: Ermənistan daxilində qarışıqlıq yaratmaq, xalqı hakimiyyətə qarşı qaldırmaq və Paşinyanın legitimliyini sarsıtmaq. Bu məqsədlə cəmiyyətin artıq etimadını itirmiş, siyasi gündəmdə olmayan şəxslər yenidən səhnəyə çıxarılır.

Bu gərginlik fonunda Baş nazir Nikol Paşinyan da cavabsız qalmayıb. Özünün sosial media hesabında yayımladığı açıqlamada, o, Levon Ter-Petrosyanı siyasi arenada ardıcıl mövqe sərgiləməməkdə ittiham edərək, sərt və ironik bir cavab verib: "Hörmətli Levon Ter-Petrosyan! 1996-cı ildə seçkilərin nəticələrindən, 1998-ci ildə hakimiyyətdən, 2008-ci ildə isə müxalifətdən qaçdınız. İndi isə anlayıram ki, yenə də harasa getmək istəyirsiniz, lakin artıq qaçmağa yer tapa bilmirsiniz. Əslində, buna ehtiyac da yoxdur. Sadəcə olaraq, sakitləşin və Ermənistanda bərqərar olmuş dinc həyatınızdan zövq alın. Hamımıza xoş gün arzulayıram".

Bu cavab, sadəcə bir keçmiş prezidentə ünvanlanmayıb, həm də Ermənistan daxilində sabitliyi pozmaq, ölkəni yenidən xarici güclərin təsiri altına salmaq istəyənlərə siyasi mesajdır. Paşinyan cəmiyyətə göstərir ki, hakimiyyətə qayıtmaq iddiasında olan qüvvələr əslində Ermənistanı Rusiya orbitinə qaytarmaq istəyən, köhnə müstəmləkəçilik siyasətinə loyal olan dairələrdir. Onlar Rusiya səfiri ilə danışıqlar aparmaqla və Kremlə sadiqliklərini nümayiş etdirməklə Ermənistanı yenidən qaranlıq keçmişinə – siyasi asılılıq, iqtisadi tənəzzül və regional təcrid dövrünə qaytarmaq niyyətindədirlər. Bu isə Paşinyanın ictimai legitimliyini artırmaq üçün əlverişli fürsətdir.



Mövzu ilə bağlı **Milli Məclisin deputatı, politoloq Arzu Nağıyev** XQ-yə bildirdi ki, Paşinyan özünü qərbyönlü, modern, sülhə meyilli lider kimi təqdim edir: "Seçkilərin yaxınlaşması Ermənistan siyasi səhnəsində müxtəlif qüvvələrin fəallaşmasına səbəb olub. Bu prosesdə sabiq prezident Levon Ter-Petrosyanın da Moskva yönümlü dəstək əsasında yenidən önə çıxması diqqətdən yayınmır. Ter-Petrosyanın fəallaşması onu Ermənistanın gələcəyi üçün Rusiya ilə daha sıx əməkdaşlığa üstünlük verən siyasi fiqur kimi təqdim edir. Bu yanaşma qərbyönlü xarici siyasət kursu yürüdən Paşinyan hökumətinin mövqeyi ilə ziddiyyət təşkil edir. Belə bir şəraitdə Ter-Petrosyanın ritorikası ölkədaxili geosiyasi parçalanmanı daha da dərinləşdirə bilər.

Onu da deyim ki, Ter-Petrosyan, "Qarabağ klanı" adlandırılan – Robert Köçəryan və Serj Sarkisyan kimi fiqurlardan fərqli olaraq, başqa siyasi qütbü təmsil edir. Ona qarşı bu şəxslərə yönələn tənqidlər səsləndirilmir. Bu da Rusiyanın onu siyasi alət kimi daha rahat istifadə etməsinə imkan verir. Eyni zamanda son vaxtlar Paşinyanın reytinqinin zəifləməsinə baxmayaraq, seçkilərdə qələbə qazanması bir sıra köhnə siyasi dairələrin tamamilə sıradan çıxmasına səbəb ola bilər. Bu səbəbdən də Rusiya tərəfindən Ermənistandakı proseslərə maraq daha da artıb. Son günlər Rusiya rəsmilərinin, o cümlədən Simonyanın verdiyi bəyanatlar, Moskvanın Ermənistandakı hərbi varlığı və qarşıdakı Putin–Paşinyan görüşü ətrafında aparılan müzakirələr bunun göstəricisidir.

Beləliklə, Ter-Petrosyanın səhnəyə qayıdışı təkcə siyasi keçmişin yenidən gündəmə gətirilməsi deyil, həm də Ermənistanın qarşıdakı seçimləri üçün həlledici xarici təsirlərin aktivləşməsi ilə müşayiət olunur".

Politoloq Yeganə Hacıyeva şərhində dedi ki, tarix dəfələrlə sübut edib ki, xarici güclərin əlində alətə çevrilən ölkələr nə müstəqilliklərini qoruya, nə də sabitlik və rifah əldə edə biliblər: "Ermənistan xalqı bu



reallığı düzgün dərk etməli, Azərbaycanla sülhə, əməkdaşlığa önəm verməlidir. Azərbaycanın sülh müqaviləsi istiqamətində göstərdiyi iradə və təşəbbüslər, əslində, təkcə iki ölkə arasında deyil, bütün regionda təhlükəsizliyin və sabitliyin təminatıdır. Ermənistan bu proseslərdən geri çəkilərsə, bunun məsuliyyəti birbaşa Kremlə bağlı dairələrin və onların siyasi arenada səhnəyə çıxardığı köhnə fiqurların üzərinə düşəcək".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Avrozonanın "II sütunu" borc bataqlığında

## *Fransa hökuməti fiskal intizamı qorumaqda çətinliklərlə üzləşəcək*



**"Fitch Ratings" (Beynəlxalq reytinq agentliyi) Fransanın xarici valyutada uzunmüddətli defolt reytinqini "AA-" səviyyəsindən "A+"-a endirib və qiymətləndirməyə "sabit" proqnoz əlavə edib. Qərar Fransa iqtisadiyyatına, bütövlükdə Avrozonanın maliyyə etibarlılığına dair mühüm siqnal kimi dəyərləndirilir.**

Agentliyin açıqlamasında vurğulanır ki, reytinqin düşməsinin əsas səbəbləri dövlət borcunun artması, siyasi parçalanma mühiti və müdafiə xərclərinin əhəmiyyətli dərəcədə yüksəlməsi fonunda büdcə kəsirinin dərinləşməsidir. 1974-cü ildə Beşinci Respublikanın dövlət borcu ÜDM-in cəmi 14,5 faizi ilə məhdudlaşırdı. Sosial-iqtisadi islahatların həyata keçirilməsindəki çətinliklər bu mənzərəni mürəkkəbləşdirir. Reytinqin enməsi Fransanın beynəlxalq maliyyə bazarlarında borc almaq şərtlərini ağırlaşdırmaq ehtimalını artırır. Hökumət əlavə maliyyə resursları cəlb etmək üçün daha yüksək faiz dərəcələri ilə üzləşə bilər. Bu isə dövlət büdcəsinə əlavə yük yaratmaqla, sosial proqramların maliyyələşdirilməsinə və iqtisadi artım tempinə mənfi təsir göstərəcək. Davam edən siyasi parçalanma hökumətin fiskal intizamı qorumasını və struktur islahatlarını həyata keçirməsini çətinləşdirir.

Parlamentdə konsensusun zəifliyi, cəmiyyətdə sosial narazılığın artması Parisin iqtisadi dayanıqlılıq planlarını risk altına salır. Ölkənin maliyyə reytinqinin aşağı düşməsi Avrozonada ikinci ən böyük iqtisadiyyatın zəifləməsi anlamına gəlir. Şübhəsiz, vəziyyət Avropa Mərkəzi Bankının siyasətinə, eləcə də Avropa İttifaqının maliyyə inteqrasiyası planlarına təsirsiz ötüşməyəcək. Xarici ekspertlər hesab edirlər ki, Fransanın üzləşdiyi problemlər digər dövlətlər üçün xəbərdarlıq xarakteri daşıyır. Beynəlxalq reytinq agentliyinin bundan öncəki hesabatında da Fransanın reytinqinin aşağı olması öz əksini tapmışdı. Agentliyin ötən il yaydığı hesabatda ölkənin xarici valyutada uzunmüddətli emitent defolt reytinqinin proqnozu "sabit"dən "mənfi"yə dəyişdirilmişdi. 2023-cü ilin aprelində də "Fitch" Fransa reytinqini "AA"dan "AA-"ya endirmişdi. Qərarın əsas səbəbləri dövlət borcunun artması və büdcə göstəricilərinə dair narahatlıqlar idi. Həmin il Fransanın gəlir və xərcləri arasında fərq 154 milyard avro olub.

*(ardı 5-ci səhifədə)*

# Avrozonanın "II sütunu" borc bataqlığında

(əvvəli 4-cü səhifədə)

**ARAYIŞ:** ***"Fitch" agentliyinin proqnozuna görə, Fransanın dövlət borcu artmaqda davam edir və 2027-ci ildə ÜDM-in 121 faizinə çatacaq. Dövlət borcunun artması yeni iqtisadi şoklara qarşı reaksiya imkanlarını məhdudlaşdırır. Siyasi parçalanma maliyyə konsolidasiyasını çətinləşdirir. Ötən il keçirilmiş fövqəladə seçkilərdən sonra ölkədə üç fərqli hökumət formalaşıb, etimadsızlıq səsvermələri siyasi sabitliyi zəifləyib və ÜDM-in 3 faizlik defisit hədəfinə 2029-cu ilə qədər çatmaq perspektivi qeyri-real görünür. 2027-ci il prezident seçkiləri yaxınlaşdıqca konsolidasiya imkanlarının daha da azalacağı ehtimal olunur. Son 20 ildə ölkənin əsas maliyyə defisiti yalnız üç dəfə ÜDM-in 3 faizindən aşağı olub.***

***




Fransanın beynəlxalq maliyyə reytinqinin aşağı salınması prezident Emmanuel Makronun uğursuz siyasətinin nəticəsidir. Ölkə daxilində dərinləşən sosial böhran, iqtisadi idarəetmədə boşluqlar və siyasi qərarsızlıq həm daxildə, həm də beynəlxalq arenada Fransanın etibarlılığını zəifləyib. Makron hakimiyyətin ilk illərində özünü islahatçı lider kimi təqdim etməyə çalışsa da sonradan onun qərarları daha çox populist xarakter daşıdı və gözlənilən nəticəni vermədi. Dövlət büdcəsində kəsir dərinləşdi, borcun ÜDM-ə nisbəti artdı, iqtisadi artım templəri zəiflədi. Pandemiyadan sonrakı dövrdə iqtisadi canlanma üçün ayrılan maliyyə paketləri və fiskal təşviqlər problemin qarşısını ala bilmədi. Əksinə, hökumətin maliyyə intizamını zəiflətdi və ölkənin borc yükünü daha da artırdı. Makron hökumətinin sosial sahədə atdığı addımları əhalidə inamsızlıq yaratdı. Ən çox müzakirə edilən pensiya islahatı milyonlarla insanın küçələrə çıxmasına səbəb oldu. Hakimiyyət cəmiyyətin narazılığını dialoq yolu ilə həll etmək əvəzinə, sərt inzibati addımlar atdı. Nəticədə Fransa daxilində siyasi sabitlik sarsıldı, hökumətlə xalq arasında etimad böhranı dərinləşdi.

Makronun Avropa siyasətindəki fəaliyyəti bu gün çoxlarının diqqət mərkəzindədir. O, özünü bütün "Qoca qitə"nin lideri kimi göstərməyə çalışsa da bu strategiya həm Avropa siyasətindəki tərəfdaşlarla münasibətlərin gərginləşməsinə, həm də Fransanın diplomatik nüfuzunun müəyyən sahələrdə zəifləməsinə səbəb olub. Prezidentin qeyri-ənənəvi və gözlənilməz davranışları daxili və xarici siyasətdə ölkəyə etimadsızlıq yaratmaqla nəticələnib. Onun daxili siyasətdəki qərarları və idarəetmə üslubu siyasi mövqeyinə mənfi təsir edib. Ölkənin parlament və yerli seçkilərində hökumət partiyasının nəticələri prezidentin səriştə və idarəçilik qabiliyyətinə dair ictimai rəyin göstəricisidir. Parlament müzakirələrində hökumət rəhbərliyinə qarşı tənqidlərin və impiçment məsələsinin gündəmə gətirilməsi Makronun siyasi dayanıqlılığına dair suallar yaradır. Vəziyyət Fransua Bayru hökumətinə etimadsızlıq səsverməsindən sonra xeyli gərginləşib. Bayru hökumətinin qəfil süqutu prezident Emmanuel Makron üçün heç də narahatlıq yaratmış kimi görünmür. Onun müdafiə naziri Sebastian Lekornunun yeni baş nazir təyin etməsi hələ də öz uğursuz siyasi proqramını həyata keçirməkdə israrlı olduğunun əyani sübutudur. Makronun bu addımı onun riskləri qiymətləndirmə tərzini və siyasi prioritetlərinin zəifliyini əks etdirir.

Əslində Makronun parlamenti ikinci dəfə buraxmaqdan çəkinməsi məntiqlidir. Çünki son ictimai rəy sorğuları onun koalisiyasına dəstəyin 15-16 faiz həddinə düşdüyünü göstərir ki, bu da Fransa siyasi tarixində nadir hallardan sayılır. Görünür, Makron cəmiyyətin böyük qisminin "makronizm"ə qarşı sərt mövqeyinə əhəmiyyət vermir. Yeni təyinatdan sonra "Əyilməz Fransa" hərəkatı Sebastian Lekornuya qarşı etimadsızlıq səsverməsi təqdim edəcəyini açıqlayıb. Jan-Lük Melanşon bu təyinatı "Parlamentə hörmətsizlik" kimi qiymətləndirərək prezident Emmanuel Makronun istefasını tələb edib. Paralel olaraq, Milli Birlik partiyasının lideri Marin Le Pen də yeni baş nazir təyinatını tənqid edərək bildirib ki, "prezident makronizmin son gülləsini atır".

Bir neçə gün əvvəl Fransanın müxtəlif bölgələrində "Hər şeyi bloklayın" çağırışı ilə başlayan aksiyalar qısa müddətdə bütün ölkəyə yayılıb. Fransa Daxili İşlər Nazirliyinin məlumatına görə, metropoliya ərazisində təxminən 200 min nəfər etirazlara qatılıb, nəticədə 700-dək etirazçı saxlanılıb. Bu zaman 23 polis əməkdaşı müxtəlif dərəcəli xəsarət alıb. Aksiyaların həmkarlar ittifaqları tərəfindən dəstəklənməsi "CGT" və "SUD" tərəfindən daha geniş tətillərin 18 sentyabr tarixinə planlaşdırılmasına zəmin yaradıb. Bütün bunlar Fransada uzunmüddətli etiraz dalğasının qalxdığına işarəsidir. Etirazların təhlükəli məcraya yönələcəyinin ilkin əlamətləri görünür. Paris və ətraf ərazilərdəki məscidlərin qarşısında donuz başlarının tapılması hadisələrin potensial olaraq etnik və dini qarşıdurmalara çevrilə biləcəyindən xəbər verir. Həm sol, həm də sağ siyasi qüvvələrin reaksiyası Makron administrasiyasının nüfuzunun sarsıldığını və siyasi etimadsızlığın pik həddə çatdığını təsdiqləyir.

Bu yerdə məşhur bir aforizmi xatırlatmaq yerinə düşər: "Daxili etimadsızlıq ən güclü ordunu belə sarsıda bilər". Vəziyyət bu cür davam etsə, Makronun sonu heç də yaxşı olmayacaq...

***Nəzrin ELDARQIZI***
***XQ***

# Sözdən əmələ keçməyin vaxtıdır

(əvvəli 1-ci səhifədə)



Xatırladaq ki, sentyabrın 5-də Azərbaycan və Ermənistan nümayəndə heyətləri arasında qarşılıqlı səfərlər baş tutub. Heyətə Azərbaycan tərəfindən Baş nazirin müavini Şahin Mustafayev, Ermənistan tərəfindən isə Baş nazirin müavini Mger Qriqoryan rəhbərlik edib. Budəfəki görüş hər iki ölkənin nümayəndələrinin bir-birinin ərazisinə daxil olması baxımından ciddi siyasi sayılır. Görüş zamanı tərəflər avqustun 8-də Vaşinqtonda əldə olunmuş razılaşmaların icrası istiqamətində müzakirələr aparıblar. Müzakirələrin əsas ağırlıq mərkəzini sərhəd xəttinin müvafiq hissələrinin delimitasiyası və minalardan təmizlənməsi təşkil edib. Çünki bu məsələlər regionda dayanıqlı təhlükəsizliyin təmin edilməsi üçün həlledici rol oynayır. Bundan savayı, tərəflər kommunikasiyaların bərpası, yeni infrastruktur layihələrinin həyata keçirilməsi, həmçinin mövcud yol və körpülərin bərpası kimi praktiki məsələlərə toxunublar. Danışıqlarda xüsusi olaraq görüləcək işlərin icra müddətləri müzakirə mövzusu olub. Bu yanaşma tərəflərin prosesi uzatmaq niyyətində olmadığını, əksinə, real nəticələrin əldə edilməsinə çalışdığını göstərir. Qısa müddətdə həyata keçiriləcək addımlar sərhəd bölgələrində yaşayan əhalinin təhlükəsizliyinə töhfə verəcək.

Komissiyaların görüşündə maraq doğuran məqamlardan biri danışıqların Sünik vilayətinin cənub hissələri və Zəngilan bölgəsində (Qərbi Zəngəzur) aparılmasıdır. Bu isə öz növbəsində, bütün diqqəti Zəngəzur dəhlizinə (TRIPP) yönəldib. Erməni kartoqraf Samvel Meliksetyanın fikrincə, İrəvan Azərbaycandan Naxçıvana gedən yolun açılmasını planlaşdıraraq, demarkasiyaya Sünikdən başlayacaq. "Azərbaycanın harada bitdiyi, Ermənistanın haradan başladığı aydın olmalıdır ki, sərhəd infrastrukturu düzgün yerləşdirilsin. Tərəflər yolun keçəcəyi hissənin demarkasiyasını müzakirə edirlər. Ərazi ilə bağlı heç bir mübahisə yoxdur. Rabitə və nəqliyyat məsələlərində isə problem yaranmayacaq, əsas fərq yoxlanış məntəqələrinin yerləşməsindədir", – deyə bildirib. Açıqlamadan hiss olunur ki, Ermənistan–Azərbaycan sərhədində yeni mərhələ başlayır. Demarkasiya prosesi həm sərhəd bölgələrində yaşayan əhali üçün təhlükəsizliyi artıracaq, həm də Zəngəzur dəhlizinin açılması, kommunikasiya və iqtisadi əməkdaşlığın genişlənməsi üçün real zəmin yaradacaq. Əgər tərəflər bu prosesi konkret addımlarla müşayiət edərlərsə, Cənubi Qafqazda uzun illər gözlənilən sabitlik və əməkdaşlıq mühiti yaxın zamanda formalaşa bilər.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Azərbaycanla sərhədin demarkasiyası prosesində müəyyən yeniliklərlə bağlı açıqlaması hazırda Ermənistanın işğalı altındakı 4 kəndin – Yuxarı Əskipara, Bərxudarlı, Sofulu və Naxçıvanın Kərki kəndi barəsində ola bilər. Bu kəndlər də gec-tez Azərbaycana qaytarılmalıdır. Hələlik iki ölkə arasında dövlət sərhədinin 12,7 kilometr hissəsinin delimitasiya və demarkasiyası aparılıb. Söhbət ötən il Qazaxın işğal altında olan 4 kəndinin Azərbaycana qaytarılmasından gedir. 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən 24 saatlıq antiterror əməliyyatı nəticəsində Qarabağ separatçı ünsürlərdən tamamilə təmizləndi və Azərbaycan ərazi bütövlüyü və suverenliyini bərpa etdi. Bundan sonra işğal altında qalan kəndlərin məsələsi xüsusi aktuallıq qazandı. Ermənistan işğal altında qalan 8 kənd – Qazaxın 7 kəndi (Sofulu, Bərxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrimli) və Sədərəyin Kərki kəndinin qaytarılması öhdəliyindən yayınmaq üçün müxtəlif bəhanələr gətirirdi. Xüsusilə anklavların təhvil verilməsi prosesindəki çətinliklərə diqqət çəkirdi.

Rəsmi Bakı bu prosesi asanlaşdırmaq üçün işğal altındakı kəndlərin qaytarılmasını mərhələli şəkildə həyata keçirməyi təklif etdi. Birinci mərhələdə anklav olmayan 4 kənd – Bağanis Ayrım, Qızıl Hacılı, Aşağı Əskipara və Xeyrimli qaytarıldı. İkinci mərhələdə isə Kərki və Qazaxın Sofulu, Yuxarı Əskipara və Bərxudarlı kəndlərinin qaytarılması məsələsi müzakirəyə çıxarılır. Prezident İlham Əliyev anklav olmayan 4 kəndin qeyd-şərtsiz geri qaytarılmasını tələb etdi. Azərbaycanın strateji yanaşması Ermənistanı kəndlərin qaytarılması reallığını qəbul etməyə məcbur etdi və ötən ilin 19 aprelində imzalanan razılaşma ilə proses rəsmi olaraq başladı. Eksklavlar məsələsi növbəti mərhələyə saxlanıldı. Qaytarılan 4 kənd delimitasiya prosesində ilk praktik addım oldu. İndi İrəvandan bunun ardını gözləyirik.

***Musa BAĞIRLI***
***XQ***

## Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

Demarkasiya və delimitasiya məsələləri, əlbəttə ki, ikitərəfli əsasda başlayıb və bu istiqamət həm də birgə komissiyalarda formalaşdırılıb. Faktik olaraq hər iki tərəf prosesi məntiqi sonluğa çatdırmaq üçün imkanlara malikdir. Lakin son 2-3 ildə Ermənistanın anlaşılmayan yanaşmasına şahid oluruq. Görürük ki, rəsmi İrəvan əvvəlcə razılıq verir, proses başlayır, lakin sonra məsələ yenidən dayandırılır. Yəni onlar özlərinə məxsus "pauzalardan" istifadə edir və məsələni təxirə salırlar. Halbuki bu, onların heç xeyrinə deyil. Xatırladaq ki, bu məsələ ilə bağlı Ermənistan passivləşməyə başladı, qeyri-müəyyənlik yenidən gündəmə gətirildi. Sonra üçtərəfli əsaslarda baş nazir müavinləri bu prosesə qatıldılar və razılıqlarını verdilər. Daha sonra Rusiyanı bu prosesə cəlb etmək istədilər və Azərbaycan buna "hə" dedi. Lakin Ermənistan yenə təkliflər verdi və sonra onları geri çəkdi. Sadəcə müxtəlif bəhanələrlə özlərini müdafiə etməyə çalışdılar. Bir sözlə, onların həmahəng çalışmaq qətiyyəti və istəyi yox idi.

İndi Ararat Mirzoyan bunu yenidən gündəmə gətirirsə, deməli, onların bu prosesdə hərəkət etmək niyyəti formalaşır. Yəni söhbət Ermənistandan gedir, çünki Azərbaycan hazırdır və bu məsələlərin həllinə cəlb olunub. Komissiyalar fəaliyyətini davam etdirir, insanlar bu prosesdə iştirak edirlər. Prezident İlham Əliyev məsələ ilə bağlı belə bir fikir demişdi ki, "biz bu prosesə hazırıq, iştirak edirik, insanlarımız artıq bu məsələyə cəlb olunub, komissiyalar fəaliyyətini davam etdirir və Ermənistan istəməlidir. Əgər istəməsə, biz lazım gələrsə, keçməli olduğumuz hissədən keçəcəyik".

Faktiki olaraq, bu məsələ sərhəd zolağında yaşayan insanlar üçün vacibdir. Onlar sərhəd xəttini bilməlidirlər. Ermənistan məsələni ciddi nəzarətə götürməli və bunun həyata keçirilməsini təmin etməlidir. İş görmək istəyən həmişə yollar axtarır, amma ermənilər bəhanələr taparaq proseslərdən yayınmağa çalışırlar. Artıq vaxt çatıb və sözdən əmələ keçmək lazımdır.

Bəli, bir çox ölkələrdə delimitasiya və demarkasiya uzun müddət davam edib. Məsələn, Rusiya ilə Qazaxıstan arasında 2.000 kilometrdən çox sərhəd var və onlar bu məsələlərdə tələsmirlər. Amma bizim vəziyyətimizdə sərhədlər nisbi olaraq kiçikdir. Burada sadəcə siyasi iradə lazımdır ki, Ermənistan tərəfi sözlərdən əmələ keçsin. Görək Ararat Mirzoyanın açıqlamalarından sonra Ermənistan hansı davranışı göstərəcək.

**Ankara ilə İrəvan arasında normallaşma prosesi çərçivəsində Türkiyə tərəfdən Ermənistanla normallaşma üzrə xüsusi nümayəndə Serdar Kılıç və Ermənistan parlament sədrinin müavini Ruben Rubinyan arasında İrəvanda baş tutan altıncı görüşün detalları açıqlanıb. Bu barədə Türkiyənin Xarici İşlər Nazirliyi məlumat yayıb. Hələ bu görüşə qədər Ermənistan Milli Məclisinin sədr müavini olan təmsilçi Ruben Rubinyan detallara toxunaraq, Qars–Gümrü dəmir yolunun bərpası üçün lazım olan texniki parametrlərlə bağlı müzakirələrin aparılacağını bildirmişdi.**

# Ermənistan – Türkiyə: normallaşmaya start

## *32 ildən sonra 2 ölkə arasında sərhədin açılması gündəmə gəlib*



Serdar Kılıç və Ruben Rubinyan bundan əvvəl də bir neçə dəfə görüşərək normallaşma prosesinin əsas istiqamətlərini müzakirə ediblər. Bu səfərin Ankara ilə İrəvan arasında dialoqun davamlı xarakter almasına və gələcəkdə konkret addımların atılmasına zəmin yaradacaq. Görüşdə xüsusi nümayəndələr Türkiyə ilə Ermənistan arasında tam normallaşma prosesini irəlilətmək məqsədilə əvvəlki görüşlərdə üzərində işlənmiş və razılaşdırılmış məsələləri təsdiqləyiblər. Bu çərçivədə 1 iyul 2022-ci il tarixində keçirilmiş görüşdə əldə edilmiş sərhəd keçidləri ilə bağlı razılaşmanın reallaşması məsələsində fikir mübadiləsi aparılıb və prosesin sürətləndirilməsi qərara alınıb. Xüsusi nümayəndələr Qars–Gümrü dəmir yolu və elektrik enerjisi əlaqələrinin bərpası üçün hər iki ölkənin aidiyyəti qurumlarının texniki işləri həyata keçirməsi barədə razılığa gəliblər. Mədəniyyət və akademik sahələrdə əməkdaşlığın gücləndirilməsi məqsədilə, xüsusilə ali təhsil tələbələri üçün təqaüd imkanlarının yaradılması və tarixi İpək Yolu (Ani) körpüsünün bərpası istiqamətində səylərin göstərilməsi qərara alınıb. Bundan başqa, 2026-cı ilin yayından etibarən müxtəlif istiqamətlərə uçuşların həyata keçirilməsi üçün zəruri hazırlıq işlərinin görülməsi və bununla da iki ölkə arasında hava nəqliyyatı və uçuş sayının artırılması məsələsində də razılığa gəlinib.

**ARAYIŞ:** *Türkiyə 1991-ci ildə müstəqilliyini elan edən Ermənistanı ilk tanıyan dövlətlərdən biri olub. 1993-cü ildə Kəlbəcərin erməni silahlı qüvvələri tərəfindən işğalından sonra rəsmi Ankara Ermənistanla sərhədi birtərəfli qaydada bağladı. İndiyə qədər Ermənistanla heç bir diplomatik əlaqələr mövcud deyil. "Futbol diplomatiyası" kimi tarixə düşən Ermənistan–Türkiyə prezidentlərinin İrəvan və Bursa görüşlərindən sonra düşünmək olardı ki, iki ölkə arasında əlaqələr bərpa edilmək üzrədir. Amma 2009-cu ildə bu "diplomatiya"nın nəticəsi kimi imzalanan Sürix protokollarının ratifikasiya edilməməsi bu işi yarımçıq qoydu.*

***

Sərhədlərin açılması dedikdə Ermənistan tərəfdən "Marqara", Türkiyə tərəfdən isə "Alican" sərhəd-keçid məntəqələrinin açılması nəzərdə tutulur. Türkiyədə zəlzələdən sonra "Marqara–Alican" məntəqəsi qısa müddətə açılmış və Ermənistandan Türkiyəyə yardım göndərilmişdi. Diplomatik pasportu olan üçüncü ölkə vətəndaşlarının bu keçid məntəqəsindən istifadəsi üçün ilkin razılaşma var idi. Ermənistan Türkiyə ilə ilkin şərt olmadan əlaqələr qurmaq prosesini davam etdirir. Təbii ki, münasibətlərin qurulmasında Türkiyə də hər hansı şərt irəli sürmür. Amma unutmayaq ki, Türkiyənin Şərqi Anadolu vilayətlərinə Ermənistan konstitusiyasında iddialar hələ qalmaqdadır.

Bununla belə hər iki ölkədə diplomatik münasibətlərin qurulması və sərhədlərin açılması məsələsinə münasibət birmənalı deyil. Erməni radikallar, Paşinyan hakimiyyətinə müxalif bəzi qüvvələr sərhədlərin açılmasına qarşı çıxış edirlər. Bəziləri sərhədlərin açılmasını hələ imzalanmayan Ermənistan–Azərbaycan sülh müqaviləsinə bağlayırlar. "Demokratik Alternativ" partiyasının sədri, politoloq Suren Surenyantsın fikrincə, Ermənistan–Azərbaycan sazişi imzalanmayana qədər heç bir irəliləyiş gözləmək olmaz: "Ermənistanla Azərbaycan arasında rəsmiləşdirilmiş sənəd, sülh müqaviləsi imzalanana qədər Türkiyənin Ermənistanla sərhədlərini açacağına və ya diplomatik əlaqələr quracağına dair heç bir əlamət görmürəm. Başqa sözlə, düşünürəm ki, onlar danışacaqlar, bəlkə keçmişdə əldə edilmiş, lakin hələ də icra olunmayan bəzi kiçik razılaşmalar həyata keçəcək, ya da qismən həyata keçirəcəklər. Ya da ola bilsin ki, onlar Ermənistanla münasibətlərdə deklarativ xarakter daşıyacaq ciddi dəyişiklikləri qeyd edəcəklər. İrəvanla Bakı arasında müqavilə imzalanana qədər…".

Türkiyədə də bu məsələyə skeptik yanaşanlar var. Onlar sual edirlər: "Ermənistan gerbindən Ağrı dağın rəsmini çıxardımı? Qondarma "erməni soyqırımı" ideologiyasından geri durdumu? Ermənistan konstitusiyasında Türkiyəyə ərazi iddialarından əl çəkdimi? Bunlar olmadan İrəvanla anlaşmaya necə gedilir?". Amma ümumiyyətlə, Türkiyə cəmiyyəti sülhün və sabitliyin bölgədə bərqərar olması üçün Ermənistanla qonşuluq münasibətlərinin qurulmasının tərəfdarıdır. Demokrat Partiyasının sözçüsü və İzmir millət vəkili Heydər Altıntaş TBMM-də keçirdiyi mətbuat konfransında "Haqlı olaraq bağladığımız qapıları açıb regional sülhə, qardaşlığa və firavanlığa töhfə vermənin vaxtıdır" deyib.

***

Bəs sərhədlərin açılması Ermənistana nə verəcək? Ermənistanda ən çox müzakirə olunan mövzu budur. Bəzi politoloqlar bu fikirdədirlər ki, sərhədlər açılarsa Türkiyə iqtisadiyyatı Ermənistan ekonomik sistemini özündən asılı vəziyyətə salacaq. Onlar Gürcüstanı örnək göstərirlər. Türkiyə–Ermənistan iqtisadi-ticari əlaqələrin hazırkı durumuna nəzər yetirməyimiz yerinə düşər. Bu günə qədər Türkiyə sərhədlərinin bağlı olması səbəbindən Ermənistan qonşu ölkə ilə birbaşa ticarət əlaqəsi yox idi. Gürcüstan vasitəsilə edilən ticarət əsasən birtərəflidir. Yəni Ermənistan Türkiyədən məhsul idxal edir, Türkiyəyə isə demək olar ki, ixrac yoxdur. Ekspertlər sərhədin açılması nəticəsində Ermənistanın bu ölkə ilə ticarəti ümumi ticarətin 1 faizdən (2021-ci ildə) 10 faizə yüksələcəyini proqnozlaşdırırlar. Sərhədin açılması Ermənistanda sənaye mallarının ixrac və idxalına töhfə verəcək və bu, onun iqtisadi maraqları ilə böyük ölçüdə üst-üstə düşür. İqtisadçılar bu fikirdədirlər ki, Türkiyə ilə sərhədlər açılsa, Ermənistan müəyyən nəfəslik əldə edəcək, iqtisadi inkişaf da bunun ardınca gələcək.

Belə fikir səsləndirənlər də var ki, Ermənistanın Türkiyə ilə ticarəti böyük potensiala malikdir. Hazırda Ermənistanın əsas ticarət tərəfdaşları Rusiya, Aİ və Çindir. 2017-2019-cu illərdə, COVID-19 böhranı və qadağadan əvvəl ticarətin həcmi təxminən 4 faiz idi. 2021-ci ildəki qadağadan əvvəl əsas idxal malları tekstil, geyim, maşın və avadanlıqlar və yanacaq idi. 2021-ci ildə Türkiyədən idxal 68 faiz azalaraq bütün növ mallara təsir etdi və yanacaq idxalı demək olar ki, tamamilə dayandı. Proqnozlaşdırılır ki, Türkiyə məhsullarının Ermənistan ticarətində payı 12 faiz olsun.

Ermənistanın Türkiyəyə potensial ixracı 185 milyon ABŞ dollarıdır. Bu, 2021-ci ildə Ermənistanın ixracının 6,7 faizinə bərabərdir. Ermənistandan Türkiyəyə potensial ixracın əsas çeşidinə kənd təsərrüfatı məhsulları, o cümlədən tütün məmulatları (siqaret), şüşə qablar, zərgərlik məmulatları və minerallar, xüsusilə də mis filizi daxildir. Türkiyəyə potensial ixracın strukturu Ermənistanın ümumi ixracat strukturuna bənzəyir, lakin metal və spirtli içkilərin payı daha azdır. Türkiyədən Ermənistana potensial idxalın həcmi 678 milyon ABŞ dolları təşkil edir ki, bu da 2021-ci ildə Ermənistanın idxalının 12,8 faizini təşkil edir. Əsas idxal malları maşın və avadanlıqlar, tekstil, geyim, həmçinin kimya sənayesi məhsulları, əsasən əczaçılıq məhsulları olacaq. Sərhədin açılması idxalın mövcud strukturunu dəyişəcək, istehsal vasitələrinin (maşın və avadanlıq) rolunu artıracaq. Kənd təsərrüfatı məhsullarının potensial idxalı orta səviyyədə qalacaq.

Sərhədlərin açılması təkcə iqtisadiyyata deyil, digər əlaqələrin qurulmasına şərait yaradacaq və bölgənin inkişafına təsir göstərəcək. Rubinyan–Kılıç müzakirələri bu əlaqələrin qurulmasında xüsusi rol oynayacaq.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

*Bakının azad edilməsindən 107 il keçir*

# Bakı zəfəri Azərbaycan dövlətçiliyinin bərpasını gerçəkləşdirdi

**Bir əsrlik Rusiya işğalından sonra 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi xalqımızın itirilmiş dövlətçiliyini bərpa etdi. O zaman ölkənin mədəni-siyasi mərkəzi sayılan Bakı erməni-bolşevik qüvvələrin əsarətində qaldığından yeni yaradılmış milli hökumət müvəqqəti olaraq Gəncədə məskunlaşmağa məcbur qaldı. Qafqaz İslam Ordusunun 1918-ci il sentyabrın 15-də düşmən qüvvələrini məğlub edərək Bakını işğaldan azad etməsi dövlətçiliyin bərpa edilməsində ikinci tarixi hadisə idi.**

**Bu şanlı tarixin 107-ci ildönümündə Qafqaz İslam ordusunun yaranması və Bakıya şanlı yürüşünün araşdırıcısı, Milli Müdafiə Universiteti Hərbi Elmi–Tədqiqat İnstitutunun professoru, tarix üzrə elmlər doktoru Mehman Süleymanovla müsahib olduq. Tanınmış hərbi tarixçi Türkiyə–Azərbaycan dostluq və qardaşlığının bu öyünclü səhifəsindən söz açaraq bildirdi:**

– 1918-ci ilin may ayında dövlət müstəqilliyini elan etməsi ərəfəsində Azərbaycanda son dərəcə mürəkkəb və təhlükəli hərbi-siyasi şərait mövcud idi. Cümhuriyyətin elan edildiyi sərhədlər daxilində olan ərazilərin, az qala, yarıdan çoxu Azərbaycan xalqının varlığına qənim kəsilmiş yad qüvvələrin işğalı altında idi. Bolşevik və daşnak ünsürlərindən təşkil edilmiş bədnam Bakı Soveti martın sonu – aprelin əvvəlində şəhərdə və ətraf bölgələrdə kütləvi qırğınlar törətməklə sovet Rusiyasına bağlı diktaturasını qurdu.

Erməni-daşnak və rus bolşeviklərdən ibarət bu qanlı hakimiyyət Azərbaycanın şimal sərhədlərindən Kür çayı hövzəsinə qədər olan Xəzərboyu, habelə qərbə doğru Hacıqabul və Şamaxıya qədər olan əraziləri öz nəzarətinə ala bilmişdi. Qarabağda millətçi-daşnak təcavüzkar qüvvələri, respublikanın cənubunda isə çar Rusiyası dövründə İranla sərhəddə yerləşdirilmiş sərhəd briqadasının komandanlığı at oynatmaqda idi.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən dərhal sonra daşnak Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin hərbi-siyasi qüvvələri Gəncəyə doğru sürətlə irəliləməyə başlamışdı. Onlar tezliklə Gəncəyə yetişmək və Azərbaycanın müstəqilliyini elə beşikdə ikən boğmaq, yerli əhalini qılıncdan keçirmək niyyətində idilər. Buna görə də əsasını erməni daşnakları təşkil edən Bakı Soveti qoşunları iyunun əvvəllərində sürətlə irəliləyib dəmir yolu xətti boyunca Ucar yaxınlığına, Şamaxı–Göyçay şose yolu boyunca isə Qaraməryəmə yetişmişdi. Bu sürətli hücumun qarşısını isə yalnız Azərbaycana qardaş köməyinə yetişmiş Osmanlı Türkiyəsinin hərbi qüvvələri ilə birlikdə almaq mümkün olmuşdu.

***– Belə bir mürəkkəb şəraitdə Qafqaz İslam Ordusu kimi milli ruhlu, döyüşkən hərbi qüvvə necə formalaşdırıldı?***

– Obyektiv tarixi səbəblərdən Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə onun müstəqilliyini müdafiə etməyə qadir yetərli milli hərbi qüvvələr yox idi. Ona görə də Azərbaycanda mövcud olan milli hərbi qüvvələrlə Osmanlı Türkiyəsindən qardaş köməyinə gəlmiş qoşun bölməsi bazasında Qafqaz İslam Ordusu yaradılmışdı. Osmanlı Türkiyəsinin hərbi naziri Ənvər paşanın kiçik qardaşı Nuru paşa bu ordunun komandanı təyin edilmişdi.

Qarşıya qoyulan vəzifələrin həlli – Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsi və AXC hakimiyyətinin ölkənin əsas mərkəzi sayılan Bakıya köçürülərək möhkəmləndirilməsi üçün Nuru paşaya həm Osmanlı dövləti, həm də Azərbaycan dövləti tərəfindən kifayət qədər böyük səlahiyyətlər verilmişdi. Belə ki, Azərbaycanda böyük hərbi qüvvələrə rəhbərlik etməli olan 29 yaşlı Nuru bəy yarbay rütbəsində olmasına baxmayaraq, birdən-birə general-leytenant rütbəsi daşımaq hüququ qazanmışdı. O, eyni zamanda Osmanlı sultanının Cənubi Qafqazdakı səlahiyyətli nümayəndəsi elan edilmişdi. Azərbaycan hökuməti isə ona ölkənin milli hərbi qüvvələrini təşkilatlandırmaq və rəhbərlik etmək səlahiyyəti vermişdi.

Azərbaycanın müstəqilliyini məhv etmək sevdası ilə alışıb-yanan Bakı Soveti qoşunları ilə Qafqaz İslam Ordusu və əlavə olaraq azərbaycanlılardan ibarət könüllü dəstələrin ilk ciddi qarşılaşması 1918-ci il iyun ayının ortalarında Qaraməryəm ətrafında baş verdi. Burada ağır sınaqla qarşılaşmasına baxmayaraq, Qafqaz İslam Ordusu tarixi bir qələbə əldə etdi. Dövlət müstəqilliyimizin zəfər yürüşünə çıxmış bu ordunun bölmələri Qaraməryəmdən başlayaraq Bakıya qədər uzanan uğurlu bir yürüşün başlanğıcını qoydu. Bu yürüşün son nəticəsi isə Bakı şəhərinin azad edilməsi, bu şəhərin yad qüvvələrdən təmizlənməsi oldu.

***– Biz Qarabağın 30 illik Ermənistan işğalından 44 günə azad edilməsini Milli Ordumuzun Zəfər yürüşü adlandırırıq. Qafqaz İslam Ordusunun yad qüvvələrin ciddi müqavimətinə, imperialist dairələrin çeşidli maneələrinə baxmayaraq, sürətlə Bakıya doğru irəliləməsi və sonda düşmənləri əzib Bakıya daxil olması da tarixə belə bir Zəfər yürüşü kimi yazılıb.***

– Qaraməryəmdən başlayaraq Bakıya qədər olan əraziləri də Qafqaz İslam Ordusu, təxminən, ayyarıma azad edə bilmişdi. Bakı şəhərinin azad edilməsi üçün də təxminən, Qarabağdakı qədər vaxt sərf etmək lazım gəlmişdi. Çünki Bakıya hakim olmaq istəyən yad qüvvələr, onların köməyinə gəlmiş ingilis hərbi qüvvələri, habelə Bakıətrafının coğrafi şəraiti Qafqaz İslam Ordusunun sürətli hücumunu müəyyən bir müddətə ləngidə bildi. Bununla belə, Azərbaycan xalqının və Türkiyə hökumətinin iradəsini əks etdirən Qafqaz İslam Ordusu ona tapşırılan vəzifəni uğurla yerinə yetirdi və sonda Bakını bu şəhərə təbii paytaxt haqqı olan xalqımızın sərəncamına qaytardı.

1918-ci il iyul ayının son günlərində Qafqaz İslam Ordusu qüvvələrinin Bakı həndəvərinə yetişməsi ilə Stepan Şaumyanın rəhbərliyi altında olan Bakı Soveti istefa vermək və şəhərə nəzarəti Sentrokaspi adlanan eser-menşevik-daşnak hökumətinə vermək məcburiyyətində qaldı. Bakı Soveti kimi bu tör-töküntü hökumətin və ona tabe olan hərbi qüvvələrin rəhbərliyinin də əsasını erməni daşnakları təşkil edirdilər. Sentrokaspi diktaturası özünü Bakının hakimi elan etdikdən dərhal sonra daşnak nümayəndələri İrana göndərildi və onların vasitəsilə burada olan ingilis hərbi qüvvələrinin komandanı general Denstervil rəhbərlik etdiyi qoşunla Bakıya dəvət olundu.

Bakı neftinə və bütünlükdə Xəzər hövzəsinə sahib olmaq üçün yollar axtaran Böyük Britaniya hökuməti dərhal yaranmış fürsətdən yararlandı. General Densterviłə göstəriş verildi ki, Bakıya hərbi qüvvə çıxarsın. Nəticədə, Bakıya göndərilməsi qərarlaşdırılan 39-cu ingilis briqadasının ilk bölmələri 1918-ci il avqust ayının 4-də gəmilərlə Ənzəlidən Bakıya gətirildi. 1918-ci il avqust ayının 5-də Qafqaz İslam Ordusu qüvvələri tərəfindən Bakı şəhərinin yad qüvvələrdən təmizlənməsi üçün başlanılan ilk irimiqyaslı hücum gözlənilən nəticəni vermədi.

***– Düşmənlər güclü idilər, yoxsa Qafqaz İslam Ordusuna əlavə kömək lazım idi?***

– Demək olar ki, hər iki səbəb var idi, üstəlik imperialist qüvvələr də Türkiyəyə ciddi təzyiq göstərirdilər. Qafqaz İslam Ordusu qüvvələri Qurd qapısı istiqamətindən başlanan hücum zamanı bu yüksəkliklərdə yerləşən ilk səngərləri ələ keçirsələr də, təchizat çətinlikləri üzündən əvvəlki mövqelərinə çəkilmək məcburiyyətində qaldı. Ordu döyüşdə, sadəcə geri çəkilmədi, çox ciddi itkilərə də məruz qaldı. Bu döyüşün gedişində 9 zabit, 139 əsgər şəhid oldu, 463 nəfər isə yaralandı. Çoxlu sayda silah və sursat itkisi də var idi.

Bu döyüşün nəticələri məlum olan kimi Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy bir neçə qərargah zabiti ilə birlikdə Bakı ətrafına gəldi və onlar baş verənləri ciddi şəkildə araşdırdılar. Ordu qısa müddət ərzində Qaraməryəmdən Bakıya qədər ağır döyüşlər keçirmiş, şəxsi heyət müəyyən yorğunluqla qarşılaşmış, silah və sursat təchizatında çatışmazlıqlar yaranmışdı.

Bununla belə, şəxsi heyətdə Bakı şəhərinin tezliklə azad edilməsi ilə bağlı sonsuz bir istək də var idi. Ənvər paşa isə tezliklə Bakının azad edilməsi ilə bağlı Nuru paşa qarşısında ciddi tapşırıq qoymuşdu. Beləliklə, 5 avqust döyüşünün nəticələri Qafqaz İslam Ordusu komandanlığının iradəsini qıra bilmədi. Bakı üzərinə növbəti uğurlu hücumun təşkil edilməsi üçün zəruri hazırlıq tədbirlərinin müəyyənləşdirilməsinə və həyata keçirilməsinə başlandı.

Cəbhə bölgəsində aparılan təhlillərdən sonra Azərbaycana əlavə bir türk diviziyası da göndərilməsi haqqında məsələ qaldırıldı. Ənvər paşa da bu təkliflə razılaşaraq 15-ci piyada diviziyasının Bakı ətrafına göndərilməsi haqqında sərəncam verdi. Eyni zamanda Azərbaycan daxilində yenidən mövcud qüvvələrin cəbhəyə səfərbər edilməsi üçün lazımi işlər görüldü.

Həlledici hücumun başlandığı günə qədər Nuru paşanın göstərişi ilə Bakı ətrafında qüvvələrin yenidən qruplaşdırılması aparıldı, müxtəlif manevrlər həyata keçirildi və mövqe döyüşləri davam etdirilirdi. Hücuma hazırlıq üçün lazım olan 40 gün ərzində keçirilən mövqe döyüşləri ilə Nuru paşa düşmən qüvvələrinə ciddi zərbə vurdu və onları daim bir gərginlik altında saxlamağa müvəffəq oldu. Bu mövqe döyüşləri ilə cəbhə xətti uzadıldı, qarşıdakı düşmənin qüvvələrinin parçalanmasına nail olundu və Bakı şəhərinin mühasirəsi daraldıldı.

Sentyabr ayının 1-də Qafqaz İslam Ordusunun qüvvələri mövqe döyüşlərini davam etdirdilər. Elə günün birinci yarısında Digah və Məhəmmədli kəndləri, habelə Digahın cənubundakı 345 rəqəmli təpə azad edildi. "Sentrokaspi" və ingilis qoşunları böyük bir vahimə içərisində Balaxanı və Ramanı kəndləri istiqamətində geri çəkildilər. Bu istiqamətdə gedən döyüşlərdə Salyan qışlası yaxınlığında milli qüvvələr bir düşmən təyyarəsi də vurdular.

Sentyabrın 6-da Türkiyədən əlavə olaraq göndərilən 15-ci piyada diviziyasının gəlişi ilə Bakı üzərinə həlledici hücuma hazırlıq son mərhələsinə qədəm qoydu. Həmin hücumun təşkili məqsədilə sentyabrın 10-da Qafqaz İslam Ordusu komandanı Nuru paşa və Azərbaycan korpusunun komandanı Əliağa Şıxlinski Bakı ətrafına gəldilər. Mövcud vəziyyət qiymətləndiriləndən sonra sentyabr ayının 13-də saat 17:11-də Hacı Həsən kəndinin qərbindəki müşahidə məntəqəsində Nuru paşa Bakı üzərinə həlledici hücumu başlamaq barədə döyüş əmrini imzaladı.



***– 5-ci türk diviziyasının qərargah rəisi Rüşdü bəy xatirələrində yazırdı ki, o gecə heç kim yatmamışdı. Döyüşçülər 5 avqust döyüşünün intiqamını almaq üçün hücum saatının çatmasını səbirsizliklə gözləyirdilər.***

– Bəli, görülmüş əlavə hazırlıq orduda ruh yüksəkliyi yaratdı. Hazırlanmış hücum planına əsasən, 5-ci türk diviziyası və ona verilmiş milli hərbi dəstələr Qurd qapısının Bayıldan başlayaraq Biləcərinin qərb ətəklərinə qədər olan ərazidən hərəkət etdi. Biləcəri-Sabunçu-Əhmədli çevrəsi boyunca isə 15-ci türk diviziyası və ona verilmiş milli hərbi qüvvələr hücuma keçdi. Azərbaycanın milli hərbi qüvvələrinin və könüllü dəstələrinin böyük bir hissəsi bu istiqamətdən hücuma qoşuldu. Əsas zərbə Qurd qapısı istiqamətindən vuruldu, Bakının şimal-şərq çevrəsi boyunca mövcud olan düşmən qüvvələr də tədricən şəhərə sıxışdırıldı.

Qurd qapısı yüksəkliyinə hücum elə bir sürətlə həyata keçirildi ki, hətta komandanlıq üçün də onun nəticələri gözlənilməz oldu. Eynilə ingilis qoşunları komandanı, general Denstervil də gözlərinə inana bilmirdi ki, gecə vaxtı, əlverişli mövqelərdə qurulmuş müdafiə səngərləri belə bir sürətlə ələ keçirilib. Öz xatirələrində o, Qafqaz İslam Ordusu qüvvələrinin sürətli hücumunu belə təsvir edirdi: "İnanılası mümkün deyildi ki, cəbhəmizin ən güclü sahəsi düşmən tərəfindən belə asanlıqla ələ keçirildi".

Əldə edilən uğur 15-ci diviziyanın mövqelərində də təkrarlandı. Sonradan uğurla inkişaf etdirilən hücum nəticəsində bütün istiqamətlərdə, bütün döyüş sahələrində düşmənin müqaviməti qırıldı. İngilis qüvvələrinin komandanlığı gün ərzində baş verən döyüşlərdən sonra Qafqaz İslam Ordusunun hücumlarının qarşısının alınmasının qeyri-mümkünlüyü haqqında qəti əminlik əldə edildi. Ona görə də axşam saat 8-də ingilis qüvvələrinə geri çəkilmək əmri verildi. Bununla da "Sentrokaspi" rəhbərləri ümid bağladığı əsas qüvvələrdən məhrum oldular.

Ayın 14-də Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən ələ keçirildi.

Gedən döyüşlərin nəticələri ümumən Qafqaz İslam Ordusu komandanı Nuru paşanı razı saldı. Ordu qüvvələri həmin günün gecəsini istirahət etməklə bərabər, həm də son döyüşə hazırlaşdılar. Sentyabr ayının 15-də Qafqaz İslam Ordusu qüvvələri uğurlu hücumu davam etdirdilər və qarşıya qoyulmuş vəzifənin həllinə daha da yaxınlaşdılar.

"Sentrokaspi" rəhbərliyi sentyabr ayının 14-də axşam saat 8-də İranın Bakıdakı konsulu Saədülvüzəradan Bakı üzərinə hücumun dayandırılması üçün vasitəçilik etməsi xahiş olundu. Aparılan danışıqlardan sonra "Sentrokaspi" rəhbərliyi Bakı şəhərini Qafqaz İslam Ordusunun nəzarəti altına verməyi öz üzərinə götürdü. Beləliklə, Bakı şəhəri bütünlüklə Qafqaz İslam Ordusu tərəfindən azad edildi.

***– O gün düşmən qüvvələrin zülm və təhqirlərindən xilas olmuş Bakı əhalisi üçün misilsiz bir xoşbəxtlik müjdəsi oldu.***

– Bakı şəhərinin azad edilməsi təkcə Bakı deyil, həm də Azərbaycan ictimaiyyətinin, eləcə də Türkiyə dövlət rəhbərlərinin, xüsusilə Ənvər paşanın çox böyük sevincinə səbəb oldu. O, Nuru paşaya göndərdiyi teleqramında belə yazırdı: "Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini ən böyük müsərrətlə qarşılarım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpər, şəhidlərimizə fatihələr ithaf edərim".

Bakının azad edilməsi xəbərini M.Ə.Rəsulzadə İstanbulda olarkən eşitmişdi. O dərhal Azərbaycan hökumətinin sədri F.Xoyskiyə teleqram göndərib Azərbaycan xalqını və hökumətini bu tarixi hadisə münasibətilə təbrik etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk sədri Fətəli xan Xoyski Bakının azad edilməsi uğrunda türk hərbçilərinin göstərmiş olduğu xidmətləri Nuru paşaya xitab edərkən belə dəyərləndirdi: "Millət sizə minnətdardır". N. Yusifbəylinin fikrincə, Azərbaycan durduqca bu 3 kəlmə millətin dilində və qəlbində yaşayacaqdır.

Sentyabrın 16-da səhər tezdən Qafqaz İslam Ordusunun Bakının asayişində dayanan hissələrindən başqa qalan qüvvələrinin rəsmi-keçidi keçirildi. Bu rəsmi-keçid Qırmızı Qışla adlanan məntəqədə (İndiki Bakı Dövlət Universiteti ilə Bakı-Quba yolu arasında yerləşirdi) təşkil edildi. Rəsmi-keçiddə Xəlil paşa, Nuru paşa, Əliağa Şıxlinski, Həbib bəy Səlimov, Azərbaycan hökumətinin bir sıra üzvləri də iştirak edirdilər.

Rəsmi-keçid bitdikdən sonra adları çəkilən şəxslər, qonaqlar və qoşun hissələri şəhərə daxil oldular. Şəhər əhalisi küçələrə çıxaraq Qafqaz İslam Ordusunun qalib döyüşçülərini salamladı. Bununla, Bakı şəhəri öz azadlığına qovuşdu və onun tarixində müstəqil bir xalqın baş şəhəri olmaq kimi şərəfli bir səhifənin başlanğıcı qoyuldu.

**– Maraqlı müsahibəyə görə sağ olun.**

***Söhbəti hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Yazıldı tarixə qızıl bir xətlə...

**1918-ci ilin sentyabrın 15-i xalqımızın tarixinə qızıl hərflərlə yazılıb. Məhz həmin gün qəhrəman Nuru Paşanın komandanı olduğu Qafqaz İslam Ordusu Bakı şəhərini erməni–daşnak işğalından azad edib. Bu, Azərbaycan–Türkiyə qardaşlığının ən parlaq və unudulmaz səhifələrindən biridir.**

28 yaşlı Nuru Paşa o gündən hər bir azərbaycanlının qəlbində özünə əbədi abidə ucaldıb. Bu gün də adı dillər əzbəri olan türk fatehinə həsr etdiyi "Nuru Paşa" poemasında Nəriman Həsənzadə necə də gözəl yazıb:

**"Nuru Paşa at belində**
**Türkiyədən – Qarsdan gəlir.**
**"Azərbaycan" deyə-deyə,**
**Yaralanmış aslan gəlir..."**

Xatırladaq ki, 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldığı elan olunmuşdu. Müsəlman Şərqində ilk dəfə sivil, demokratik respublikanın təməli qoyulurdu. Yeni dövlətin qurucuları olduqca böyük və şərəfli bir missiyaya başladıqlarının fərqində idilər. Bununla bərabər, qarşıda son dərəcə çətin vəzifələr dayanırdı. Çünki düşmənlər AXC-ni beşikdəcə boğmaq niyyətində idilər.

İlk növbədə, Azərbaycanın həm düşünən beyni, həm də ürəyi olan Bakını erməni daşnaklarından azad etmək lazım idi. Həmin dövrdə özünün üzləşdiyi çox sayda bir-birindən ağır problemlərə rəğmən, Türkiyə xalqımıza əsl qardaşlıq köməyi göstərməyi qərara aldı. Nəyin bahasına olursa-olsun, Bakı azad olunmalı idi. Azərbaycan bütövlükdə Türk dünyası üçün həyati əhəmiyyət kəsb edirdi.

General Nuru Paşanın komandanlığı altında türk ordusu Azərbaycana göndərildi. İki hərbi qrupdan ibarət 5-ci Qafqaz diviziyası vaxt itirmədən Gümrü–Dilican–Qazax istiqamətində hərəkət etdi. Birinci qrup iyunun 11-də, ikinci qrup isə iyunun 12-də Qazaxa çatdı. Türk ordusu yerli əhali tərəfindən sonsuz sevinc və coşqu ilə qarşılandı.

Bunun ardınca 15-ci Çanaqqala diviziyası Gəncəyə gəldi. Nuru Paşanın komandanlığı altında könüllülərdən ibarət Azərbaycan korpusu ilə birləşən bu hissələr Qafqaz İslam



Ordusunu yaratdılar. Azərbaycanın hər bir guşəsindən igidlər türk əsgər və zabitlərinə qoşulmağı özlərinə şərəf bilirdilər. Bəli, milli qeyrət və namus məqamı idi.

Qafqaz İslam Ordusu 1918-ci il iyunun 17-dən sentyabrın 14-dək bir-birinin ardınca uğurlu döyüş əməliyyatları keçirdi. İyulun əvvəllərində milli qüvvələr Göyçay ətrafında əsasən, ermənilərdən ibarət Bakı Sovetinin silahlı hərbi birləşmələrini darmadağın etdilər və Bakı şəhəri istiqamətində irəlilədilər. 1918-ci il iyulun sonunda Qafqaz İslam Ordusunun igid əsgər və zabitləri Bakı ətrafına çatdılar. Həmin günlərdə qatı millətçi, bolşevik S.Şaumyanın cinayətkar, quldur dəstəsi Bakıdan qaçmışdı, bolşeviklərin hakimiyyətini "Sentrokaspi" diktaturası əvəz etmişdi.

"Sentrokaspi" diktaturası Böyük Britaniyadan hərbi yardım alsa da, Qafqaz İslam Ordusunun hücumu qarşısında duruş gətirə bilmədi. Şiddətli döyüşlərdən sonra 1918-ci il sentyabrın 15-də – Qurban bayramı günü Azərbaycan–Türkiyə ordu birləşmələri Bakıya daxil oldular. Şəhərin küçələrində erməni-daşnak və bolşevik tör-töküntüləri ilə ağır döyüşlər oldu. Düşmən darmadağın edilərək təslim edildi.

Görkəmli yazıçı Manaf Süleymanov o təlatümlü dönəmi özünün məşhur "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsərində geniş təsvir edərək qeyd etmişdir ki, həmin taleyüklü günlərdə Bakı sakinləri hədsiz sevinc içində idilər. Hər evdə, küçə və meydanlarda böyük bayram əhvali-ruhiyyəsi hökm sürürdü. Bakı Nuru Paşaya xilaskar gözü ilə baxır, ona haqlı olaraq dərin hörmət və ehtiram bəsləyirdi. Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə Bakının azad edilməsi xəbərini İstanbulda eşitmişdi. O, dərhal Azərbaycan hökumətinin sədri Fətəli xan Xoyskiyə teleqram göndərib, Azərbaycan xalqını bu tarixi hadisə münasibətilə təbrik etmişdi. Fətəli xan Nuru Paşaya xitabən demişdir: Millət sizə minnətdardır!

Acı təəssüf ki, Türkiyənin Birinci Dünya müharibəsində məğlubiyyəti xalqımızın azadlıq uğrunda mücadiləsini yarımçıq qoydu. 1920-ci ilin 28 aprelində bolşevik Rusiyası Azərbaycanı işğal etdi. 71 il sonra, 1991-ci il oktyabrın 18-də Azərbaycan xalqı öz dövlət müstəqilliyini yenidən bərpa etdi.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 il yaşadı. Amma azadlıq mücahidlərinin qanı hədər getmədi. Onlar xalqımıza milli istiqlalın səadətini yaşatdılar. Həyat sübut etdi ki, Azərbaycan xalqı azad, müstəqil yaşamağa layiq və qadirdir.

...5 il bundan əvvəl, 2020-ci ilin payızında isə müzəffər Ordumuz Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli liderliyi ilə 30 il işğal altında olan əzəli torpaqlarımızı ermənilərdən azad etdi. 1918-ci ildə olduğu kimi, qardaş Türkiyə bu dəfə də "can Azərbaycan"a hərtərəfli dəstək verdi.

Prezident İlham Əliyev dəfələrlə deyib ki, dünyada Azərbaycan və Türkiyə qədər bir-birilə yaxın ölkə və xalq yoxdur. Bunun danılmaz, qürurverici həqiqət olduğunu Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğanın dilindən böyük şairimiz Bəxtiyar Vahabzadənin aşağıdakı misralarını dinləyəndə bir daha duydum:

**"Bir ananın iki oğlu,**
**Bir ağacın iki qolu,**
**O da ulu, bu da ulu,**
**Azərbaycan - Türkiyə!"**

...Qafqaz İslam Ordusu Azərbaycanda apardığı ağır döyüşlərdə 1130 şəhid verib. Ölkəmizin əsgər bölgələrində şəhid türk əsgər və zabitlərinin məzarları üzərində qardaşlıq abidələri ucaldılıb. Onlar indi bizim and yerlərimizdir. İnsanlarımız onları sonsuz bir hörmət hissi ilə anırlar, daim yad edirlər.

15 sentyabr Bakının düşmən işğalından qurtuluşunun 107-ci ilini qeyd edərkən, başda Nuru Paşa və silahdaşları olmaq üzrə Birinci və İkinci Qarabağ müharibələrində torpaq, Vətən uğrunda canlarının qurban verən bütün şəhidlərimizi minnətdarlıqla xatırlayır, hamısına rəhmət diləyirik.

Yadımdadır, unudulmaz müəllimimiz, BDU-nun professoru Şirməmməd Hüseynov biz tələbələri ilə söhbətləri zamanı teztez deyərdi ki, siz gənclər türk olmağınızla həmişə qürur duymalısınız: Türk ac, susuz qalar, amma bir qarış torpağını düşmənə verməz! Türk üçün torpaq, Vətən şərəf və milli qürur məsələsidir!

Bu gün türk xalqları "İşdə, əməldə, düşüncədə birlik" tövsiyə edən ulu babaları İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Ziya Göyalp və digərlərinin arzu və xəyallarını reallığa çevirərək, birgə səylərlə Böyük Turan qururlar. Bəli, biz birlikdə güclüyük.

Sonda bir daha vurğulamaq istəyirik ki, türkün 15 sentyabr Bakı zəfəri iki qardaş xalqın əbədi birlik və həmrəylik rəmzi kimi yaşayır. Qərinələr, əsrlər, minillər keçəcək, amma bu zəfəri qazananların adları qədirbilən millətimizin yaddaşından heç vaxt silinməyəcək.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Şamaxıda Üzüm və Şərab Festivalı

**Dünən Şamaxıda Üzüm və Şərab Festivalı başlayıb. Şamaxı Rayon İcra Hakimiyyətinin, "Abqora" restoranı və "Nəsimi bağları" kompleksinin təşkilatçılığı ilə Meysəri kəndində keçirilən festival 2 gün davam edəcək.**



Festivalın açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, kənd təsərrüfatı naziri Məcnun Məmmədov və digər şəxslər iştirak ediblər.

Məcnun Məmmədov deyib ki, üzümçülük və şərabçılığın Azərbaycanda, eləcə də Cənubi Qafqazda çox qədim tarixi var. Belə festivallar ənənələri yaşatmaqla yanaşı, ölkəmizdə üzümçülük və şərabçılığın inkişafına da təkan verir. Nazir qeyd edib ki, ötən il ölkəmizdə 12 milyon litr şərab istehsal olunub: "Bu istiqamətdə hələ görüləsi çox iş var. İnanıram ki, bu rəqəm ildən-ilə daha da artacaq və Azərbaycan şərabının tanınmasında belə festivallar mühüm rol oynayacaq".



Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov bildirib ki, vaxtilə yalnız aqrar region kimi tanınan Şamaxı bu gün həm aqroturizm, həm də turizmin digər bütün istiqamətlərində inkişaf edir: "Şamaxının poeziyasının, musiqisinin, xalçaçılığının, qədim tarixi abidələrinin turistlərə yüksək səviyyədə təqdim olunması üçün belə festivallar çox önəmlidir. Biz qarşıdakı illərdə də yeni layihələrlə sizin qarşınıza çıxacağıq".

Üzüm və Şərab Festivalı maraqlı-əyləncəli proqramla davam edib.

Qeyd edək ki, festivalın məqsədi yerli üzüm və şərab istehsalının təşviqi, şərab məhsullarının ixrac potensialının artırılması, Azərbaycanda üzümçülük və şərab istehsalı tarixinin və bu sahədə görülən işlərin geniş ictimaiyyətə çatdırılmasıdır. Builki festivalın proqramına da üzüm istehsalı və şərabçılıq, ölkənin turizm potensialı ilə bağlı müxtəlif maarifləndirici və əyləncəli tədbirlər daxildir.

Meysəri kəndindəki "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin ərazisində təşkil olunan festivalda müxtəlif şərab brendləri iştirak edir. Burada yerli və xarici istehsalçıların nümayiş etdirdikləri müxtəlif çeşidli şərab məhsullarının dequstasiyaları təşkil edilir, ziyarətçilər bəyəndikləri məhsulları ən sərfəli - zavod qiymətinə əldə etmək, ustad dərslərində iştirak etmək, şərab evlərinin maraqlı hekayələrini dinləmək imkanı qazanırlar.

Festival ərazisində sərgi və məşhur restoranların pavilyonları quraşdırılıb. Ziyarətçilər üçün rəssamların üzümçülük mövzusunda əsərləri sərgilənir. Festival ərazisində tələbələr tərəfindən Kənd Təsərrüfatı Nazirliyinin süni intellektlə bağlı təqdimatı olub. Ziyarətçilər üzüm istehsalı və şərabçılıq, Azərbaycanın turizm potensialı ilə daha yaxından tanış olmaq imkanı qazanmaqla yanaşı, müxtəlif oyunlara da qatıla biləcəklər.

Artıq dördüncü dəfədir keçirilən Üzüm və Şərab Festivalı şərab istehsalçılarına yeni işgüzar əlaqələr qurmaq, məhsullarını geniş auditoriyaya tanıtmaq üçün gözəl fürsətdir.

***XQ***

# Azərbaycanın bank sektorunda rəqəmsal keçid

## *Ölkədə əməliyyatların 67,1 faizi nağdsız aparılıb*

**XXI əsrin maliyyə dünyasında rəqəmsallaşma artıq alternativ deyil, zərurətə çevrilib. İnformasiya texnologiyalarının sürətli inkişafı bank sektorunu da tamamilə dəyişib. Bir vaxtlar uzun növbələrdə gözlənilən, yalnız filiallarda həll olunan bank xidmətləri indi mobil telefon vasitəsilə bir neçə saniyəyə həyata keçirilir. Bu transformasiya isə əsasən rəqəmsal bankçılıq həlləri və "Fintex" şirkətlərinin fəaliyyəti ilə mümkün olub.**

Rəqəmsallaşma bank xidmətlərinin müasir texnologiyalar üzərinə köçürülməsini nəzərdə tutur. Elektron imza, mobil bank tətbiqləri, təmassız ödənişlər, QR kod vasitəsilə əməliyyatlar artıq gündəlik həyatımızın bir hissəsinə çevrilib. Süni intellekt və "big data" analitikası isə banklara müştərilərin davranışlarını daha yaxşı təhlil etməyə, kredit risklərini daha dəqiq həm də bazarda şəffaflıq və dayanıqlılığın təmin olunması baxımından əhəmiyyətli addım hesab olunur.

Bank sektorunda rəqəmsallaşma yeni çağırışlar da yaradır. Ən önəmlisi kibertəhlükəsizlik məsələsidir. Maliyyə əməliyyatlarının rəqəmsal məkana keçməsi haker hücumları, məlumatların oğurlanması kimi riskləri artırır. Digər tərəfdən, müştərilə-



qiymətləndirməyə imkan yaradır. Biometrik identifikasiya (üz skanı, barmaq izi və s.) isə həm təhlükəsizliyi artırır, həm də xidmətləri sürətləndirir. Bu prosesin əsas nəticəsi odur ki, bank artıq rəqəmsal platforma rolunu daşıyır. Müştəri istənilən əməliyyatı – ödəniş, kredit müraciəti, depozit yerləşdirməni evindən çıxmadan həyata keçirə bilir.

"Financial Technology" sözlərinin qısaltması olan "Fintex" müxtəlif şirkətlər vasitəsilə bank sektorunda rəqəmsallaşmanı daha da gücləndirən mühüm oyunçulara çevriliblər. Onların iştirakı bir neçə istiqamətdə özünü göstərir. Banklar "Fintex" şirkətləri ilə birləşərək xidmətlərini genişləndirirlər. Məsələn, ödəniş sistemləri və rəqəmsal pulqabılar bu model üzərində qurulur. Digər tərəfdən, bəzi "Fintex"lər isə birbaşa bankların bazarına daxil olur. "Neobanklar" buna nümunədir: "Revolut", "Monzo" kimi platformalar fiziki filial olmadan, tam bank xidmətləri göstərirlər. "Fintex" şirkətləri banklara blokçeyn, süni intellekt, kibertəhlükəsizlik kimi sahələrdə yeni həllər təqdim edirlər. Beləliklə, "Fintex" həm ənənəvi bankları yeni trendlərə uyğunlaşdırır, həm də müştərilərə seçim imkanlarını artırır.

Yeri gəlmişkən, Azərbaycan Mərkəzi Bankının (AMB) sədr müavini Vüsal Xəlilovun "Fintex" Assosiasiyası nümayəndələri ilə keçirdiyi son görüş məhz bu trendlərin ətrafında qurulub. Görüşdə 2025-ci ilin ilk yarımilində "Fintex" ekosistemində müşahidə olunan əsas yeniliklər və inkişaf prioritetləri diqqət mərkəzində olub. Ani Ödənişlər Sisteminin əhatə dairəsinin genişləndirilməsi, "Fintex" şirkətlərinin bu platforma üzərindən innovativ həllərə daha geniş çıxış imkanlarının təmin edilməsi mühüm müzakirə mövzularından biri kimi önə çıxıb. Bununla yanaşı, elektron pul və ödəniş təşkilatlarının fəaliyyətinin beynəlxalq standartlara və mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə təşkili xüsusi vurğulanıb.

ƏL/TMM (çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə) qaydalarına əməl olunması, informasiya təhlükəsizliyi və komplayens risklərinin effektiv idarə edilməsi bu istiqamətdə prioritet məsələ kimi qeyd edilib. Bununla yanaşı, xüsusi tənzimləmə rejiminin təkmilləşdirilməsi, açıq bankçılıq sahəsində aparılan işlər, virtual aktivlər və onların təminatçılarının fəaliyyətini tənzimləyəcək yeni qanun layihəsinin hazırlanması ətrafında da fikir mübadiləsi aparılıb.

Beləliklə, Mərkəzi Bank və "Fintex" Assosiasiyası arasında keçirilən dialoq həm maliyyə texnologiyalarının inkişafı, rin maliyyə savadlılığının artırılması, yeni texnologiyaların istifadəsinə adaptasiyası da vacibdir. Rəqəmsallaşma sayəsində maliyyə inklüzivliyi genişlənir. Bank filiallarına çıxışı olmayan vətəndaşlar da mobil telefon vasitəsilə bank xidmətlərindən faydalana bilirlər. Bu isə həm iqtisadiyyata dinamika gətirir, həm də sosial bərabərliyi gücləndirir.

Təsadüfi deyil ki, bütün bu yeniliklər genişlənən iqtisadi sferada Azərbaycanın oynadığı rolda əhəmiyyətini artırır. Məhz bu il iyunun 24–25-də Bakıda "FINTEX SUMMIT 2025 – Maliyyə və Texnologiyalar Sərgisi"nin keçirilməsi qlobal dinamikada ölkəmizin mövqeyini bariz göstərdi. Əldə olunan statistik göstəricilər rəqəmsallaşmanın və "Fintex" şirkətlərinin cəlbinin müsbət sədasıdır. Bu ilin ilk 4 ayında ödəniş kartları ilə ölkədaxili əməliyyatların 67,1 faizi nağdsız formada aparılıb. Bu, ötən illə müqayisədə 5 faiz bəndi artım deməkdir. Nağdsız əməliyyatların həcmi 30 milyard manata çataraq 33,8 faiz yüksəlib. Ölkədəki kartların 81 faizi təmassız ödənişi dəstəkləyir, POS əməliyyatlarının isə 95 faizdən çoxu məhz bu texnologiya ilə gerçəkləşir.

4 ayda elektron ticarət dövriyyəsi 1,4 dəfə artıb. Bu, həm istehlakçı vərdişlərində dəyişiklik, həm də rəqəmsal xidmətlərin geniş istifadəsi ilə bağlıdır. Aprelin sonuna aktivlər 54,6 milyard manat, kredit portfeli isə 28,1 milyard manat olub (14 faiz illik artım). Kreditlərin yarıdan çoxu real sektora yönəlib. Dollarlaşma 15,2 faizə enib ki, bu da milli valyutaya etimadın artdığını göstərir.

Ümumi depozitlər isə 36,7 milyard manata çatıb (3,9 faiz artım). Fiziki şəxslərin əmanətləri 14,5 milyard manat olub (10,1 faiz artım), müddətli əmanətlər isə 23,2 faiz yüksələrək 9,1 milyard manata çatıb. Kapital illik 10,4 faiz artaraq 7 milyard manata yüksəlib. İlk 4 ayda bankların mənfəəti 339,8 milyon manat təşkil edib.

Bank kartlarının sayı 20,7 milyona çatıb (17 faiz artım). Əsas artım təmassız kartların hesabına olub.

Göründüyü kimi, bank sektorunda rəqəmsallaşma və "Fintex" şirkətlərinin iştirakı artıq qlobal maliyyə sisteminin yeni reallığıdır. Azərbaycan da bu tendensiyadan kənarda qalmır. Rəqəmsal transformasiya yalnız bank xidmətlərinin keyfiyyətini artırmır, həm də ölkənin iqtisadi dayanıqlığını gücləndirir. Gələcək illərdə bu sahənin inkişafı ölkəmizdə həm biznes mühitinə, həm də vətəndaşların gündəlik həyatına daha böyük rahatlıq gətirəcək.

***Nurlan ABDALOV***
***XQ***

# "Yeni əsrin müqaviləsi" uğurla gerçəkləşdirilir



**(əvvəli 1-ci səhifədə)**

Saziş qüvvəyə mindikdən dərhal sonra SOCAR və tərəfdaşları arasında AÇG müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin aparılması ilə bağlı razılaşma əldə edilib. ACE layihəsi üzrə yekun investisiya qərarı isə 2019-cu ilin aprel ayında qəbul olunub.

"Azəri–Çıraq–Günəşli" yataqlar blokunun işlənməsinin növbəti, həlledici mərhələsi olan "Azəri Mərkəzi Şərqi" (ACE) adlandırılan layihənin ümumi dəyəri 6 milyard dollar təşkil edir. Layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. İstismar müddəti ərzində platformadan, ümumilikdə, 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır.

ACE layihəsi mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yeni 48 şaxtalı hasilat, qazma və yaşayış platformasının quraşdırılmasını əhatə edir. Layihəyə, həmçinin yataqdaxili yeni sualtı boru kəmərlərinin və laya vurulan suların nəqli məqsədilə suvurma boru xəttinin tikintisi daxildir.

"Yeni əsrin müqaviləsi" çərçivəsində tikinti işlərinə 2019-cu ilin sonlarında başlanıb. Əsas tikinti-quraşdırma işləri Bakı Dərin Özüllər Zavodunda və Bayılda yerləşən tikinti-quraşdırma sahəsində həyata keçirilib. ACE platformasının dayaq bloku "BOS Shelf" şirkəti tərəfindən inşa edilib. Dayaq blokunun çəkisi 16 min ton, hündürlüyü isə 153 metrdir. Bu qurğuya suvurma, neft və qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildir. Bütün istismar sınaqlarından sonra dayaq bloku 2023-cü il martın 16-da dənizə yola salınaraq suyun 137 metr dərinliyində quraşdırılıb.

ACE platformasının üst modullarına isə neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. "Azfen" şirkəti tərəfindən inşa edilmiş modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur. 2023-cü ilin avqustunda qurğu STB-1 daşıma barjı vasitəsilə dənizə yola salınaraq dayaq blokunun üzərinə quraşdırılıb. Bundan əlavə, layihə çərçivəsində üç yeni yataqdaxili sualtı qaz, neft və suvurma boru xətti birləşmələri və əlaqədar sualtı infrastruktur yaradılıb. Dənizin dibi ilə çəkilmiş 6 və 12 kilometrlik kəmərlər mövcud AÇG sualtı ixrac boru kəmərləri ilə birləşdirilib. 2023-cü il ərzində dənizdəki tikinti işləri və istismar sınaqları da uğurla tamamlanıb.

Artıq yeni əsrin yeni neft sazişi real fəaliyyət sahəsinə çevrilib. Məlum olduğu kimi, 2024-cü il aprelin 16-da "Azəri Mərkəzi Şərqi" platformasında ilkin neftin hasilatına başlanıb. İlk neft 2023-cü ilin sonunda adıçəkilən platformadan qazılmağa başlanmış birinci quyudan əldə edilib. Bu, Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanmasından 6 il 7 ay ötəndən sonra mümkün olub. Bununla da, "Azəri–Çıraq–Günəşli" yataqlar bloku yeni istismar mərhələsinə qədəm qoyub.

Yeri gəlmişkən, ACE platforması "Əsrin müqaviləsi" çərçivəsində bp və tərəfdaşlarının birgə sərmayəsi ilə Xəzər dənizində quraşdırılmış 7-ci neft hasilatı obyektidir. Platformadakı texniki emal qurğularından keçən xam neft 30 düymlük mövcud sualtı ixrac boru kəmərinə qoşulmuş yeni yataqdaxili boru kəməri vasitəsilə, təxminən, 130 kilometr məsafə qət edərək Səngəçal terminalına nəql edilir. Ümumilikdə, ACE platforması və qurğuları gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib.

Ötən müddətdə "Mərkəzi Şərqi Azəri" platformasından 3 hasilat və 1 qaz injektor quyusu qazılıb. 2025-ci ilin ilk yarısının yekunlarına görə, istismarda olan quyulardan gün ərzində orta hesabla 25 min barel neft çıxarılıb. Hasilata başlanıldığı vaxtdan bu ilin 2-ci rübünün sonunadək isə ACE platformasından, təqribən, 4,5 milyon barel (0,6 milyon ton) neft istehsal olunub. Heç şübhəsiz, yeni quyuların istismara verilməsi ilə hasilatın həcmi bir qədər də artacaq.

ACE platforması texnoloji və rəqəmsal baxımdan bp-nin dünyada idarə etdiyi ən qabaqcıl platformadır. Bu unikal qurğunun innovativ layihələndirilməsi insan əməyi tələb edən prosesləri avtomatlaşdırmağa imkan verməklə əməliyyatların daha təhlükəsiz və səmərəli aparılmasını təmin edir. Platforma tam avtomatlaşdırılmış ən müasir qazma qurğusu ilə təchiz olunub. Müasir texnologiya və yeni proseslərin tətbiqi əməliyyatlar nəticəsində formalaşan emissiyaları azaltmağa da kömək edir.

"Yeni əsrin müqaviləsi" adlandırılan sazişin ölkəmiz üçün iqtisadi əhəmiyyəti olduqca yüksəkdir. Belə ki, saziş çərçivəsində Azərbaycan iqtisadiyyatına 40 milyard dollar investisiya qoyulması nəzərdə tutulur. Bu, neft sektorunun inkişafı baxımından vacib olmaqla yanaşı, yardımçı sahələrin inkişafını stimullaşdırmaq baxımından da mühüm əhəmiyyət daşıyır. Təkcə onu qeyd etmək kifayətdir ki, ACE layihəsinin pik dövründə ölkə daxilində həyata keçirilmiş tikinti işlərinə 8 min 500 nəfərdən çox işçi cəlb olunub.

Bununla yanaşı, Azərbaycanın yeni neft strategiyasının şanlı səhifəsi sayılan "Əsrin müqaviləsi"nin davamı olan bu saziş ölkəmizin maraqlarını tam təmin edir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb. Ən əsası isə Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Bundan əlavə, beynəlxalq tərəfdaş şirkətlər tərəfindən Azərbaycan Respublikasının Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəniləcək. Beləliklə, ölkəmizin ümumi mənfəət göstəricisi 89,1 faizə yüksələcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# SOCEA-ya sədrlik Azərbaycana keçdi

**Qazaxıstanın Almatı şəhərində Avropa və Asiya üzrə Regional Hava Naviqasiya Təhlükəsizliyi Koordinasiya Platformasının (SOCEA) Baş Assambleyası keçirilib. Xatırladaq ki, bu mühüm beynəlxalq forum Avropa və Orta Asiyanın müxtəlif ölkələrindən olan aeronaviqasiya xidmət təminatçılarını bir araya gətirərək uçuşların təhlükəsizliyi, hava hərəkəti axınlarının koordinasiyası və regional hava məkanının rəqəmsal inteqrasiyası üzrə birgə həllərin hazırlanmasına xidmət edir.**

Baş assambleyada ölkəmizi AZCON Holding şirkətlərindən olan "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS) təmsil edib. AZANS hökumətlərarası əməkdaşlığın genişləndirilməsi və ölkəmizin Avrasiya aeronaviqasiya arxitekturasındakı rolunun möhkəmləndirilməsi istiqamətində ardıcıl fəaliyyətini davam etdirir.

Almatı toplantısında "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin direktoru SOCEA-nın prezidenti seçilib. Bununla da, təşkilatın sədrlik səlahiyyətləri rəsmi olaraq Türkiyədən Azərbaycana ötürülüb. Bu addım ölkəmizin Avrasiya miqyasında təhlükəsiz, qarşılıqlı uyğunlaşdırılmış və texnoloji baxımdan inkişaf etmiş hava məkanının formalaşdırılmasındakı aparıcı rolunun beynəlxalq səviyyədə tanınmasını bir daha təsdiqləyir.

***XQ***

# Xarici sərmayələrin həcmi artıb

**Bu ilin yanvar–avqust aylarında Azərbaycanda əsas kapitala xarici mənbələrdən 2 milyard 621,7 milyon manat vəsait yönəldilib.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 37,9 faiz çoxdur.

Hesabat dövründə xarici investisiyaların 2 milyard 554,4 milyon manatı (97,4 faizi) Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Türkiyə, Rusiya, ABŞ,




İsveçrə, Yaponiya, İran, Macarıstan, Fransa və Hindistan sərmayədarlarına məxsus olub.

***XQ***



# Yerdən yağdırılan yağış

## *Bu texnologiya ümumi su ehtiyatlarını artıracaq, qıtlığı aradan qaldıracaq*

**XXI əsrdə dünyanın ən ciddi problemlərindən biri kimi önə çıxan su qıtlığı artıq qlobal təhlükəsizlik məsələsinə çevrilib. İqlim dəyişikliyi, quraqlıqların miqyasının genişlənməsi, əhalinin artması və sənaye – kənd təsərrüfatı fəaliyyətinin sürətlənməsi ilə təmiz su tələbatı kəskin həddə yüksəlib. BMT-nin məlumatına görə, bu gün dünyada 2 milyarddan çox insan təhlükəsiz içməli su çatışmazlığı ilə üzləşib. Azərbaycanın da daxil olduğu Cənubi Qafqaz regionu bu problemin təsirinə məruz qalıb.**

Bakıda keçirilən II Beynəlxalq Su Təsərrüfatı Sərgisi və Konfransında iqlim dəyişikliyi nəticəsində ölkəmizin yerli və transsərhəd su ehtiyatlarının 15-20 faiz azaldığı, bununla da respublika ərazisindəki su potensialının ümumi həcminin, təxminən, 19 milyard kubmetr təşkil etdiyi bildirilib. Eyni zamanda çaylarda da su səviyyəsinin getdikcə aşağı düşəcəyi, temperatur artımının qarşısı alınmasa gələcəkdə su ehtiyatlarının 20-30 faiz azala biləcəyi, beləliklə, respublikamızın ciddi problemlərlə üzləşəcəyi diqqətə çatdırılıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə ölkənin kənd təsərrüfatında istifadə olunan suyun həcmi 6 milyard kubmetr olub, səmərəsiz suvarma sistemləri səbəbindən isə bu həcmin, təqribən, 35 – 40 faizi itki kimi qeydə alınıb.

Beynəlxalq Təbii Ehtiyatlar İnstitutunun 2040-cı il üçün hazırladığı hesabata əsasən Azərbaycanın su ehtiyatlarının 70 faizdən çoxu ölkə xaricində formalaşır. Quraqlıqdan əziyyət çəkən 33 ölkə siyahısında Azərbaycan 18-ci yerdə qərarlaşır. Respublikada təqribən 1,4 milyon hektar suvarma sahəsi var. 2023-cü ildə suvarılan sahələrin 4 faizində, hazırda isə təxminən 11 faizində becərmə işləri müasir suvarma sistemi ilə reallaşır. Mütəxəssislərin fikrincə, belə bir göstərici çox aşağıdır. Ona görə də bu istiqamətdə önəmli layihələr həyata keçirilir, fermerlərə yetərincə subsidiya dəstəyi verilir.

Yeri gəlmişkən, son 6 ildə təqribən 40 min hektardan çox, bu ilin ilk yarısında isə 2 min hektardan artıq sahədə müasir suvarma sistemləri qurulub. Kənd təsərrüfatında müasir suvarma mexanizmləri, qurğuları və avadanlıqlarının subsidiyalaşdırılması, eləcə də maliyyələşdirilməsi diqqətdə saxlanılıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən su təsərrüfatı siyasətinə əsasən 2025–2027-ci illər ərzində icrası nəzərdə tutulan yeni texnologiyaların tətbiqinə başlanılıb. Belə ki, cari ilin sonuna qədər süni yağış və havadan su əldə edilməsi ilə bağlı texniki – iqtisadi əsaslandırma və layihə sənədlərinin hazırlanması, 2026-cı ildə pilot ərazilərin seçilməsi və sınaq planlarının hazırlanması, 2027-ci ildə isə ilk pilot layihənin icrası, eləcə də real nəticələrin qiymətləndirilməsi nəzərdə tutulub. Bununla yanaşı, paralel istiqamət kimi yeraltı suların təmizlənməsi və istifadəyə cəlb olunması da qərara alınıb. Yüksək minerallaşmış suların təmizlənməsi və istifadəsi sayəsində su təminatı zəif olan kənd və qəsəbələrin problemlərinin də həlli qarşıya mühüm vəzifə kimi qoyulub.

Diqqətə çatdırılan rəqəmlər də göstərir ki, son illərdə su ehtiyatlarının azalması daha çox kənd təsərrüfatı və məişət sektorunda özünü daha qabarıq büruzə verir. Bu səbəbdən dövlət səviyyəsində alternativ həll mexanizmlərinin hazırlanması qarşıda mühüm vəzifə kimi durur. Onlardan ən səmərəli üsul isə yağış texnologiyasının tətbiqidir.

Xatırladaq ki, qlobal miqyasda süni yağış texnologiyasının ən uğurlu tətbiq edildiyi ölkələrdən biri İsraildir. 1972-ci ildən indiyədək bu ölkədə "bulud toxumlama" (cloud seeding) üsulundan geniş istifadə olunur. İsrailin Milli Su Qurumu ("Mekorot") şirkətinin Azərbaycana süni yağış layihəsi təqdim etməsi də onun bu sahədə zəngin təcrübəsi ilə bağlıdır.

Mütəxəssislərin fikrincə, süni yağış texnologiyasının prinsipi sadəliyi ilə seçilir. Belə ki, buludların içərisinə gümüş yodid kristalları səpilir, bu, aerozolların kütləsini artıraraq yağışın düşməsini sürətləndirir. Lakin uğurlu tətbiq üçün yüksək dəqiqlikli radar sistemləri, iqlim və hava axınlarının proqnozlaşdırılması, eyni zamanda peşəkar idarəetmə zəruridir.

Ekspertlərin qənaətinə görə, Azərbaycanda süni yağış layihəsinin həyata keçirilməsi ilə quraqlığın mənfi təsirləri azalacaq, bu, daha çox Kür – Araz ovalığı və Aran zonalarında hiss olunacaq. Nəticədə suvarma imkanlarının genişlənməsi hesabına kənd təsərrüfatında məhsuldarlıq artacaq. Bu cür əlavə süni mənbələrin hesabına yeraltı su ehtiyatlarının qorunması da gerçəkləşəcək. Şəhər və kəndlərdə su təminatının yaxşılaşması isə sosial rifahın yüksəlməsinə mühüm töhfə verəcək. Nəhayət, süni yağış layihəsinin reallaşdırılması ekoloji balansın qorunmasını, iqlim dəyişikliyinin yaratdığı təsirlərin yumşaldılmasını şərtləndirəcək.

Təbii ki, sadalanan bu müsbət nəticələrlə yanaşı, sözügedən layihənin bəzi risklərinin də müşahidə ediləcəyi gözlənilir:

– ilkin mərhələdə radar sistemləri, aviasiya vasitələri və texniki infrastruktur böyük investisiya tələb edir;

– süni yağış layihəsində səmərəlilik, yəni texnologiyanın yalnız müəyyən hava şəraitində işləməsi, buludlu havanın mövcudluğu əsas şərtlərdən biridir;

– bu məsələdə ekoloji təsirlərin, məsələn, gümüş yodidin uzunmüddətli ekosistem təsirləri barədə müxtəlif elmi fikirlərin mövcudluğu da diqqət çəkir.

Yeri gəlmişkən, İsrailin "Mekorot" şirkəti tərəfindən ölkəmizə təqdim olunan süni yağış layihəsi ilkin mərhələdə milyonlarla dollar investisiya tələb etsə də uzunmüddətli perspektivdə iqtisadi səmərəli sayılır. Hesablamalara görə, bu təşəbbüsün gerçəkləşməsi ilə 1 kubmetr əlavə suyun maya dəyəri duzsuzlaşdırma və digər alternativ üsullarla müqayisədə 2–3 dəfə ucuz başa gəlir. ABŞ-da aparılan araşdırmalara əsasən kənd təsərrüfatında süni yağış vasitəsilə məhsuldarlığın artımı hər il 10–15 faiz əlavə gəlir gətirir.

Bu məqamda beynəlxalq təcrübəyə, inkişaf etmiş ölkələrin yanaşmasına da xüsusi diqqət yetirilməlidir. Mütəxəssislərin fikrincə, Azərbaycanın bu sahədə ilk addımlar atdığı dövrdə digər ölkələrin təcrübəsi də diqqət mərkəzində saxlanılmalıdır. Məsələn, ABŞ dünyada süni yağış texnologiyasının ən çox istifadə edildiyi ölkədir. Kaliforniya, Texas və Kolorado kimi ştatlarda kənd təsərrüfatı və su anbarlarının doldurulması üçün bu üsuldan geniş istifadə olunur. ABŞ-da texnologiyanın idarə edilməsi məqsədilə xüsusi meteoroloji mərkəzlər fəaliyyət göstərir.

Çində də dünyanın ən iri süni yağış proqramı var. Xüsusən Pekin Olimpiadası (2008) ərəfəsində şəhərdə hava şəraitinin idarə olunması üçün "bulud toxumlama"dan geniş istifadə olunub. Çin hazırda bu texnologiyadan quraqlıq bölgələrdə kənd təsərrüfatının inkişafı məqsədilə istifadə edir. Avstraliya da quraqlıqdan əziyyət çəkən ölkələrdən biridir. Burada süni yağış texnologiyasından daha çox su ehtiyatlarını artırmaq üçün sınaq məqsədilə istifadə olunur və əsas məqsəd kənd təsərrüfatı məhsuldarlığının qorunmasıdır.

Süni yağış texnologiyasının ən çox istifadə edildiyi ölkələr sırasında yer alan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Ərəbistan yarımadasının ən quraq ölkələrindən biridir. Burada 2010-cu ildən "bulud toxumlama" texnologiyasına milyardlarla dollar sərmayə yatırıb. BƏƏ-də ən müasir dronlardan və xüsusi aviasiya vasitələrindən istifadə edilir. Sinqapurda isə kiçik əraziyə malik olsa da tropik iqlimdə sudan istifadənin optimallaşdırılması məqsədilə süni yağış və dəniz suyunun duzsuzlaşdırılması kombinə olunur.

Beləliklə, beynəlxalq təcrübə göstərir ki, süni yağış texnologiyası qətiyyən möcüzəli həll deyil, lakin doğru planlama və davamlı yanaşma ilə su qıtlığı probleminin yüngülləşdirilməsində mühüm rol oynaya bilər. Azərbaycan da hazırda bu istiqamətdə mərhələli yanaşmanı seçərək həm texniki-iqtisadi əsaslandırmanı, həm də beynəlxalq tərəfdaşların təcrübəsini nəzərə alır.

Uzunmüddətli perspektivdə süni yağış texnologiyasının yeraltı suların təmizlənməsi, su anbarlarının modernləşdirilməsi, suvarma sistemlərinin səmərələşdirilməsi və iqlim adaptasiyası ilə birlikdə həyata keçirilməsi ölkəmizin su təhlükəsizliyinin təminatında əsas baza rolunu oynaya bilər.

Azərbaycanda gündəmə gətirilən süni yağış texnologiyası həm innovativ, həm də strateji əhəmiyyətə malik bir addımdır. Su qıtlığı problemi yalnız texniki həllərlə deyil, eyni zamanda kompleks dövlət siyasəti, regional əməkdaşlıq və ictimaiyyətin maarifləndirilməsi ilə həll oluna bilər. Beynəlxalq təcrübə sübut edir ki, bu sahədə irəliləyiş üçün həm texnologiyanın, həm də düzgün idarəetmə və maliyyələşmənin paralel şəkildə tətbiqi zəruridir. Beləliklə, qarşıdakı illərdə Azərbaycanda həyata keçiriləcək pilot layihələr ölkəmizin su siyasətində yeni bir mərhələnin başlanğıcı ola bilər və gələcəkdə region üçün nümunəvi model formalaşdırmaq potensialına malikdir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Səid SƏFƏROV,**
**coğrafiya elmləri doktoru,**
**iqlimşünas**

Bir sıra ölkələrdə süni yağış texnologiyalarından daha çox meşə yanğınlarının qarşısının alınması üçün istifadə olunur. Çünki bəzən insanların gücü və hətta təyyarələrin köməyi ilə meşə yanğınlarının söndürülməsi problemə çevrilir. Belə şəraitdə isə həmin əraziyə müəyyən həcmdə yağıntının düşməsi hadisənin qarşısını alır. Bəzi ölkələrdə kənd təsərrüfatının inkişafı məqsədilə süni yağış yağdırılması da artıq aktuallaşıb. Bunun mahiyyəti isə odur ki, bəzən havada qara buludlar olsa da yağıntı düşmür. Çünki yağıntının yaranması üçün bulud zərrəciklərinin ölçüləri müəyyən həddən böyük olmalıdır. Halbuki buludda kristallaşma mərkəzləri yoxdursa, bu, mümkün deyil.

Yer səthindən fərqli olaraq, orta troposferdə təbii kristallaşma mərkəzləri olmur və su damcıları, hətta mənfi temperaturda belə dona bilməyərək ifrat soyumuş vəziyyətdə qalır. Donma prosesi yalnız buludun yuxarı sərhədinin təxminən mənfi 20°C-yə uyğun hündürlükdən yuxarıya qalxdığı hallarda baş verir ki, bu da sinoptik şəraitlə əlaqədar həmişə reallaşmır və beləliklə də yağıntı düşmür.

Buluda daha yuxarı temperaturlarda buz zərrəciklərini əmələ gətirə bilən xüsusi reagentlər göndərməklə, adi halda yağıntı verməyən aşağı buludlarda belə yağışın yaranması reallaşır. Bu məqsədlə adətən xırdalanmış quru buz kristallarından və gümüş – yod reagentindən istifadə edilir. Süni kristallaşdırma mərkəzləri əsasən yerüstü tüstüləmə generatorları, xüsusi təyyarələr və raket – artilleriya sistemləri vasitəsilə buluda çatdırılır.

# Ağsaqqal sözünə hörmət milli dəyərdir



**Hacıqabul Rayon Ağsaqqallar Şurasının hesabat konfransı keçirilib.**

Konfransda şuranın üzvləri, ziyalılar, idarə, təşkilat rəhbərləri və ictimaiyyətin digər nümayəndələri iştirak ediblər.

İcra hakimiyyətinin başçısı Sevindik Hətəmov konfrans iştirakçılarını salamlayaraq rayonun ictimai-siyasi həyatında ağsaqqalların rolundan, rayonda onların nüfuzunun artmasından söz açıb və şuranın ötən dövrdəki fəaliyyətini müsbət qiymətləndirib.

Hesabat məruzəsi ilə çıxış edən rayon Ağsaqqallar Şurasının sədri Sahib Aslanov Prezident İlham Əliyevin uğurlu xarici və daxili siyasətindən danışaraq qeyd edib ki, müasir Azərbaycanın qurucusu Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyası bu gün uğurla davam etdirilir və bunun nəticəsində ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrəti, eləcə də beynəlxalq nüfuzu günbəgün artır.

Konfransda çıxış edən rayon ağsaqqalları Şükür Məmmədov, Əhməd Ağayev və Süleyman Bəşirov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin torpaqlarımızın ərazi bütövlüyünün təmin edilməsində, işğal olunmuş ərazilərdə yenidənqurma və abadlıq işlərinin aparılmasında əvəzsiz fəaliyyətindən bəhs ediblər. Natiqlər son illərdə Hacıqabul rayonunda ağsaqqalların gündən-günə artan səmərəli fəaliyyətindən, rayonun ictimai-siyasi həyatında danılmaz rolundan söz açıb və şuranın ötən dövrdəki fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

Sonra çıxış edən Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov respublikamızın ictimai-siyasi həyatındakı mövcud vəziyyəti geniş təhlil edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan iqtisadi islahatlardan, uğurlu daxili və xarici siyasətdən danışıb. O, həmçinin cəmiyyətimizdə mövcud olan problemlərin qarşısının alınmasında ağsaqqalların əvəzolunmaz rolunun olduğunu qeyd edib və bu işlərdə ağsaqqalları daha fəal olmağa çağırıb.

***Ə.ƏLİYEV***
***XQ***

# Orta məktəblərdə kişi müəllimlər niyə azalıb?

## *Oğlan şagirdlərin ataları kimi tərbiyələnməsində bu amil önəmlidir*

**Müəllim xalqın gələcəyini formalaşdıran mənəvi dayaqlardan biridir. O, yalnız şagirdə bilik vermir, eyni zamanda onu yetişdirir və xarakterini formalaşdırır. Bu mənada müəllimlik yaradıcı yanaşma, səbir və qətiyyət tələb edən müqəddəs peşədir.**

Hazırda ölkəmizdə ümumi təhsil müəssisələrində çalışan kişi müəllimlərinin sayı 19 936 nəfərdir, onlardan 1781 nəfəri ibtidai sinif müəllimidir.



Cəmiyyətdə son dövrlərdə formalaşan stereotiplər tədricən müəllimliyi qadınların öhdəsinə buraxıb. "Uşaqlarla qadın məşğul olmalıdır" düşüncəsi kişiləri illər keçdikcə bu sahədən uzaqlaşdırıb. Nəticədə ibtidai siniflərdə və humanitar fənlərin tədrisində kişi müəllimlərin sayı azalıb.

Müasir dövrdə məktəblərdə kişi müəllimlərin azlığının bir sıra səbəbləri var. Bunlardan biri də maddi amildir. Müəllimlik peşəsi məsuliyyət və zəhmət tələb etsə də bu sahədə əməkhaqqı digər peşələrlə müqayisədə yüksək deyil. Xüsusən də ailə başçısı olan kişilər üçün maddi təminat mühümdür. Bu səbəbdən gənc oğlanlar peşə seçərkən daha çox gəlir gətirən sahələrə üstünlük verirlər.

"Müəllimlik əsl qadın peşəsidir" tendensiyası bəzi hallarda problemlərə yol açır. Belə ki, ilk siniflərdən yalnız qadın müəllimlərlə qarşılaşan şagirdlərin həyatında ideal kişi obrazı olmur. Bu gün məktəblərdə kişi ibtidai sinif müəllimlərinin sayı çox azdır. Halbuki təhsil sistemində gender balansı qorunarsa uşaqlar həm qadın, həm də kişi müəllimlərdən öyrənərək daha hərtərəfli şəxsiyyət kimi formalaşa bilərlər.

Orta məktəbdə tarix fənnini tədris edən Elmir Nəsirov məktəblərdə kişi müəllimlərin roluna xüsusi diqqət çəkərək deyir: "Kişi müəllimlərin təhsil ocaqlarında olması çox vacibdir. Çünki oğlan şagirdlər müəllimlərini ideal obraz kimi qəbul edir və onlardan nümunə götürürlər. Bu, təkcə onların dərsə münasibətində yox, həm də xarakterlərinin formalaşmasında özünü göstərir. Kişi müəllimlər oğlan şagirdlərə həm də həyatla bağlı məsləhət verir, yol göstərir. Şagirdlər müəllimlərində həm tələbkarlığı, həm də anlayışı görəndə, gələcəkdə öz həyatlarını daha sağlam əsas üzərində qururlar".

**Elmir müəllimin sözlərinə görə, bir çox şagirdi gələcəkdə müəllim olmağı məhz onun dərslərində arzulayıb:** "Çox vaxt dərsdən sonra yanımda dayanıb müəllim olmaq istədiklərini deyirlər. Bu mənim üçün böyük qürurdur. Şagirdlərimdən biri isə inşa yazısına "Mənim ilk kişi müəllimim" adını vermişdi və orada məni öz idealı kimi təsvir etmişdi. Bu, müəllim üçün ən böyük mükafatdır".

Məktəblərdə kişi müəllimlərin olması şagirdlərə vətənpərvərlik hissinin aşılanmasına da müsbət təsir göstərir. Oğlan şagirdlər düşünürlər ki, kişi müəllimlərin olması məktəblərdə daha ciddi şərait yaradır və nəticədə arzuolunmaz hadisələr baş vermir, dərslər daha ciddi təşkil olunur. Orta məktəb şagirdi Mircahad Ağayev deyir ki, hərbi və idman müəllimləri kişi olduqları üçün onları özlərinə daha yaxın hiss edir və səmimi məsləhətlər ala bilirlər.

Psixoloq Arifə Hüseynli qeyd edir ki, məktəblərdə qadın müəllimlərlə yanaşı, kişi müəllimlərin də mövcudluğu son dərəcə vacibdir, azyaşlı oğlan uşaqları arasında aparılan tədqiqatlarda maraqlı nümunələr ortaya çıxır: "Məsələn, birinci sinif şagirdi xanım müəlliminin ətəyini düzəldərək oturduğunu görür və özü də oturarkən eyni hərəkəti etməyə çalışır. Bu müşahidə göstərir ki, şagirdlər davranış və qaydaları müəllimlərinin nümunəsindən öyrənirlər. Məktəb uşaqların sosial və emosional bacarıqlarını öyrəndiyi məkandır. Kişi müəllimlər tələbkarlıq və bilik ötürmək funksiyasını yerinə yetirməklə yanaşı, uşaqlara məsuliyyət, hörmət və düzgün davranış nümunələri verirlər".

Bu prosesin önəmi xüsusilə ilk illərdə, yəni ibtidai siniflərdə açıq-aydın görünür. Hər bir şagird qarşısında həm qadın, həm də kişi müəllim obrazlarını gördükcə, fərqli xarakter və davranış modellərini mənimsəyir. Qadın müəllimlər şagirdlərə incəlik, qayğı və diqqət nümunəsi göstərirsə, kişi müəllimlər yetkinlik, cəsarət və məsuliyyət hissini təcəssüm etdirir. Nəticədə uşaqlar hər iki cinsin güclü və zəif tərəflərini öyrənərək daha balanslı, yetkin şəxsiyyət kimi formalaşırlar.

Beləliklə, məktəblərdə kişi müəllimlərin olması şagirdlərin psixoloji və sosial inkişafına mühüm təsir edir. Bu nümunələr göstərir ki, müəllim yalnız bilik verən deyil, eyni zamanda uşaqların həyat yolunu formalaşdıran, davranış və xarakterlərinə təsir edən şəxsdir.

***Ləman TƏHMƏZ***
***XQ***

# Vətən, sənə canım fəda!

**Hər kəs həyatda yazılan ömür payını bir cür yaşayır. Vətən uğrunda canından keçən qəhrəmanların döyüş yolu isə başqa bir tarixdir. Bu tarixi yazanlar əsrlər, qərinələr keçsə də daim xatırlanacaqlar.**



– "Mən böyüyəndə hərbçi olacağam", - deyən Vətən Müharibəsi Qəhrəmanı Rəşad Abdullayev 1988-ci il sentyabrın 14-də Cəlilabadın Göytəpə qəsəbəsində dünyaya gəlib. Göz açdığı Göytəpənin 13 Vətən müharibəsi şəhidindən biridir Rəşad. Ata-ananın tək oğlu, 3 bacının bir qardaşı olan Rəşad ağlı, dərin zəkası ilə hər zaman yaşıdlarından fərqlənərmiş. Rəşad ilk təhsilini Göytəpə kənd tam orta məktəbində alıb. Onun hərbə gedən yolları, hərbçi olmaq arzusu demək olar ki, ibtidai sinifdən başlayıb. Həm də babası Məmmədağa kişi nəvəsini gələcəkdə hərbçi olmağa çox həvəsləndirirərək deyirmiş: "Sən mənim döyüş yolumu davam etdirəcəksən".

Rəşad babasının bu arzusundan ruhlanaraq sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim edir. Babanın arzusu yerinə yetir. Rəşad yüksək nəticələrlə liseyə qəbul edilir. 2006-cı ildə liseyi əla qiymətlərlə başa vuraraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Liseydə öyrəndiyi ilkin hərbi vərdişlərini, biliklərini burada daha da təkmilləşdirir. Həyatını bağlayacağı hərb elminin sirlərinə dərindən yiyələnir. Keçirilən dərslər, məşqlər, təlimlər onun peşəkar hərbçi kimi yetişməsində mühüm rol oynayır. Hər dərs, məşq, hər təlim Rəşada hərbin çətin yollarında iradəli, dözümlü, əzmli olmağı öyrədir. Beləliklə, Ali Hərbi Məktəbi "motoatıcı" ixtisası üzrə bitirərək leytenant rütbəsi alan Rəşad "N" saylı hərbi hissədə taqım komandiri vəzifəsində xidmətə başlayır.

Qısa müddətdə xüsusi hərbi bacarığı, peşəkarlığı ilə seçilən və komandanlığın diqqətini cəlb edən gənc zabit Xüsusi Təyinatlı Qüvvələrdə xidmət keçmək üçün "N" saylı hərbi hissədə kurslara qatılır. Sonra Xüsusi Təyinatlı Qrupun komandir müavini vəzifəsinə təyin edilir. Xüsusi kursları fərqlənmə ilə başa vurur.

Rəşad 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində başlayan, tarixə Aprel döyüşləri adı ilə yazılan Azərbaycan Ordusunun əks-hücum əməliyyatında yüksək döyüş bacarığı nümayiş etdirir. İşğaldan azad olunmuş yüksəkliklərə üçrəngli Azərbaycan bayrağını sancan oğullardan biri olur. Aprel döyüşlərindən sonra Prezident İlham Əliyevin 24 iyun 2016-cı il tarixli Sərəncamına əsasən, xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə baş leytenant Rəşad Abdullayev "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilir.

Bundan dörd il sonra 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin genişmiqyaslı təxribatlarına qarşı Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatının – Vətən müharibəsinin üçüncü günündə zabit Rəşad Abdullayev Murovdağ istiqamətində gedən döyüşlərə qatılır. Murov dağına öz hərbi dəstəsi ilə ilk ayaq basan, ən öndə gedərək 34 erməni postunu alan, Azərbaycan bayrağını birinci sancan, düşmənlə üzbəüz vuruşub sinəsindən yaralanan, 20 saat yaralı qalmasına baxmayaraq, zabitlərindən ayrılmayan, yaralı-yaralı ayağa qalxıb onlara yol göstərən, zabit yoldaşlarına əziyyət verməmək üçün onu daşımalarına razı olmayan Rəşad yüzlərlə düşmənin məhv olunmasında yaxından iştirak edib, qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlib. Oktyabrın 2-də doğulduğu doğma yurdda – Göytəpə şəhər qəbiristanlığında izdihamla dəfn olunub. Qəhrəmanın iki övladı Rüqəyya və Məmmədağa Vətənə əmanətdir.

Anası Sevil xanım Rəşadın uşaqlığını belə xatırlayır: "Onun haqqında keçmiş zamanda danışmaq mənim üçün çox çətindir. Rəşad bacarıqlı, savadlı uşaq idi. İdmanla daima məşğul olurdu. Futbol oynamağı sevirdi. Çox erkən yaşlarından maşın sürməyi öyrənmişdi. Balıq tutmaq, ova getmək onun sevimli məşğuliyyətlərindən idi. Babası 1941-1945-ci illərdə faşistlərə qarşı döyüşmüşdü. Rəşad da uşaq vaxtı onun orden və medallarını sinəsinə taxıb şəkil çəkdirərdi. Çoxlu oyuncaq silahları vardı. Babası onu həmişə "aslanım", – deyə çağırardı. "Aslanımı hərbçi görmək istəyirəm" deyərdi. Rəşad hərbçi oldu, torpağını, Vətənini sevdi, qorudu. Vuruşdu, şəhid oldu. Qəhrəman adını qazandı".

Şəhid zabitin atası Arif Abdullayev oğlunun qəhrəmanlığı, igidliyi ilə həmişə fəxr edib, qürurlanıb: "Rəşad sanki döyüş üçün doğulmuşdu. Mən bir ata kimi onu başqa sənətdə görə bilmirdim. O, yalnız hərbçi olmalıydı. Oldu da. Erməni silahlılarına qarşı qəhrəmanlıqla döyüşdü, düşmənin çoxlu sayda canlı qüvvəsini məhv etdi. Onun kimi oğullar Vətən üçün doğulur, Vətən üçün canından keçir, şəhid olurlar. Xatirəsinin əbədiləşdirilməsi ilə bağlı çox işlər görülüb. Cəlilabad rayon 2 saylı tam orta məktəb Rəşadın adını daşıyır. Bakı şəhəri, Qaradağ rayonunda Şəhidlər xiyabanı yerləşən küçəyə onun adı verilib".

Qəhrəmanın ömür-gün yoldaşı Gülnar xanım: "Rəşadla 2013-cü ilin sentyabrın 8-i ailə qurmuşuq. Özüm yaş yarımlıqdan ata üzünü belə görmədən itirmişəm, nə bacım var, nə də qardaşım. Rəşadla tanış olanda bunların hamısını bilirdi. Mənə dedi ki, bundan sonra sənin atan da, qardaşın da, bacın da mənəm. Elə də oldu. Mənimlə balaca bir uşaq kimi davranırdı. O gündən atanın necə olduğunu bilmişəm. Birinci qız övladımız olub. Qızına çox bağlı idi Rəşad. Qızımız nə istəsəydi, onu hər zaman, gecə də olsa, edərdi. 2-ci övladımız oğlan olub. Atası ilə bir-birinə çox bağlı idilər. Rəşad gedəndə uşaqlar yatmışdılar, o qədər onların boyunlarından, əllərindən öpdü ki... elə bil, hiss etmişdi ki, geri dönməyəcək. Dönmədi də. Amma Vətəninə çox bağlı idi Rəşad. "Vətən" deyəndə ağzında dili quruyardı, həddindən artıq çox sevirdi Vətənini. Elə ona görə də canını Vətəninə fəda etdi. Həmişə deyirdi ki, Vətən candan şirindir. Rəşadın şəhadət xəbəri gələndə təsəvvür edə bilməzsiniz ki, dünyam necə dağıldı. Həyat söndü mənim üçün. Düzdür, yaşayıram, nəfəs alıram, amma buna onun əmanətlərinə görə məcburam. Şəhid xanımı olmaq çətin, amma qürurludur".

Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Abdullayev Rəşad Arif oğlu ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Həmçinin "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olunub.

# Tarix müəllimi döyüş tarixi yazdı

**"Müharibə Elgünlə bərabər, bizim də bütün arzularımızı yarıda qoydu. Gedəndən bəri bizə harada olduğunu demirdi. Narahat olmayın, yerim rahatdır, – söyləyirdi. Sən demə, odun-alovun tən ortasındaymış. Müharibənin son günü Elgün və bir neçə əsgər Şuşaya top mərmisi qaldırırmış. Bu zaman Xankəndi istiqamətindən hücum olub və atılan mərmi parçası onun ayağının arxa hissəsindəki şah damarına tuş gəlir. Qanaxmadan həyatını itirir. Dostları gəlmişdi, deyirdilər ki, həmin vaxt yaralıları çıxarmaq, şəhidləri aşağı düşürmək mümkün olmayıb. Yoxsa Elgünün yarası elə dərin deyilmiş". Bu sözləri şəhid Elgün Quliyevin anası Qənirə xanım söyləyir.**



44 günlük Vətən müharibəsində gənclərimiz döyüş meydanında vətənpərvərlik nümayiş etdirdilər. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin "İrəli, Azərbaycan əsgəri!" çağırışına cavab verən gənclərimiz böyük ruh yüksəkliyi ilə silaha sarılaraq torpaqlarımızı işğaldan azad etdi, üçrəngli bayrağımızı dalğalandırdılar. Azərbaycan əsgəri yazdığı yeni tarixlə xalqımızın qürurunu özünə qaytardı. Həmin gənclərdən biridir Elgün İslam oğlu Quliyev. 1992-ci il sentyabrın 17-də Şamaxı rayonu Göylər kəndində dünyaya göz açan Elgün 2009-cu ildə 11-ci sinfi bitirərək Sumqayıt Dövlət Universitetinin tarix müəllimliyi ixtisasına qəbul olur.

Bacısı Günel Manafova onun gülərüz, xoş sima, zarafatcıl və çox vətənpərvər olduğunu deyir: "Elgün hələ 2016-cı ildə Aprel döyüşləri vaxtı Müdafiə Nazirliyinə könüllü olaraq müraciət etmişdi. Həmin vaxtdan müharibəyə getdiyi müddətə kimi Bakıdakı restoranlardan birində işləyirdi. Sonra ölkədə karantin rejiminin başlaması ilə kəndə qayıtdı. Özü imtahanlara hazırlaşdı. Müəllimlərin İşə Qəbulu imtahanında 52 bal yığaraq Lerik rayonunun Sors kəndinə tarix müəllimi təyin olundu. İxtisası üzrə işləyəcəyini biləndə çox sevinmişdik. Amma qisməti şəhidlik imiş".

Tarix və coğrafiya fakültəsinin dosenti Cavid Məmiyev tələbəsi olmuş Elgün Quliyev haqqında danışaraq, onun vətənpərvər, nümunəvi tələbə olduğunu bildirir. Elgün Quliyevin – "Tarix müəllimi olmadıq, tarix yazarıq" ifadəsi onun nə qədər Vətənə, torpağa bağlı olduğunu bir daha göstərdi. Cavid Məmiyev onu da qeyd edir ki, Sumqayıt Dövlət Universiteti hər zaman öz şəhidləri ilə fəxr edib, onlarla qürur duyur. Hələ Qanlı 20 Yanvar gecəsində canlarını Vətənə fəda edən igid tələbələrimiz doğma Azərbaycanımızın müstəqilliyinə öz qanları ilə imza ataraq, müqəddəs şəhidlik zirvəsini fəth etdilər. Gənclərə vətənpərvərlik hissini aşılayan universitetimiz şəhidlərimizin əziz xatirəsini daima anır və onların ailələrini vaxtaşırı ziyarət edir, maddi-mənəvi problemləri ilə maraqlanır. Təsadüfi deyil ki, Vətən müharibəsi başlayan zaman universitetimizin tələbə və əməkdaşlarından bir qrupu da Ali Baş Komandanımız qismən səfərbərlik elan edəndə könüllü kimi orduya yazıldılar. Onlardan bir qrupu hərbi xidmətə gedərək, düşmənə qarşı qəhrəmancasına vuruşdular.

Elgün Füzuli, Xocalı, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 9-da isə Şuşada şəhidlik zirvəsinə ucalıb. 2020-ci il noyabr ayının 12-də böyüyüb, boya-başa çatdığı Şamaxı rayonunun Dağ Göylər kəndinin kənd qəbiristanlığında dəfn olunub. Son nəfəsində "Mən zirvəyə ucalıram, digər yaralılara kömək edin", – deyən, 3 bacının 1 qardaşı, tarix müəllimi kimi çalışa bilməsə də, könüllü olaraq qatıldığı cəbhədə qəhrəmanlığı ilə tarix yazan, müqəddəs "Qurani-Kərim" kitabını əzbər bilən, nəslinin yeganə davamçısı idi şəhidimiz.

Prezident İlham Əliyevin sərəncamları ilə Elgün Quliyev ölümündən sonra "Şuşanın azad olunması uğrunda", "Vətən uğrunda" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib. Xalqımız şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizi unutmur, daim yad edir. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, dövlətimizin suverenliyi və xoşbəxt gələcəyi uğrunda canlarını fəda etmiş Elgün kimi qəhrəman oğullarımız müasir gənclik üçün ən gözəl vətənpərvərlik nümunəsi hesab edilir.

Şəhidlik zirvəsinə ucalan vətən övladlarının mübarizliyi həm də Azərbaycan xalqının tarixində qəhrəmanlıq salnaməsidir. Onların adları, xatirəsi yaddaşlarda əbədi yaşayacaq.

# Şəhid övladları, yeni dərs iliniz mübarək!

## *Qazandığınız uğurlar igid atalarınızın ruhunu sevindirir*

**Sabah yeni tədris ili başlayır. Bu il ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman şəhidlərin yüzlərlə övladı ilk dəfə olaraq orta və ali məktəbə ayaq basacaq. İstər ölkəmizin ali təhsil ocaqlarına, istərsə də xaricdə tanınmış məktəblərə qəbul imtahanlarını müvəffəqiyyətlə verib tələbə adı qazanmış şəhid əmanətləri. Şəhid valideynlərinizlə yanaşı, Sizinlə də qürur duyur, fəxr edirik.**



Qapılarını ilk dəfə açacağınız ali məktəblərdən həm sevincli, bir az da kədərli gözlərinizdən dünyanın xoşbəxtliyi boylanacaq. O qədər fərəhlisiniz ki... Siz Vətəni və Sizləri bizlərə əmanət edib, yağı düşməni doğma torpaqlarımızdan qovan, torpaq uğrunda canlarından keçən qəhrəmanların övladlarısınız. Hər birinizin əldə etdiyi uğurlar böyük qətiyyətin və əzmkarlığın nəticəsidir.

Bu gün Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı və dəstəyi, xalqın sevgisi ilə əhatə olunmuş şəhid övladları qəhrəman atalarının yolunu şərəflə davam etdirirlər. Onlar hər zaman öndədirlər – Vətənə sədaqətdə, təhsildə, ictimai işlərdə. Builki qəbulda şəhid övladlarının tələbə adını qazanması bunu bir daha təsdiq edir.

İllərdir əziyyət çəkən, göz nurunu tökən, dünənin şagirdi, bu günün isə tələbələri olan gənclərin sevincinin həddi-hüdudu yoxdur. Statuslarınız təbrik yağışına tutulub: hüquq, informasiya təhlükəsizliyi, tibb, mühəndislik, maliyyə, filologiya, memarlıq və sair ixtisasların qəbulunun nə qədər çətin olmasına baxmayaraq, bu adı qazandınız. Bu Vətənə və şəhid atalarınızın adına layiqli övlad olacağınız şübhəsizdir.

Min bir əziyyətlə yüksək nəticə göstərərək tələbə adı qazanmış bir şəhid övladının atasının məzarı önündə sosial şəbəkələrdəki paylaşımı olduqca kədərli notlara köklənib.

– Ata, mən sənə söz vermişdim ki, tələbə adını qazanıb sənin arzularını yerinə yetirəcəm. Artıq mən tələbəyəm. Gözüm hər yerdə səni axtarır. Ata, sağlığında da, şəhid olandan sonra da səninlə fəxr edirəm. Həmişə də belə olacaq, heç vaxt dəyişməyəcək.

– Axı sən də söz vermişdin ki, sənin boynuna sarılıb ali məktəbə ilk qədəmlərini birgə atacağıq. İlk tədris günü mənim üçün həm sevincli, həm də kədərlidir. Yolboyu yəqin birgə gedəcəyik. Elə məktəbin qapısını, pilləkənləri qoşa addımlayacağıq. Ətrafımdakılar bunu hiss etməsə belə. Həyatım boyu ruhun mənimlə olacaq. Söz verirəm, adına layiq övlad olacağam. Bizi əmanət etdiyin Vətənin çiçəklənməsinə, inkişafına var qüvvəmlə çalışacağam.

Bu il tələbə adı qazanmış şəhidlərimizin övladları – Milli Qəhrəman, polkovnik Şükür Həmidovun oğlu Nurlan Həmidli – Türkiyənin Eskişehir Osmangazi Universitetinə, Vətən Müharibəsi Qəhrəmanı şəhid Sübhan Cəbrayılovun oğlu Rahim Cəbrayılov Bakı Mühəndislik Universitetinin kompüter mühəndisliyi ixtisası üzrə, MAXE nazir Xurşudovun oğlu Şahin Xurşudov Türkiyənin Balıkesir Universitetinə, polkovnik Şahin Mirzəyevin oğlu Əli Mirzəyev Azərbaycan Universiteti, İnformasiya təhlükəsizliyi, Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin qızı Nigar Əliyeva Bakı Dövlət Universitetinin Tarix fakültəsinə, polkovnik-leytenant Sadiq Məmmədovun qızı Səbinə Məmmədzadə Azərbaycan Dillər Universitetinin Tərcümə fakültəsinə (Koreya dili üzrə), mayor Abakar Hacıyevin oğlu Hacı Hacıyev Xəzər Universiteti, İnformasiya agentliyi fakültəsinə (tədris ingilis dilində), mayor Urfan Vəlizadənin qızı Zəhra Vəlizadə – Azərbaycan Dillər Universiteti, Alman dili fakültəsinə (tərcüməçi), mayor Sübhi Mürsəliyevin qızı Aişə Mürsəliyeva Azərbaycan Tibb Universitetinin Tibb bacısı işi fakültəsinə, mayor Fəqan Xudaverdiyevin oğlu Elcan Xudaverdiyev Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə, gizir Mais Səmədovun oğlu Süleyman Səmədov Azərbaycan İdman Akademiyasının Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi fakültəsinə qəbul olub.

Vətən müharibəsi qəhrəmanı Anar Əliyevin qızı Nigar Əliyeva açıqlamasında bildirib ki, "Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmaq mənim üçün həm də qürurludur: "Çünki tarix yazan birinin qızıyam. Oxuduğum, işlədiyim müddətdə özümü daha da inkişaf etdirmək məqsədindəyəm. Gələcəkdə isə ikinci təhsil kimi hüquqşünaslıq ixtisasına yiyələnmək istəyirəm. Atamla bu mövzuları çox danışmamışdıq. O, şəhid olanda hələ mənim yaşım az idi. Amma inanıram ki, o da indi məni görür və fəxr edir".

Milli Qəhrəman, şəhid polkovnik Şükür Həmidovun oğlu Nurlan Həmidli: "Türkiyənin Eskişehir Osmangazi Universitetinin Biznesin idarə olunması fakültəsinə qəbul olunmuşam. Hamı kimi mən də çox sevinirəm. Bu ixtisas atamın mənim üçün arzuladığı sahədir. Mən özümə borc bildim ki, onun bu arzusunu yerinə yetirim. Təhsilimi başa vurduqdan sonra işləmək üçün ölkəyə dönəcəyəm.

Tələbə adı qazanmış şəhid övladları, müstəqil həyatınız başlayır. Hər gün, hər səhər kimsə dərsə tələsəcək, kimsə kitablarını sinəsinə sıxıb oturacağı yeri, qrup yoldaşlarını, müəllimlərini həsrətlə gözləyəcək, alacağı bilikləri dərk edib həyatına tətbiq etmək haqqında düşünəcək. Elə tədrisin ilk günündə auditoriyada tanışlıq məqsədilə müəllimlərinizə "mən şəhid oğluyam!", "mən şəhid qızıyam!" sözlərini qürurla söyləyəcəksiniz.

Uğurlarınız bol olsun. Tələbəlik illəriniz uğurlu və faydalı keçsin. Yüksək zirvələrə aparan yolda hər birinizə cansağlığı, səbir və iradə arzulayırıq. Tələbə adınız və ilk tədris iliniz mübarək!

# Gəncənin igid yetirməsi

**Şanlı tariximizə yazılan Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi. Vətən uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalanları bu gün xatırlamaq mənəvi borcumuzdur. Bu müharibə Azərbaycana zəfər sevincini bəxş etməklə yanaşı, xalqımızın qəhrəman oğullarını da bir daha tanıtdı. Neçə-neçə igid oğullar Vətən uğrunda haqq savaşının iştirakçısı, şəhid və ya qazi oldular. Sonunda zəfər çaldığımız bu müharibə Azərbaycan xalqının Vətənə necə bağlılığını, onun üçün gözünü qırpmadan canından keçməyə hazır olduğunu bir daha nümayiş etdirdi.**



Vətən müharibəsi Azərbaycanın öz ərazi bütövlüyünü tam bərpa etməsi ilə yekunlaşdı. Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz şanlı tarix yazaraq düşməni darmadağın etdi. 2020-ci il Azərbaycan tarixinə Zəfər ili, topraqlarımızın işğaldan azad olunduğu il kimi düşdü. Sentyabrın 27-də işğalçı Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi növbəti hərbi təxribata cavab olaraq Ordumuzun başladığı 44 günlük Vətən müharibəsi düşmənin sarsıdıcı məğlubiyyəti ilə nəticələndi. Bu haqq savaşında qələbəyə görə şəhidlərimizə və qazilərimizə borcluyuq. Qarabağ uğrunda müharibə başlayanda torpağa Ana deyib ölüm-dirim savaşına atılanların qəlbində bircə hiss var idi: Vətəni düşməndən qoruyaraq ona layiqli oğul olmaq!

Haqq-ədalət savaşımızda bizə qələbə bəxş edən şəhidlərimiz, qazilərimiz, hərbçilərimizin qəhrəmanlığı, şücaəti gənc nəsil üçün əbədi miras qalan mənəvi dəyərimizdir. Məhz bu mirası gənc nəslə ləyaqətlə aşılayan, Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirən minlərlə hərbçimiz Prezident İlham Əliyevin sərəncamları ilə yüksək dövlət orden və medalları ilə təltif edilmişdir. Bu gün biz fəxrlə deyə bilərik ki, Vətən üçün şəhidliyi könüllü qəbul edən, bununla fəxr edən gənclərimiz var.

Vətən müharibəsi şəhidi Abdullayev Həsən Qərib oğlu Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Xüsusi Təyinatlı Qüvvələrin sıralarında xidmət edib. Həsən Vətən müharibəsində şəxsi igidlik və şücaət göstərib, 2020-ci il noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb, noyabrın 12-də Gəncə Şəhidlər xiyabanında dəfn edilib.

Prezident İlham Əliyevin sərəncamları ilə şəhid Həsən Abdullayev göstərdiyi igidliyə, fədakarlığa və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "Döyüşlərdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Şuşa uğrunda gedən döyüşlərdə şəhid olan Həsənin anası oğlunun ölümündən 3 gün əvvəl, onu düşünərək vəfat edir. Ana baladan, bala anadan xəbərsiz dünyadan köçüblər. Son nəfəsində dostuna "Bircə mənim hiss etdiyim ətri duya bilsəydin", – deyir 26 yaşlı igid.

Ölkəmizin ərazi bütövlüyünün bərpası, doğma torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda gedən döyüşlərdə canlarını Vətən uğrunda fəda edərək xalqımıza qələbə sevincini yaşadan şəhidlərimizin ruhu əbədi olaraq yaddaşlara həkk olunub və hər zaman minnətdarlıqla anılacaqdır.

Bu gün hər birimiz üçün şəhid məzarları and yerinə çevrilib. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq isə ən böyük şərəf və qürurdur.

**Səhifəni hazırladı:**
**Müşfiq MİRZƏ**
**XQ**

*15 Sentyabr Bilik Günüdür*

# Qarabağ Universiteti ikinci addımını atır...

## *Ali məktəb yeni dərs ilini yüksək hazırlıqla qarşılayır*



**Ölkəmizdə yeni tədris ili başlayır. Artıq ikinci ildir ki, öz tələbələrini qarşılamağa hazırlaşan Qarabağ Universitetində də bu günlərdə sevinc və qürur dolu anlar yaşanır. Azad Qarabağımızın ilk və hələlik yeganə ali təhsil müəssisəsi olan bu universitetdə 2025–2026-cı tədris ilinə hazırlığın vəziyyəti ilə tanış olmaq üçün Xankəndidə Qarabağ Universitetinin rektoru Şahin Bayramovla həmsöhbət olduq.**

***– Şahin müəllim, sizi və kollektivinizi qarşıdan gələn yeni tədris ili münasibətilə təbrik edirik. Tələbələrinizi qarşılamaq üçün hazırlıqlar yekunlaşıbmı?***

– Bəli, ilk akademik tədris ilini uğurla başa vurmuş Qarabağ Universitetində 2025–2026-cı tədris ilinə hazırlıq işləri tamamilə yekunlaşıb, artıq yeni tələbələrimizi qarşılamağa başlamışıq. Hazırlıq prosesimiz ilk növbədə tələbə qəbulu ilə bağlı olub. “Xalq qəzeti”nə bundan əvvəlki müsahibəmizdə də bildirdiyimiz kimi, universitetimizdə bu il yeni ixtisasların tədrisinə başlanacaq. Pedaqoji, Humanitar və sosial elmlər, İncəsənət, İqtisadiyyat, Turizm və Mühəndislik fakültələri ilə yanaşı, Tibb və sağlamlıq elmləri fakültəsində də kadr hazırlığı aparılacaq.

Əlavə olaraq, 10 yeni ixtisas - “Biologiya müəllimliyi”, “Kimya müəllimliyi”, “Coğrafiya müəllimliyi”, “Tarix müəllimliyi”, “Bəstəkarlıq”, “Musiqişünaslıq”, “Riyaziyyat”, “Data analitikası”, “Tibb” və “Tibb bacısı (qardaşı) işi” üzrə tələbə qəbulu həyata keçirilib. Bununla da Qarabağ Universitetində bakalavriat səviyyəsində tədris ediləcək ixtisasların sayı 25-dən 35-ə yüksəlib. Artıq bütün ixtisaslar üzrə tələbə qəbulumuz uğurla yekunlaşıb və qəbul planımız əsasən dolub.

Bu proses zamanı keyfiyyət elementi xüsusilə diqqətdə saxlanılıb, əsas prioritetimiz daha yüksək bal toplamış, yüksək intellektli gənclərin universitetimizi seçməsinə nail olmaq idi. Çünki əsas hədəflərimiz sırasında dünya səviyyəli, müasir dövrün iddialı ali təhsil ocağına çevrilmək var. Bütün bu tələblər fonunda qəbulun nəticələri bizi sevindirir və onu deməyə əsas verir ki, gənclərimiz Qarabağ Universitetinə böyük maraq göstəriblər. Ayrı-ayrı ixtisaslar üzrə qəbul balı ilə bağlı göstəricilər də bu mənzərəni daha yaxşı müşahidə etməyə imkan verir. Məsələn, əgər ötən il 600-dən artıq bal toplamış 101 gənc univeristetimizə qəbul olmuşdusa, bu il bu göstərici 127-yə yüksəlib.

Digər nəticələr də ürəkaçandır: 500-dən yuxarı bal toplamış 332, 400-dən çox bal toplayan 613 abituriyent Qarabağ Universitetini seçib. İlk dəfə qəbul həyata keçirdiyimiz tibb ixtisasına keçid balı 614, orta qəbul balı 624 olub. Hüquqşünaslıq ixtisasında orta qəbul balı 604, xarici dil müəllimliyi ixtisası üzrə isə 542 bal təşkil edib. Ən yüksək bal göstəricisi isə 684-dür, məhz bu yüksək balı toplamış abituriyent tələbə kimi universitetimizin Tibb və sağlamlıq elmləri fakültəsində təhsil alacaq.



Ötən tədris ilində respublika fənn olimpiadalarında qalib gəlmiş, yüksək yer tutmuş 1 gənc ali təhsil ocağımıza müsabiqədənkənar qəbul olunmuşdursa, bu il 5 belə gənc Qarabağ Universitetində təhsil alacaq. Özü də bu il tələbə heyətimiz ölkəmizin 66 şəhər və rayonunu təmsil edir, müasir Azərbaycan gənci yaşadığı məkandan, məzun olduğu məktəbdən asılı olmayaraq, Qarabağ Universitetində təhsil almağa üstünlük veriblər.

Tələbə sayına görə şəhər və rayonların ilk onluğuna Bakı, Gəncə, Bərdə, Naxçıvan, Ağdam, Şəmkir, Ağcabədi, Mingəçevir, Sumqayıt və Şəki daxildir. Bir maraqlı statistikanı da diqqətinizə çatdıraq ki, bu il universitetimizə qəbul olunan tələbələrin arasında faiz göstəricisinə görə qızlar üstünlük təşkil edir. Əgər ötənilki qəbulda tələbələrimizin cəmi 46 faizi qızlar idisə, bu il göstərici 58 faizə yüksəlib.

Ümumilikdə, yeni tədris ilinə hazırlıq məqsədilə universitetimizin tədris imkanları genişləndirilib, ötən il qurulmuş infrastruktur bir az da müasirləşdirilib, növbəti kursların ehtiyaclarına uyğun zəruri baza formalaşdırılıb. İnzibati, akademik heyət, bina və avadanlıq baxımından universitetimiz yeni tədris ilinə tam hazırdır.

***– Yəqin ki, tələbələrinizin sayının artması, yeni ixtisasların tədrisi müəllimlərin də sayını artırıb.***

– Bəli, sözsüz ki, pedaqoji heyətimiz də genişləndirilib və yeni müəllimlərin qəbulu prosesi aparılıb. Fəaliyyət dövründə universitetimizə əməkdaşların qəbulu ilə bağlı çox şəffaf mexanizm formalaşdırılıb. Müxtəlif ixtisaslar üzrə ali təhsilli kadr hazırlığı aparan peşəkar mütəxəssislərin akademik fəaliyyətə cəlb olunması bu mexanizm əsasında həyata keçirilib.

Sevindirici haldır ki, Qarabağ Universitetində çalışmaq, uğurlarımızda pay sahibi olmaq istəyənlərin sayı kifayət qədər çoxdur. Həm ölkəmizin, həm də dünyanın aparıcı ali təhsil ocaqlarında magistr, doktorantura təhsili almış çoxsaylı mütəxəssislərin universitetimizdə fəaliyyət göstərmək istəkləri ciddi rəqabət mühiti yaradıb. Buna görə də seçim zamanı ilk növbədə namizədlərin aidiyyəti ixtisas üzrə peşəkarlıq səviyyəsi, tədris və tədqiqat bacarıqları, innovativ yanaşma tərzinin olması, müasir dövrün gəncləri ilə həm tədris, həm də elmi fəaliyyət istiqamətində çalışmaq imkanları maksimal dərəcədə nəzərə alınıb. Nəticə olaraq, peşəkar komandamızla 2025–2026-cı tədris ilinə tam hazırıq.

***– Tələbə yataqxanalarında vəziyyət necədir?***

– Qarabağ Universiteti özünün ən böyük hamisi Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində böyük hədəflərə doğru irəliləyir. Bu diqqət və qayğının nəticəsidir ki, ötən il olduğu kimi, bu il də universitetimizə qəbul olan bütün tələbələr müasir, mənzil konseptli yataqxanalarla təmin ediləcəklər, özü də heç bir ödəniş həyata keçirmədən. Bununla bağlı ödənişlər dövlətimiz tərəfindən qarşılanır.

Biz Azərbaycanda yeganə ali təhsil müəssisəsiyik ki, istisnasız olaraq bütün tələbələrimizi pulsuz yataqxanalarla təmin edirik. Yataqxanalarda tələbələrin yaşamaları üçün bütün imkanlar yaradılıb. Geniş, tam təmirli, işıqlı otaqlar, yaradılmış şərait, infrastruktur gənclərin yaxşı təhsil almalarına, çox məzmunlu tələbə həyatı yaşamalarına imkan yaradır. Bunun üçün bütün zəruri təmir işləri yekunlaşıb, artıq həmin yataqxanalar tələbələrimizin istifadəsinə verilməsi üçün tam hazırdır.

***– Bu tədris ili həm də Qarabağ Universitetinin Klinikasının açılışı ilə yadda qalacaq. Klinikada işlər yekunlaşıbmı?***

– Dövlət başçısının 7 fevral 2025-ci il tarixli fərmanına əsasən Qarabağ Universitetinin tabeliyində “Qarabağ Universitetinin Klinikası” publik hüquqi şəxs yaradılıb. Həmçinin, yuxarıda qeyd etdiyimiz kimi, bu tədris ilində universitetimiz üçün mühüm yeniliklərdən biri də Tibb və sağlamlıq elmləri fakültəsinin strukturlaşması və fəaliyyətə başlamasıdır. Fakültədə yerli və xarici ekspertlərin birgə hazırladığı, beynəlxalq təcrübələrə uyğun 6 illik “Tibb” və 4 illik “Tibb bacısı (qardaşı) işi” proqramlarının tədrisi həyata keçiriləcək.

Bu fakültənin fəaliyyət göstərəcəyi klinikada müasir akademik məzmuna malik tədris metodlarının, ən yeni kliniki alətlərin tətbiq olunacağı ali tibb təhsili vermək imkanımız olacaq. Klinikanın burada təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin etməklə yanaşı, tibb sahəsində elmi tədqiqatlar aparması, regionda əhalinin sağlamlığının qorunmasında iştirakı nəzərdə tutulub. Burada da artıq bütün zəruri hazırlıq işləri yekunlaşıb. Klinika həm pedaqoji heyəti və həkimləri, həm də tələbələri qarşılamağa tam hazırdır.

Sıralarımız genişlənir, komandamızın da, tələbələrimizin də sayı artır. Ümumilikdə bu tədris ilində 400-ə yaxın inzibati-pedaqoji heyətin fəaliyyət göstərəcəyini və 2100-dən artıq tələbənin təhsil alacağını gözləyirik.Yeri gəlmişkən, qeyd edək ki, Qarabağ Universiteti həm də işğaldan azad olunmuş ərazilərimizdə gedən məskunlaşma, həyatın bərpası prosesində də çox fəal iştirak edir və Qarabağın ən böyük işəgötürənlərindən birinə çevrilməkdədir. İlk tədris ili üzrə göstəricilərə əsasən universitetimizin inzibati-pedaqoji heyətində 31 keçmiş məcburi köçkün, 5 müharibə veteranı, 1 şəhid ailəsi üzvü çalışır və bu saylar növbəti illərdə mütəmadi olaraq artacaq.

Qarabağ Universitetinin quruculuğu ilə məşğul olacaq bu insanlar möhtərəm Prezidentimiz tərəfindən qarşımıza qoyulmuş strateji hədəflərə çatmaq yolunda birlikdə irəliləyirlər və düşünürük ki, universitetimiz yaxın gələcəkdə sürətlə dirçələn Qarabağımızın elm və təhsil simvoluna çevriləcək, bütövlükdə Qarabağda gedən bu proseslərdə, buradakı ekosistemin inkişafında öz davamlı töhfəsini mütləq şəkildə verəcək.

***– Müsahibə üçün təşəkkür edirik.***

***Söhbəti qələmə aldı:***
***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

# Elçin Əzizov Moskvada opera səhnələşdirib

**“Bolşoy teatr”ın yeni səhnəsində Azərbaycanın Xalq artisti, rejissor və geyim üzrə rəssam kimi debüt edən bariton Elçin Əzizovun quruluşunda Pyotr Çaykovskinin “İolanta” operasının premyerası olub.**



Tamaşanın musiqi rəhbəri maestro Valeri Qerqiyev, dirijor-rejissor Anton Qrişanin və dirijor Pavel Sorokin də quruluş üzərində işləyiblər. Əsas partiyaları opera truppasının solistləri və “Bolşoy teatr”ın Gənclər Opera Proqramının artistləri ifa ediblər.

Məhz “İolanta” operasındakı mavritaniyalı həkim İbn-Hakia partiyasında Elçin Əzizov əvvəlcə bu teatrın səhnəsində, sonra isə Metropolitan Operasında və dünyanın aparıcı opera səhnələrində çıxış edib. Onun repertuarında dünya operasının onlarla aparıcı partiyaları var.

***XQ***

# “Türk dövlətlərinin tarixi” necə yazılacaq?



**Almatıdakı Əl-Fərabi adına Qazax Milli Universitetində Türk Akademiyasının təşkilatçılığı ilə türk ölkələrinin tarixinə dair müştərək akademik əsərin hazırlanmasına həsr olunmuş ikinci işçi iclası keçirilib.**

Tədbirdə Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev, Əl-Fərabi adına Qazax Milli Universitetinin rektoru, professor Janseyit Tüymebayev Türk Tarix Qurumunun prezidenti, professor Yüksel Özgen, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının üzvü, səfir İkram Adırbəyov, o cümlədən Türk Dövlətləri Təşkilatının üzvü və müşahidəçi ölkələrin tarix və arxeologiya institutlarının direktorları, aparıcı alim və ekspertlər iştirak ediblər.

Türk Akademiyasının prezidenti Şahin Mustafayev çıxışında türk xalqlarının zəngin tarixi irsini sistemli və obyektiv şəkildə təqdim edəcək bu fundamental əsərin hazırlanmasında alimlərin səylərini birləşdirməyin vacibliyini vurğulayıb. İşçi görüş zamanı iştirakçılar monoqrafiyanın strukturunu ətraflı müzakirə edib, təkliflərini bölüşüb, konkret bölmələr üzrə işçi qrupların formalaşdırılması qərara alınıb. Monoqrafiyanın iki cild olacağı deyilib, beynəlxalq işçi qruplarının yaradılması təsdiq edilib.

Məlum olduğu kimi, Türk Dövlətləri Təşkilatının 2024-cü il noyabrın 6-da Bişkekdə keçirilən 11-ci Zirvə Toplantısında türk ölkələrinin ortaq tarixinin yazılması ideyası irəli sürülüb. Dövlət başçılarının tapşırığına uyğun olaraq layihənin əlaqələndirilməsini Türk Akademiyası həyata keçirir. Layihənin ilk işçi görüşü bu ilin fevralında Ankarada keçirilib və tərəflər arasında Əməkdaşlıq Protokolu imzalanıb. Həmin vaxt işin ümumi planı və konsepsiyası da dəyərləndirilib, iki cildlik nəşrin hazırlanması barədə qərar qəbul edilib, hər bir iştirakçı ölkədə birgə komitələr yaradılıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Almatı**

# “Pəhriz sağaldır”, “pəhriz zəiflədir”

## *Bu mülahizələrdən hansına inanaq?*



**Sosial şəbəkələrdə hər gün qarşımıza çıxan “möcüzə pəhrizlər” və “şok arıqlama proqramları” böyük maraq doğurur. Xüsusilə gənclər qeyri-peşəkarların məsləhətləri əsasında qidalanmada kəskin məhdudiyyətlər edir, tibbi mənbələrə və mütəxəssislərin rəylərinə güvənmək əvəzinə, asan və sürətli nəticələr axtarırlar. Bəs bu vədlərin arxasında nə dayanır? Hər pəhriz sağlamlığa xidmət edirmi?**

28 yaşlı Nigar Məmmədova yay aylarında detoks suları ilə pəhrizə başlayıb: “Hər gün müxtəlif tərəvəzlərlə hazırlanan detoks suları içirdim. Bir neçə kilo atdım, amma sonra davam edə bilmədim. Enerjim tükənmişdi və əsəbi idim. Pəhrizi dayandıran kimi atdığım çəki iki qat geri qayıtdı”. 35 yaşlı Aytən Həsənova məşhur ketogen pəhrizini sınayıb: “Qısa müddətdə nəticə əldə etsəm də bu, sosial həyatıma təsir etdi. Üstəlik, daimi yorğunluq və baş ağrıları məni narahat edirdi”.

**55 yaşlı Sevda Əliyeva isə son dövrlər çox populyar olan "aralıqlı oruc" (intermittent fasting) pəhrizi ilə bağlı təcrübəsini bölüşdü:**

– Bu pəhriz sayəsində qısa müddətdə müəyyən nəticələr əldə etdim, lakin maddələr mübadiləsini sürətləndirməsinə, insulin həssaslığını artırmasına baxmayaraq, səhhətimdə bəzi ciddi problemlər yaratdı. İlk günlərində özümü yaxşı hiss etsəm də sonradan davamlı yorğunluq, halsızlıq və başgicəllənmə problemi ilə üzləşdim. Həkimlə məsləhətləşdikdə məlum oldu ki, pəhriz mənim vəziyyətimi daha da ağırlaşdırıb. Həqiqətən, hər kəsin orqanizmi fərqlidir və birinə uyğun olan pəhriz digərinə zərər verə bilər. Düşünürəm ki, pəhrizə başlamazdan əvvəl mütləq həkim nəzarətindən keçmək lazımdır.

Bu nümunələr göstərir ki, ciddi pəhrizlər sağlamlıqla bağlı bir çox problem yaradır.

**Həkim-dietoloq Tutu Zeynalova sürətli çəki atmaq istəyən insanların yol verdikləri səhvlərdən və sağlam həyat tərzinin vacibliyindən danışdı:**

– Bir çox insan illər ərzində topladığı artıq çəkidən qısa müddətdə azad olmaq istəyir. Bu cür yanaşma isə orqanizmdə ciddi fəsadlara səbəb olur. Qısamüddətli pəhrizlər zamanı orqanizm lazımi vitamin və mineralları almır, nəticədə əsəbilik, yuxu pozğunluğu, saç tökülməsi və dərinin elastikliyini itirməsi kimi problemlər yaranır. Üstəlik, bu pəhrizlər davamlı nəticə vermir, çünki insanlar əvvəlki qidalanma vərdişlərinə qayıdırlar. Nəticədə itirilmiş çəki geri qayıdır və hər dəfə orqanizm qoruma rejiminə keçir, maddələr mübadiləsi zəifləyir.

Artıq çəki problemi olan insanlar ilk növbədə vəziyyətin səbəbini araşdırmalıdırlar. Bunun üçün müvafiq analizlər vermək, qidalanma vərdişlərinə diqqət yetirmək və mütəxəssislə məsləhətləşmək lazımdır. Həmçinin piylənməyə səbəb olan “fast food”ların qəbulu azaldılmalıdır.

Çəki problemi ilə üzləşənlərin ilk olaraq terapevt və ya endokrinoloqa müraciət etmələri tövsiyə olunur. Bəzən artıq çəki “D” vitamini və ya dəmir çatışmazlığından



qaynaqlana bilər, bu halda pəhrizlər effekt vermir. Bəzi insanların həddindən çox yeməklərinin səbəbi psixoloji problemlərlə də əlaqəlidir. Bu halda peşəkar psixoloqa müraciət etmək məsləhətdir.

Ən çox yayılan səhvlərdən biri isə insanların ac qalması və ya gün ərzində yalnız bir dəfə qidalanmasıdır. Bu, tamamilə yanlışdır. Qidalanmanı balanslı şəkildə qurmaq və həyat tərzini dəyişmək lazımdır. Bu proses fiziki aktivliyi — gündə ən azı yarım saat açıq havada gəzinti, idman və düzgün yuxu rejimini əhatə edir. Balanslı qidalanma hər şeydən tamamilə imtina etmək deyil, radikal qərarlar insanın psixoloji sağlamlığına mənfi təsir göstərə bilər.

Müasir dövrün ən böyük problemlərindən biri qidaların keyfiyyətidir. Kütləvi istehsal nəticəsində qidaların tərkibi dəyişib. Bir çox emal olunmuş məhsulda süni əlavələr, konservantlar, həddindən artıq şəkər və trans yağlar mövcuddur. Uzunmüddətli istifadə zamanı bu maddələr orqanizmə zərər vurur, iltihabi proseslərə, piylənməyə və xroniki xəstəliklərə səbəb olur.

Dünyanın bir çox ölkəsində, məsələn, ABŞ və Avropada qidaların tərkibinin sağlamlığa təsiri ilə bağlı geniş araşdırmalar aparılır və ictimaiyyət məlumatlandırılır. Bəzi ölkələr yüksək şəkər və duz tərkibli məhsullara əlavə vergi tətbiq edir. Buna görə təbii və minimal emal olunmuş qidalara üstünlük vermək vacibdir.

Unutmaq olmaz ki, pəhriz sadəcə müvəqqəti məhdudiyyət deyil, sağlam həyat tərzinin tərkib hissəsidir. Sağlam qidalanma “möcüzə” pəhrizlərdən daha çox, ağıllı və davamlı həyat tərzidir.

***Arzu ƏLİYEVA***
***XQ***

# “Qadın problemləri: 100 il əvvəl və indi”

**Gəncədə “Qadın problemləri: 100 il əvvəl və indi” mövzusunda elmi-nəzəri konfrans keçirilmişdir. Konfransa şəhərin ziyalı qadınları, alimlər, qadın təşkilatlarının rəhbərləri və ictimaiyyətin nümayəndələri dəvət olunmuşdular.**



Konfransı giriş sözü ilə Gəncə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktor əvəzi Tərifə Abbasova açmışdır. O, qeyd etmişdir ki, müzakirəyə çıxarılmış mövzu olduqca aktualdır və o, bu gün də öz əhəmiyyətini qoruyub saxlayır.

Mövzu ilə bağlı tarix üzrə fəlsəfə doktoru Amalya Qasımova çıxış edərək demişdir ki, XX yüzilliyin əvvələrində Azərbaycanda qadın hərəkatı ümumiyyətlə baş verməmişdir. Onların problemlərini həll etmək vəzifəsini dövrün qabaqcıl ziyalıları – milli mətbuatımızın nümayəndələri öz üzərlərinə götürmüşdülər.

Mətbuat qadınların təhsil, ailə-nikah, sosial və hicab ətrafında mübahisələr mövzusunu geniş işıqlandırırdı. Bakı və Tiflisdə nəşr olunan qəzet və jurnallarda dövrün qabaqcıl ziyalıları qadın azadlığı uğrunda apardıqları mübarizəni ilk növbədə onların təhsil probleminin həllinə yönəltmişdilər. Çünki qızlar təhsil ala bilmirdilər və üstəlik dövrün mürtəce qanunları buna yol vermirdi. XIX əsrin 40-cı illərində Azərbaycanda kəbin-boşanma işlərinə şəriət məhkəmələri baxırdı. Qadınlar erkən yaşda ərə verilir, başlıq pulu alınır, onunla ailənin qulu kimi rəftar edilirdi. Boşandıqda, valideynini itirdikdə, əmlak bölgüsündə ayrı-seçkiliyə məruz qalırdılar.

Rəsmi mənbələrin yazdığına görə əsrin əvvəllərində dövlət idarələrində cəmi 17 müsəlman qadın çalışırdı. Ona görə də mətbuat qadınların sosial problemlərinə də işıq salmağa çalışırdı. Şəfiqə xanım Əfəndizadə “Dirilik” məcmuəsində bütün dünyada qadınlar arasında sənət öyrənməyə, cəmiyyətdə işləməyə marağın artdığını qeyd edir, Azərbaycanda hələ ibtidai halda olan “diriliyin” inkişafına nail olmağın yollarından danışır, sırf müsəlman qızlara məxsus sənət məktəbləri açılmasını vacib hesab edirdi.

Hicab ətrafında diskussiyalar daha gərgin mübarizə şəraitində baş verirdi. Mətbuat iki cəbhəyə bölünüb çadranın lehinə və əleyhinə çıxışlar edirdi. “Əkinçi”, “Həyat”, “Tərəqqi”, “İqbal”, “Səda” qəzetləri “Tazə həyat”, “Şəlalə” məcmuələri ilə çəkişirdilər. Hicabın ləğv olunmasına qarşı çıxanlara Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbov cavab olaraq “Səda” qəzetinə göndərdiyi məktubda yazırdı: “qadınların üzü, əlləri və ayaqlarının açıq olması caizdir”.

Belə bir vaxtda ziyalı qadınlar Bakıda “İşıq” adlı qadınlar qəzetinin açılmasına nail oldular və onun tribunasından öz hüquqsuz vəziyyətlərini aləmə bəyan etdilər.

Amalya Qasımova öz çıxışını müasir dövrdə mövcud qadın problemlərinə yönəltmişdir və demişdir ki, bu gün də qadınlarımızın həyatında müəyyən çətinliklər mövcuddur. Azyaşlı qızlar yaşlı kişilərə ərə verilir və ailə yükünü çəkə bilməyib ayrılırlar, yaxud övladlarından imtina edirlər. Zorakılıq halları, həyatlarına yaranan təhlükələr artır. Əslində biz ziyalı qadınların da əlində sosial şəbəkələr kimi bir tribuna var. Burada öz sözümüzü deyib təbliğatımızı aparmalıyıq. Bizim hər birimiz belə hallara qarşı çıxmalıyıq.

Sonra konfransda bu mövzuda geniş müzakirələr aparılmışdır. Gəncə şəhər MKS-nin direktor vəzifəsini icra edən Tərifə Abbasova, yazıçı-dramaturq, publisist və ictimai xadim Nüşabə Əsəd Məmmədli, “Gəncənin səsi” qəzetinin Baş redaktoru Rəfiqə Sadıqova, AYB-nin Gəncə Bölməsinin sədri Xəzangül Hüseynova, şairə, AYB-nin üzvü Aləmzər Əlizadə, “Novosti Qyandji” qəzetinin əməkdaşı Fatma Cəfərova, AMEA Gəncə bölməsinin sədr müavini, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov, GDU-nun tarix üzrə fəlsəfə doktoru Nurlana Həmzəyeva, Azərbaycan-Xəbər portalının Gəncə bölməsinin rəhbəri Dəniz Əlizadə, AMEA Gəncə Bölməsinin tarix şöbəsinin müdiri Nərgiz Rəsulova, Gənclər Evinin əməkdaşı Xuraman Ağayeva və başqaları çıxış edərək müzakirə olunan məsələ ilə bağlı öz fikirlərini bildirmiş və təkliflər irəli sürmüşlər.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

*Gəncə*

# Görkəmli aktyor əbədiyyətə qovuşdu

**Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Görkəmli teatr və kino və xadimi, Azərbaycanın Xalq artisti, Dövlət mükafatı laureatı, “Şöhrət” və “Şərəf” ordenli Hacı Murad Hacı Əhməd oğlu Yegizarov ömrünün 86-cı ilində Almaniyada müalicə prosesində dünyasını dəyişib.**



XIX əsrdə Qafqazda tanınmış musiqi xadimi və xeyriyyəçi olmuş şamaxılı Mahmud ağanın nəticəsi Hacı Murad Yagizarov 1939-cu ildə Bakıda doğulub. Orta məktəbdə oxuduğu dövrdə dram dərnəyində çıxış edib. Görkəmli aktyor Ələsgər Ələkbərovun məsləhəti ilə İncəsənət İnstitutuna daxil olan gənc sənətçi aktyorluq fakültəsində Məhərrəm Haşımovun kursunu bitirib. Şux qaməti, istedadı kinorejissorların da diqqətini cəlb edib. O, instituta qəbul olunduğu 1958-ci ildə iki filmə rejissor Həbib İsmayılovun quruluş verdiyi “Ögey ana” filmində çəkilib.

Hacı Murad Yegizarov 1962-ci ildə Səməd Vurğun adına Rus Dram Teatrında fəaliyyətə başlayıb. İstedadlı aktyor ötən əsrin 60-70-ci illərində teatr səhnəsində “Sən niyə yaşayırsan?”, “Həyat necə də qısadır”, “Pik saatı”, “Öz yolunla” və digər tamaşalardakı rolları ilə sənətdə ilk uğurlarını qazanıb. Onun sənət yolu “Valentin və Valentina”da Qusev, “İvanov”da doktor Lvov, “Qumluqdakı ev”də Eldar, “Aydın”-da Dövlət bəy, 80-ci illərdə ilk dəfə rus dilində tamaşaya qoyulmuş “Şeyx Sənan2da Şeyx Sənan, “Arzu tramvayı”nda Stenli “Arşın mal alan”, “Böyük dayaq”, “Uzaq sahillərdə”, “Ulduz”, “Aygün”, “Bir cənub şəhərində”, “Bağ mövsümü, “Nizami”, “Babək”, “Birisigün, gecəyarısı”, “İnsan məskən salır”, “Qara gölün cəngavərləri”, “O qızı tapın”, “Səmt küləyi”, “Şeytan göz qabağında” və başqa filmlər Hacı Murad Yegizarovu kino aktyoru kimi də məşhurlaşdırıb. Aktyor Çexiyada, Gürcüstanda, Almaniyada da 40-dan çox filmə çəkilib.

Hacı Murad Yegizarov 1974-cü ildə “Əməkdar artist”, 1982-ci ildə “Xalq artisti” fəxri adlarına, 1986-cı ildə Dövlət mükafatına layiq görülüb.

Allah rəhmət eləsin!

**“Xalq qəzeti”**

# Şəhid anası köməksiz deyil



**Bu gün Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan igidlərimizin ailələri, onların əzizləri tək deyillər. Onların yanında güclü bir dövlət, sarsılmaz bir millət və daim onların qayğısını çiyinlərində daşıyan rəhbərlik var.**



Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birgə Vətən müharibəsi şəhidi Mahmud Fərman oğlu Əhmədovun ürək əməliyyatı keçirən anası Aybəniz xanımı yaşadığı evdə ziyarət edib.

Onları öz evində görən Aybəniz ana göz yaşlarını gizlədə bilmədi. Həm qürur vardı o göz yaşlarında, həm də minnətdarlıq. “Bu gün mən özümü tək hiss etmirəm. Övladımı itirmişəm, amma dövlətimi yanımda görürəm. Bu, mənim üçün böyük təsəllidir,”, deyə Aybəniz ana ürək dolusu danışdı.

Ziyarət zamanı ailənin səhhəti, yaşayış durumu və gündəlik ehtiyacları ilə yaxından maraqlanılıb. Şəhid ailələrinə göstərilən dövlət qayğısından bəhs olunub. Bildirilib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva şəhid ailələrini daim diqqət mərkəzində saxlayır, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində sistemli addımlar atılır.

Aybəniz ana da öz növbəsində göstərilən bu yüksək diqqət və qayğıya görə dövlət başçısına və onun xanımına dərin minnətdarlığını ifadə edib: “Mən təkcə şəhid Mahmudun anası deyiləm, bu xalqın anasıyam. Mənə sahib çıxan dövlətimə, Prezidentimə, Mehriban xanıma təşəkkür edirəm. Hər addımda hiss edirik ki, biz unudulmamışıq, biz sahibsiz deyilik”.

İnsan övlad itkisinin yarasını heç vaxt tam bağlaya bilməz. Amma dövlətin, xalqın və rəhbərliyin şəhid analarının yanında olması onların yaralarını bir qədər də olsa yüngülləşdirir. Bu gün Aybəniz ana bir daha gördü ki, onun ocağı sönməyib. O ocaq Mahmud kimi qəhrəmanların canı bahasına yanmaqda davam edir.



Seymur Orucov da öz çıxışında vurğulayıb ki, şəhid ailələrinə diqqət və qayğı göstərmək hər birimizin mənəvi borcudur. O, belə ailələrin yalnız dövlətin deyil, bütöv cəmiyyətin əmanəti olduğunu qeyd edib.

*Q.HAMLET,*
*XQ-nin bölgə müxbiri*

**Ağstafa**

# “AVTOMOTOSERVİS" ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

**Maliyyə Vəziyyəti Haqqında Hesabat**

manat

| | Qeyd | 31 Dekabr 2024 | 31 Dekabr 2023 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Qeyri maddi aktivlər | 13 | - | - |
| Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər) | 13 | 280635 | 297939 |
| İnvestisiyalar | | 16014 | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **296649** | **297939** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 11 | 69212 | 69212 |
| Qısamüddətli debitor borcları | 14 | 47188 | 27278 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 159811 | 133760 |
| Sair qısamüddətli maliyyə aktivləri | | - | - |
| Sair qısamüddətli aktivlər | 15 | 420 | 22062 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **276631** | **252312** |
| **CƏMİ AKTİVLƏR** | | **573280** | **550251** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | | 521841 | 521841 |
| Kapital ehtiyatları | | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | - | - |
| **CƏMİ KAPİTAL** | | **521841** | **521841** |
| **Öhdəliklər** | | | |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Taxirəsalınmış vergi öhdəliyi | | - | - |
| Uzunamüddətli kreditor borcları | 17 | - | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | - | - |
| *Qısamüddətli öhdəliklər* | | - | - |
| Qısamüdətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| Qısamüdətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 18 | 11875 | 545 |
| Qısamüddətli kreditor borcları | 18 | 14393 | 3717 |
| Sair qısamüddətli öhdəliklər | 18 | 25171 | 24148 |
| **CƏMİ QISAMÜDDƏTLI ÖHDƏLIKLƏR** | | **51439** | **28410** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **51439** | **28410** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **573280** | **550251** |

**Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat**

manat

| | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti:** | | | |
| Vergitutmadan əvvəl mənfəət (xərclər) | | 39503 | 40186 |
| Mənfəət vergisi üzrə xərclər | | (7901) | (8037) |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| • Bina, qurğu və avadanlıqların amortizasiyası | 13 | 34815 | 33791 |
| • Qeyri maddi aktivlərin amortizasiyası | | - | - |
| • Bina, qurğu və avadanlıqların xaricolmasından mənfəət | | - | - |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | - | - |
| • Ehtiyatlar üzrə artma/azalma | | - | 2305 |
| • Debitor borcları üzrə artma/azalma | | (19910) | 9066 |
| • Maliyyə aktivlər üzrə artma/azalma | | - | - |
| • Sair aktivlər üzrə artma/azalma | | 5629 | 38344 |
| • Əməliyyat kreditor borcları üzrə artma/azalma | | 14393 | (5107) |
| • Vergi və sosial sığorta öhdəlikləri üzrə artma/azalma | | 11330 | (6696) |
| • Uzunmüddətli kreditor borcları üzrə artma/azalma | | - | - |
| • Alınmış avanslarda artma/azalma | | (3717) | 3717 |
| • Sair kreditor borcları üzrə artma/azalma | | 1023 | (14196) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **75165** | **93373** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti:** | | | |
| Əsas vəsaitlərin alınması | 13 | (17511) | (38096) |
| Qeyri-maddi aktivlərin alınması | | - | - |
| Əsas vəsaitlərin xaricolması üzrə qalıq dəyəri | 13 | - | 8095 |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər məzənnə fərqi | | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(17511)** | **(30002)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti:** | | | |
| Borc ödənilməsi/ daxilolmalar | | - | - |
| Kapitalda pay sahiblərinə ödənilən dividendlər | | (22664) | (24148) |
| Qeyri-nəzarət payına ödənilən dividendlər | | - | - |
| Xalis mənfəətdən çıxılmalar | | (8938) | (8001) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(31602)** | **(32149)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | 26051 | 31222 |
| Valyuta fərqləri | | - | - |
| **1 Yanvar tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri** | 12 | **133760** | **102538** |
| **31 Dekabr tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri** | 12 | **159811** | **133760** |

**Maliyyə Nəticələri Haqqında Hesabat**

manat

| | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 6 | 496247 | 453601 |
| Satışın maya dəyəri | 7 | (417959) | (380262) |
| **Ümumi mənfəət** | | **78288** | **73339** |
| Sair əməliyyat gəlirləri | 6 | - | 8475 |
| Sair əməliyyat xərcləri | 13 | - | (8095) |
| Marketinq və kommersiya xərcləri | | - | - |
| İnzibati xərclər | 8 | (38785) | (33522) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **39503** | **40197** |
| Maliyyə gəlirləri | 9 | - | - |
| Maliyyə xərcləri | 9 | - | - |
| Fövqəladə gəlirlər | 10 | - | - |
| Fövqəladə xərclər | 10 | - | (11) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **39503** | **40186** |
| Mənfəət vergisi | 19 | (7901) | (8037) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 20 | **31602** | **32149** |
| Xitam verilmiş əməliyyatlar | | - | - |
| Hesabat dövrünə aid olmayan xalis mənfəətdən çıxılmalar | | - | - |
| Xalis mənfəətdən çıxılmalar | | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **31602** | **32149** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| - Təsisçilərin payı | | 100% | 100% |
| - 1 paya düşən mənfəət | | 316.02 | 321.49 |

**Kapitalda Dəyişikliklər Haqqında Hesabat**

manat

| | Qeyd | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Sair ehtiyatlar | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2023-cü il tarixinə** | | **521841** | - | - | - | **521841** |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | - | - | - | - | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | - | - | 32149 | - | 32149 |
| Mülkiyyətçilərin kaptal qoyuluşları | | - | - | (8001) | - | (8001) |
| Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər) | | - | - | (24148) | - | (24148) |
| **31 dekabr 2023-cü il tarixinə** | | **521841** | - | - | - | **521841** |
| **01 yanvar 2024-cü il tarixinə** | | **521841** | - | - | - | **521841** |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | - | - | - | - | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | - | - | 31602 | - | 31602 |
| Mülkiyyətçilərin kaptal qoyuluşları | | - | - | (8938) | - | (8938) |
| Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər) | | - | - | (22664) | - | (22664) |
| **31 dekabr 2024-cü il tarixinə** | | **521841** | - | - | - | **521841** |

**“AVTOMOTOSERVİS" ASC-nin təsisçilərinə:**

**Maliyyə hesabatlarının auditinə dair:**

**Rəy**

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 27.02.2024-cü il tarixli AT/048 saylı icazəyə əsasən fəaliyyət göstərən "Azərbeynəlxalqaudit xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC-nin) direktor-auditor, Auditorlar Palatasının üzvü Əhmədov Misir Zaman oğlu, sifarişçi "AVTOMOTOSERVİS" ASC-nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları "AVTOMOTOSERVİS" ASC-nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq "AVTOMOTOSERVİS" ASC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyəti şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, biləərəkdən və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**Azərbeynəlxalqaudit xidməti**
**MMC-nin direktoru və auditoru:**
**Misir Əhmədov**
**02.06.2025-ci il**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 196 (30890) 14 sentyabr 2025-ci il, bazar

# Dünyanı dolaşan xalçalar Bakıya qayıdıb

## Xalçaçı-rəssam Faiq Əhmədin yeni sərgisi






**Azərbaycan xalçası min illərlə yoğrulmuş zəngin mədəniyyətimizin, incə zövqümüzün və dərin düşüncələrimizin canlı daşıyıcısıdır. Hər ilmədə bir tarix, hər naxışda bir hekayə gizlənir. Bu qədim sənətə yeni nəfəs verən sənətkar isə Əməkdar rəssam Faiq Əhməddir.**

O, heykəltəraşlıq təhsili almasına baxmayaraq, xalçaçılıq sənətini müasir incəsənət, fəlsəfə və texnologiya ilə birləşdirərək beynəlxalq səviyyədə geniş tanınıb. Rəssamın bənzərsiz yanaşması ənənəvi xalça naxışlarını yeni vizual sərhədlərə çıxarır və xalq sənətinin nə qədər dinamik və yenilikçi ola biləcəyini göstərir. Rəssamın əsərlərində naxışlar sanki aşağı axır. Bu yanaşma ilə Faiq Əhməd həm ənənəyə hörmət edir, həm də ona tamamilə fərqli, müasir və qeyri-adi bir baxış gətirir. Sənətkar xalçanı, sadəcə, bəzək əşyası kimi deyil, fəlsəfi mənalı bir sənət obyekti kimi təqdim edir.

Sentyabrın 11-də Azərbaycan Milli Xalça Muzeyində açılan "Faiq Əhməd: 2011–2024-cü illər dövrü" sərgisi sənətkarın 13 illik bədii axtarışlarını əhatə edir. Bu sərgi Faiq Əhmədin xalça sənətini ikiölçülü səthdən üçölçülü heykəltəraşlıq obyektinə necə çevirməsini əks etdirir. Ekspozisiya xalçalarla yanaşı, rəssamın yaradıcılıq fəlsəfəsini izah edən videoçarxlarla da zəngindir. Burada sərgilənən "Sosial anatomiya" və "Sən bir sirsən" adlı videoçarxlar tekstil sənətinə yanaşmanın zamanla necə dəyişdiyini göstərir. Rəssamın digər əsəri "Şübhələr"də əsas ideya daim bir sual içində olmaq, nəyəsə tam əmin ola bilməmək hissini əks etdirir. Faiq Əhmədin sözlərinə görə, o heç vaxt hər şeydən tam əmin olmur, buna görə əsərin bir tərəfi aydınlığı, digər tərəfi isə qarışıqlığı simvolizə edir ki, bu da sənətkarın öz daxili axtarışlarını əks etdirir.



Sənətkar öz yaradıcılığının fəlsəfəsi barədə danışarkən müasir incəsənətin zamanın ruhunu əks etdirməli olduğunu vurğulayır. O, əsərlərində danışdığı dilin Azərbaycan dili, istifadə etdiyi əsas elementin isə milli xalçalarımız olduğunu qeyd edir: "Ənənəvi Azərbaycan xalçasını müasir incəsənətlə birləşdirmək ideyası öz köklərini Azərbaycanın mədəniyyətindən götürür. Mən rəssam özümü azad hiss edirəmsə, bu, xalça sənətini müasir incəsənətlə birləşdirməyimin sübutudur. Əsas məqsəd həm ənənəni qorumaq, həm də onu müasirliklə sintez etməkdir. Hər iki dəyər vəhdətdə olduqda ortaya daha gözəl və mənalı əsərlər çıxır".

Faiq Əhmədin yaradıcılığı dünyanın ən nüfuzlu muzeylərinin daimi kolleksiyalarına da daxil edilib. Ağa Xan Muzeyi (Toronto), Viktoriya və Albert Muzeyi (London), Heydər Əliyev Mərkəzi (Bakı) və Los-Anceles İncəsənət Muzeyi kimi məkanlar onun sənətinə evsahibliyi edir. O, həmçinin Venesiya və Merkosur Biennalesində Azərbaycanı uğurla təmsil edərək ölkəmizin mədəniyyətini yüksəklərə qaldırıb.

Sərgidə rəssamın Almaniyada işıq üzü görən yeni kitabının təqdimatı da keçirilib. Ekspozisiyada yer alan xalçaların əksəriyyəti ilk dəfə olaraq Azərbaycan tamaşaçısına təqdim edilsə də onlar artıq dünyanın müxtəlif yerlərində, o cümlədən San Fransisko, London, Nyu–Orlean, Toronto və digər şəhərlərin muzeylərində nümayiş olunub.

Muzeyin direktoru Əminə Məlikova tədbir haqqında danışarkən sərginin incəsənət ictimaiyyəti üçün böyük əhəmiyyət daşıdığını bildirib:

– Faiq Əhməd ənənəvi Azərbaycan xalçaçılığına gətirdiyi innovativ yanaşma ilə qədim sənət növünü müasir düşüncə, fəlsəfə və texnologiya ilə harmonik şəkildə birləşdirib.

Mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov rəssamın qeyri-adi düşüncəyə və yaradıcılığa sahib olduğunu vurğulayaraq bu sərgini uzun müddət gözlədiyini və onun Azərbaycanın müasir incəsənət aləminə böyük töhfə verdiyini diqqətə çatdırıb.

Sərgidə iştirak edənlər arasında fikirlərini bölüşən dizayner Elmar Rəsulov Faiq Əhmədin işlərini illərdir izlədiyini bildirib:

– Hər dəfə onun yaradıcılığı məni heyrətləndirir. Ənənəvi naxışların belə cəsur və müasir bir formada təqdim olunması dizayn dünyası üçün əsl ilham mənbəyidir. Əsərlər bir hekayə danışır və hər biri fərqli duyğu oyadır. Bu sərgi Azərbaycan xalqının sənətə baxışının nə qədər innovativ olduğunu göstərir.

İncəsənət Universitetinin tələbəsi Aysel Məmmədova isə təəssüratlarını belə ifadə edib: "Bu sərgi mənim üçün sadəcə bir nümayiş deyil, həm də bir dərs idi. Faiq Əhməd bizə göstərir ki, ənənələrimizi qorumaqla yanaşı, onları necə müasirləşdirmək olar. Bu, gənc sənətçilər üçün çox dəyərli bir təcrübədir".

Sərgi bir daha sübut edir ki, Azərbaycan xalçaçılığı sadəcə keçmişin mirası deyil, həm də milli kimliyimizi dünyaya çatdıran və gələcəyə körpü quran dinamik sənət formasıdır. Sənətsevərləri bənzərsiz yaradıcılıq səyahətinə dəvət edən "Faiq Əhməd: 2011–2024-cü illər dövrü" sərgisi 30 dekabr 2025-ci il tarixinədək davam edəcək.

*Arzu ƏLİYEVA*
*XQ*

## İDMAN

### Dünya çempionatında 2 bürünc medal




**Böyük Britaniyanın Liverpul şəhərində keçirilən dünya çempionatında boksçularımız 2 medal qazanıblar. Azərbaycan Boks Federasiyasından bildirilib ki, millinin heyətində Səidcəmşid Cəfərov (75 kiloqram) və Alfonso Dominqes (90 kiloqram) mundialı 3-cü pillədə başa vurublar.**

Dünya çempionatının yarımfinalında Cəfərov (75 kiloqram) özbəkistanlı Fazliddin Erkinboyevə, Alfonso Dominqes (90 kiloqram) isə braziliyalı Santos Ribeyro Filyoya məğlub olub. Hər iki rəqib finala vəsiqə qazandığı üçün boksçularımız 3-cü yeri tutub.

### "İmişli" qalib gəlsə də...



**Dünən Misli Premyer Liqasında IV turun iki oyunu keçirilib. Quba Olimpiya İdman Kompleksinin stadionunda "İmişli" və "Sumqayıt" komandaları qarşılaşıb. Oyun meydan sahiblərinin qələbəsi ilə başa çatıb – 1:0. Görüş meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Buna baxmayaraq, adı protokolda olmayan İbrahim Əliyevi meydana buraxdığına görə "İmişli"yə texniki məğlubiyyət veriləcək.**

Günün ikinci qarşılaşmasında "Azərsun Arena"da "Turan Tovuz" "Qəbələ"ni qəbul edib. Oyun 1:0 hesabı ilə başa çatıb.

Xatırladaq ki, turun ilk oyun günündə "Araz-Naxçıvan" "Kəpəz"i 2:0 hesabı ilə məğlub edib, "Qarabağ" – "Zirə" (1:1) görüşündə isə komandalar heç-heçə edib, "Neftçi" "Sabah"a 1 qol vurublar.

### Güləşçilərimiz Zaqrebdə mübarizəyə başlayıb



**Azərbaycanın sərbəst güləşçiləri dünən Xorvatiyanın paytaxtı Zaqreb şəhərində start götürən dünya çempionatında mübarizəyə başlayıb.**

61 kiloqram çəkidəki pəhləvanımız Nürəddin Novruzov 1/8 finalda iranlı Ahmad Mohammadnejadcavana 2:5 hesabıyla məğlub olub. Kənan Heybətov (70 kq) iranlı, dünya çempionatının ikiqat gümüş medalçısı Amirmohammad Yazdaniçeratiyə (15:4) və Baham adaları təmsilçisi Şannon Hannaya (10:0) tam üstünlüklə qalib gəlsə də 1/4 finalda ermənistanlı Avropa çempionu Arman Andreasyana 6:8 hesabıyla məğlub olub.

86 kiloqramda təmsilçimiz Arseniy Djioyev Puerto-Riko idmançısı Ethan Ramosa 5:2 hesabıyla qalib gəlsə də, 1/4 finalda yaponiyalı Hayato İşiquroya 8:13 hesabıyla məğlub olub. 125 kiloqramdakı təmsilçimiz Giorgi Meşvildişvili isə özbəkistanlı Xasanboy Raximova və macarıstanlı Vladislav Baytsayevə eyni hesabla (7:0) qalib gələrək karyerasında ilk dəfə dünya çempionatının yarımfinalına yüksəlib. Giorgi axşam saatlarında yarımfinalda polşalı Robert Baranla qarşılaşıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Payız duyğuları




**Artıq fəsillərin gözəli qızıl payızın astanasındayıq. Gəlişini təbiətin üzərinə nur pərdəsi kimi enən yağışla xəbər verir. Bu yağış həm torpağı isladır, həm də ruhumuzu təmizləyir, içimizdəki köhnə izləri yuyur, yeni duyğular üçün yol açır. Təbiətin şıltaqlığı isə bu sehrin ayrılmaz parçasıdır.**

Dünən parlaq günün altında nazik köynəkdə gəzdiyimiz küçələr bu gün əynimizdəki gödəkçələrə şahidlik edir. Təbiətin əsrarəngiz gücü məhz bu dəyişkənliyindədir. Onunla mübarizə aparmaq mümkün deyil, çünki təbiət öz qanunları ilə yaşayır, nizamını özü qurur. Bizim işimiz isə bu möcüzəni sevmək, duymaq, qəbul etməkdir.

Payız yağışı həyat rəmzidir. O, torpağa nəfəs, ağaca güc, çiçəyə can verir. Sanki göydən süzülən hər damla insana bir ümid, bir sevinc, bir ruh təzəliyi bəxş edir.

Payız yağışı təbiətin musiqisidir, küləyin müşayiəti ilə yarpaqların xışıltısı, buludların naləsi ilə birləşən möhtəşəm ahəngdir. İnsan bu səsin içində həm tənhalığı, həm də ümidini tapır.

Yağış dayananda sükut başlayır, lakin o damlaların izi torpaqda, ürəklərdə yaşayır. Hər kəs bilir ki, payızın göz yaşları yazın təbəssümünə aparan yolun başlanğıcıdır.

Ona görə də payız yağışı təkcə təbiətin yox, həm də insan qəlbinin fəlsəfəsidir - köhnəni yuyub aparır, yeniyə yol açır. Şair gözəl deyib:

**Damcı-damcı süzülür,**
**Göy üzü könül açır.**
**Hər damlada bir nəfəs,**
**Torpağa həyat saçır.**

*Samir ƏSƏDLİ*

## Bakıya yağış, rayonlara sulu qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən günün birinci yarısında yarımadanın bəzi yerlərində leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 17-20, gündüz 20-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu, nisbi rütubət isə 75-85 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 15-19, gündüz 20-25, dağlarda gecə 4-7, gündüz 7-12 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3430
SİFARİŞ 1742
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00